# XANIMLAR, BAYRAMINIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 9 (6052) 8 mart 2024-cü il | Qiyməti 40 qəpik

## İlham Əliyev Azərbaycan qadınlarını təbrik etdi



Bax:səh-2

## Vilayət Eyvazov 28 nəfər Vətən müharibəsinin iştirakçısını işə qəbul etdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 5-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Adalet.az xəbər verir ki, sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 210 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 28 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

**Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.**

## Naxçıvan polisinə 20 yeni xidməti avtomobil verilib

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin maddi texniki bazasının gücləndirilməsi üçün daha 20 yeni xidməti avtomobil göndərilib.**

Adalet.az xəbər verir ki, bu barədə DİN-dən bhildirilib.

Bu gün həmin avtomobillər müvafiq qurumların istifadəsinə verilib.

## AQİL ABBASIN SALYAN ZİYALILARI İLƏ GÖRÜŞÜ KEÇİRİLDİ



**Bu günlərdə Salyan şəhərinin yaradıcı adamları və ziyalıları ilə yazıçı, millət vəkili Aqil Abbasın görüşü olmuşdur. Görüşü rayon icra hakimiyyəti başçısının 1-ci müavini Rəşad Cəbrayılov açdı. Rəşad müəllim yazıçının həyat və yaradıcılığı barədə tədbir iştirakçılarına geniş məlumat verdi.**

Bax:səh-3

## *Universitetlər bölgələrə köçürülür?*

**Azərbaycanda universitetlərin bir bölgədən digərinə köçürülməsi real deyil.**

Adalet.az xəbər verir ki, bu barədə məlumat Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatında əks olunub.

Bildirilib ki, hər hansı ali təhsil müəssisəsinin bir bölgədən digərinə köçürülməsi üçün yeni bölgədə müvafiq maddi-texniki baza və infrastruktur yaradılmalıdır ki, bu işlər çox böyük maliyyə vəsaiti tələb edir. Eyni zamanda qeyd olunub ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilib. Strategiyanın Tədbirlər Planında universitetlərin köçürülməsi ilə bağlı tədbirlər nəzərdə tutulmayıb. Odur ki, yaxın gələcəkdə Kürdəmir şəhərinə hər hansı ali təhsil müəssisəsinin köçürülməsi real deyil.

*Əbülfət MƏDƏTOĞLU*

## *Anama məktub*

Bax:səh-5

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## "QARABAĞ BÜLBÜLLƏRİ"ni MURAD RZAYEV DEYİL, NEMESLƏR YARADIB



**Amil Xəlil "Space" kanalında çox maraqlı bir proqram hazırlayıb: "Gəl, danış". Axtarır, arayır, unudulmuş sənətkarları, özü də o sənətkarları ki Azərbaycan musiqisində, mədəniyyətində izlər buraxıblar, tapır və xalqa təqdim edir. Özü də tam səmimi və dopdolu.**

**Bu proqramı maraqla izləyirəm.**

**Sonuncu proqramını da "Qarabağ bülbülləri"nin, vaxtilə dünyaya səs salan "bülbüllərinin" unudulmaqda olan xanəndələrinə həsr eləmişdi.**

**Çox qəribədir, demək olar ki, bütün proqram "Qarabağ bülbülləri"nin yaradıcısı Murad Rzayevin tənqidinə köklənmişdi. Söhbətdən belə çıxırdı ki, bu ansamblı 1963-cü ildə o vaxt Pionerlər Evinin direktoru Kamal Bağırov yaradıb. Pionerlər Evi uşaqlar üçün bir yaradıcılıq dərnəyi idi, özü də mədəniyyətin bütün sahələrində. Mən də təzəcə Ağdama köçəndə tar çalmağı öyrənmək üçün getdim Pionerlər Evinə, qabiliyyətim olmadığına görə öyrənə bilmədim.**

Bax: səh.3

# İlham Əliyev Azərbaycan qadınlarını təbrik etdi



**Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zəmin üzərində formalaşmışdır.

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması anaların adı ilə sıx bağlıdır.

Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar.

Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları, eyni zamanda, güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər. Mədəni tərəqqi yolunda əzmlə çalışmış maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları kimi onların hazırkı yüksək ictimai nüfuzu və səhiyyə, təhsil, mədəniyyət, elm sahələrindəki mühüm nailiyyətləri ölkəmizin hərtərəfli inkişafını səciyyələndirən amillərdəndir.

Biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik. İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq qazandıran doğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər".

# Prezident İlham Əliyev bu qadınları "Tərəqqi" medalı ilə təltif etdi

**Prezident İlham Əliyev Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilirlər:

**Atamoğlanova Natəvan Dəmirçi qızı**
**Behbudova Gülşən Behbud qızı**
**Əhmədova Kəhlik Talış qızı**
**Əliyeva Gültəkin Budaq qızı**
**Haqverdiyeva Sevda Haqverdi qızı**
**Həsənova İlhamə Hüseyn qızı**
**Hüseynova Mariya Pavlovna**
**Hüseynova Reyhan Kamranovna**
**Hüseynova Zərifə Bəşir qızı**
**Mehrəliyeva Sevil Əli qızı**
**Məsimova Taliyə Fəxrəddin qızı**
**Ramazanova Bədyalcamal Süleyman qızı.**

# Ceyhun Bayramov Hakan Fidanın müavinini qəbul etdi

**Xarici işlər naziri Ceyhun Bayramov Türkiyə tərəfini Azərbaycanla Ermənistan arasında sülh prosesi istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.**

Bu barədə Adalet.az-a Xarici İşlər Nazirliyindən bildirilib.

Qeyd olunub ki, C.Bayramov martın 7-də Azərbaycanda səfərdə olan Türkiyənin xarici işlər nazirinin müavini Yasin Ekrem Serim ilə görüşüb. Görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi ətrafında fikir mübadiləsi aparılıb.

İki ölkə arasında bütün səviyyələrdə strateji müttəfiqlik münasibətlərinin daha da genişləndirilməsi istiqamətində səylərdən məmnunluq ifadə olunub. Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, nəqliyyat və kommunikasiya, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə daha da genişləndirilməsinin vacibliyi qeyd olunub. Nazir Ceyhun Bayramov Antalya Diplomatiya Forumunun yüksək səviyyədə təşkili ilə bağlı təəssüratlarını bölüşüb, qardaş Türkiyənin diplomatik uğurları və diplomatik nümayəndəliklərinin sayına görə dünyada 3-cü yerə yüksəlməsi ilə fəxr etdi-



yini bildirib. Azərbaycan-Türkiyə Universitetinin yaradılması istiqamətində qərarın iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı daha da dərinləşdirəcəyi diqqətə çatdırılıb.

Habelə, beynəlxalq və regional təhdidlər, miqrasiya problemi və digər istiqamətlərdə ikitərfli və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb.

Azərbaycanın əsas xarici siyasət prioritetlərindən olan Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyəti qeyd olunub.

Görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfi Azərbaycan Ermənistan arasında sülh prosesi istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir bölgədə sülh və sabitliyin bərqərar olması üçün Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialardan əl çəkməsinin vacibliyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Siyasi şərhçi: "Yalnız bu yol Ermənistanı müharibə təhlükəsindən uzaqlaşdıra bilər"

**Erməni mediası kimi erməni ictimaiyyəti də düşünür ki, yeni müharibə olacaq. Yəni Azərbaycan müharibəni başladacaq. Bu fikir növbəti erməni uydurmasıdır yoxsa, doğrudanda elə bir zəmin yaranıb?**

Məsələ ilə bağlı Adalet.az-ın suallarını "Atlas" Araşdırmaları Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu cavablandırıb:



"Ermənistanda "Gallup International" mərkəzinin keçirdiyi son sorğunun nəticəsinə görə, faktiki hər iki ermənidən biri Azərbaycanla yeni müharibə təhlükəsinin real olduğunu bildirib. Əslində bunun obyektiv səbəbləri var. Biz nə qədər yeni müharibə istəmədiyimizi bildirsək də, 8 kənd və Zəngəzur dəhlizi məsələsində qətiyyətli mövqeyimizi davam etdiririk.

Bu da ermənilərdə belə əhval-ruhiyyə yaradıb ki, Azərbaycan istəklərini əldə etmək üçün yeni müharibəyə başlaya bilər.

Deməli, əgər ermənilər müharibə istəmirlərsə bu iki məsələnin həllini sürətləndirməlidirlər.

Baş nazir Nikol Paşinyan bölgədə sülhün əldə olunması və əməkdaşlığa başlanılması üçün addım atarsa bunun qarşılığında Azərbaycan və Türkiyə Ermənistanın regional layihələrə qoşulması üçün imkan yaradacaqlar. Bu yol Ermənistanı müharibə təhlükəsindən uzaqlaşdıracaq"- deyə ekspert vurğulayıb.

**Qeyd edək ki, Hindistanın, Fransanın, İranın silahlandırdığı Ermənistan bu hərbi dəstəklərdən cuşə gələrək son günlər revanşist davranışlar sərgiləməkdən çəkinmir. Məsələn ötən gün Ermənistan baş naziri Paşinyanın "31 erməni kəndi" iddiası bu revanşizmə misaldır.**

**Əntiqə Rəşid**

# Təhlükə sərhədlərimizə yaxınlaşır: Kipr də anti-Azərbaycan birliyinə qoşuldu

**Xəbər verdiyimiz kimi, 2023-cü ilin İyulun 5-də Yunanıstan, Ermənistan və Kipr üçtərəfli müdafiə məsləhətləşmələri keçirib. Görüş hər üç ölkənin silahlı qüvvələrinin mühüm dəyişikliklərdən keçdiyi bir vaxta təsadüf edir. Kiprdə keçirilən bu görüşdə üç ölkənin rəsmiləri qarşılıqlı maraq doğuran təhlükəsizlik məsələlərini müzakirə etdilər, öz müdafiə və təhlükəsizliklərini gücləndirmək məqsədini bir daha təsdiq etdilər. 2024-cü il ərzində bir-birlərinin ərazilərində keçirəcəkləri silsilə tədbirlər üçün əməkdaşlıq planı da imzalandı.**

Bundan həmən sonra - ötən ilin dekabrında Ermənistan və Yunanıstan arasında hərbi-texniki sahədə əməkdaşlıq haqqında saziş də imzalandı.

Bu ilin fevralında Ermənistanın Baş naziri Nikol Paşinyan həyat yoldaşı Anna Akopyanla birlikdə Yunanıstana işgüzar səfərə getməsi



martın 4-də Yunanıstanın müdafiə naziri Nikos Dendias İrəvana rəsmi səfərdə olması politoloqların dediyi kimi heç də gözlənilməz olmadı. Dendias səfər çərçivəsində bu ölkənin hərbi-siyasi rəhbərliyi ilə danışıqlar apardı. Martın 6-7-də Kipr Respublikasının xarici işlər naziri Konstantinos Kombos Ermənistanda rəsmi səfəri də Azərbaycan əleyhinə yaradılmış birliyin möhkəmlənməsinə və genişlənməsinə bir işarədir.

Martın 7-də Ermənistan və Kiprin xarici işlər nazirlərinin görüşü baş tutacaq, ondan sonra xarici işlər nazirlərinin birgə mətbuat konfransı keçiriləcək.

Qeyd edək ki, ötən ilin sentyabrında Yunanıstan hərbçiləri Ermənistanda hərbi təlimlərdə iştirak etdi. Noyabrın noyabrın 6-dan 10-dək isə Ermənistan, Yunanıstan və Kiprin xüsusi təyinatlı qüvvələrinin birgə təlimləri Yunanıstanın milli müdafiəsinin baş qərargahı olan Attikanın Nea Peramos bölgəsində keçirildi.

Birgə təlimlər Yunanıstan, Kipr və Ermənistan arasında 2023-cü il üçün Birgə Fəaliyyət Planının bir hissəsi idi və iştirakçılar arasında qarşılıqlı anlaşma səviyyəsinin yüksəldilməsinə və təcrübə mübadiləsinə, eləcə də onların əməliyyat imkanlarının artırılmasına xidmət edirdi.

Təlimlər sürətli döyüş atışları, snayper texnikası və taktikası, yaşayış sahəsi daxilində rəqabətin texnikası, taktikası və prosedurları, kiçik miqyaslı təlimlərin təşkilini əhatə etdi. Xatırladaq ki, Fransa, İran, Hindistan, Yunanıstan və Kipr artıq Ermənistanı silahlandırmaqla bərabər həm də onun təhlükəsizliyinə, müdafiəsinə cavabdehliyi öz üzərilərinə götürüblər

***P.S. Azərbaycan əleyhinə yaradılan birliyi və prosesi diqqətlə izləyərkən belə qənaətə gəlmək olar ki, Azərbaycanı qarşıda ağır və təhlükəli günlər gözləyir.***

**Əntiqə Aslan**

# "QARABAĞ BÜLBÜLLƏRİ"ni MURAD RZAYEV DEYİL, NEMESLƏR YARADIB

Amil Xəlil "Space" kanalında çox maraqlı bir proqram hazırlayıb: "Gəl, danış". Axtarır, arayır, unudulmuş sənətkarları, özü də o sənətkarları ki Azərbaycan musiqisində, mədəniyyətində izlər buraxıblar, tapır və xalqa təqdim edir. Özü də tam səmimi və dopdolu.

Bu proqramı maraqla izləyirəm.

Sonuncu proqramını da "Qarabağ bülbülləri"nin, vaxtilə dünyaya səs salan "bülbüllərinin" unudulmaqda olan xanəndələrinə həsr eləmişdi.

Çox qəribədir, demək olar ki, bütün proqram "Qarabağ bülbülləri"nin yaradıcısı Murad Rzayevin tənqidinə köklənmişdi. Söhbətdən belə çıxırdı ki, bu ansambl 1963-cü ildə o vaxt Pionerlər Evinin direktoru Kamal Bağırov yaradıb. Pionerlər Evi uşaqlar üçün bir yaradıcılıq dərnəyi idi, özü də mədəniyyətin bütün sahələrində. Mən də təzəcə Ağdama köçəndə tar çalmağı öyrənmək üçün getdim Pionerlər Evinə, qabiliyyətim olmadığına görə öyrənə bilmədim. Yəni Pionerlər Evi məktəb idi. Kamal Bağırov işdən çıxandan sonra həmin vəzifəyə bəstəkar, mahir tar çalan və yüksək təşkilatçılıq qabiliyyəti olan Murad Rzayevi təyin etdilər. O da dərhal Ağdamın şəhər və kəndlərini gəzib ən istedadlı uşaqları tapıb üzə çıxartdı və bir ansambl yaratdı, adını da qoydu "Qarabağ bülbülləri". Və qısa bir zamanda bu bülbüllər ölkədə hamını valeh etdi və şöhrəti respublikadan kənara çıxdı. Kremlin Qurultaylar sarayında elə bir konsert verdilər ki, Brejnev də valeh oldu. Ansamblın şöhrəti SSRİ-nin də sərhədlərini aşdı.

Bu gün Azərbaycanın neçə-neçə xalq artisti Murad Rzayevin rəhbərlik etdiyi "Qarabağ bülbülləri"nin yetişdirməsidir. Hərçənd ki çıxışlarında Murad müəllimin adını çəkmirlər.

Müharibə başlayanda Ağdam darmadağın olan kimi bu ansambl da dağıldı. Ansambl üzvlərinin çoxu "Gəl, danış" proqramında Kremldə hamını heyrətə salan bülbüllərdən biri Nazim müəllimin dediyi kimi, ailəni dolandırmaq üçün bu sənətdən əl çəkdi.

Yeri gəlmişkən, "Qarabağ bülbülləri" haqqında ən gözəl filmi Xamis Muradov və rəhmətlik Aydın Dadaşov çəkmişdi və bu film də Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdü. Bilmirəm, "Youtube"da var, ya yox, varsa açın baxın. Bu film "Qarabağ bülbülləri"nin sonrakı həyatlarından bəhs edir.

Aradan müəyyən illər keçəndən sonra Murad Rzayev Bakıda yaşayan ağdamlı "pionerləri" arayıb-axtarıb ansambl yenidən təşkil elədi. Və bir dəfə də məni çağırdı ki, gəl, məşqimizə qulaq as. Getdim gördüm ki,



məşqi Nərimanov rayonunda bir zirzəmidə keçirlər. Evləri-eşikləri dağılmış, yurd-yuvalarından perikmiş bu "pionerlərə" normal bir məşq yeri ayırmamışdılar.

Ayrılanda Murad müəllimə dedim:

- Dostum, bu zirzəmidən Qarabağ bülbülləri deyil, Qarabağ cüllütləri çıxar.

Sözün düzü, Murad Rzayevin səhvləri vardı. O, qaçqın düşdüyü İsmayıllıdan Ağdama qayıtmalı idi, daha doğrusu, Quzanlıya, rayon icra hakimiyyəti də ona hər şərait yaradardı, qəsəbələrin birində evlə təmin edərdi.

Və o da yenidən işğal altda olmayan kəndlərimizdən istedadlı "pionerləri" axtarıb tapıb ansambl təşkil edə bilərdi.

Hələ gec deyil, Murad müəllimin yaşı keçsə də həvəsi də yerindədi, qabiliyyəti də, təşkilatçılığı da.

Və yeri gəlmişkən, gözəl xanəndə Nazim müəllimə də "Günaydın" proqramında Murad Rzayev haqqında dediyi xoş sözlərə və haqqını itirmədiyinə görə təşəkkür edirəm.

"Qarabağ bülbülləri"nin məndə də xoş və nisgilli bir xatirəsi var. Oxucunu yormamaq üçün yazmıram, gün gələr, yazaram.

# DEYƏSƏN, FRANSIZLAR KİMİ NEMESLƏRİN DƏ BAŞI XARAB OLUB

Ermənilər 30 il Qarabağda şəhər və kəndlərimizi dağıtdılar, məscidlərimizi təhqir etdilər, yandırdılar, dini və tarixi abidələrimizi yerlə-yeksan elədilər. Amma bu nemeslər ağızlarını su alıb susdular.

İndi də Sorosun və Soros fondunun təşkilatçılığı ilə martın 6-da Berlində uydurma Artsax respublikasının mədəni abidələrinə həsr olunmuş böyük bir tədbirə hazırlaşırlar.



Özü də o Sorosun ki 30 ildir Azərbaycanı içindən parçalamağa milyardlarla pul xərclədi, amma bir qələt eləyə bilmədi. İndi də belə bir üsula əl atıb. Yavaş ye, boğazında qalar, qoca kişisən, bu gün-sabahlıqsan. Cəhənnəmin dodağı səndən ötəri püçürlayıb.

Berlin böyük türk şəhəridi və türklərin ən böyük diasporu Almaniyada fəaliyyət göstərir. Bizim diaspor da Türkiyənin diasporası ilə çoxdandı birləşib birgə çalışırlar. İndi görəcəyik birgə diasporun fəaliyyətini.

# TƏRLAN ƏHMƏDOVA İT DƏYİB?!

*Əvvəla, bu ifadə üçün Tərlan bəydən üzr istəyirəm. Və əslində üzr istəməli ifadə də deyil. Azərbaycanda ən çox işlənən ifadədir.*

*Məsələ nədir?*

*Tərlan Əhmədovu az qala 30 ildi tanıyıram. Bir vaxtlar "Qarabağ"ın şərəfini qoruyub, özü də şərəflə qoruyub. O vaxtlarkı "Qarabağ"ın ən ağır vaxtları idi, futbolçular heç maaş da ala bilmirdilər. Düşəndən düşənə, ona da maaş demək olmazdı. Tərlanın da cəngavər vaxtları idi, çox yerdən elçi düşdülər, amma Tərlan "Qarabağ"ı atıb getmədi. Ona görə də qarabağlıların ürəyində Tərlanın ayrı bir yeri var. Sonra məşqçiliyə başladı və təcrübəli, peşəkar məşqçi kimi də özünü göstərdi.*

*Beş oyundan bircə xal toplayan və axırıncı yerdə sürünən "Neftçi"yə baş məşqçi gətirdilər. Tərlan qısa bir müddətdə komandanı toparladı və ona 3-cü yer qazandırıb bürünc medallı etdi. Nəticəsi nə oldu? Komandanın rəhbərliyi Tərlana dedi ki, yaxşı yol.*

*Əslində eyni hadisə Samir Abasovun da başına gəldi. "Neftçi"ni çempion elədi, ona da dedilər yaxşı yol. Yəni qədir və qiymətlərini bilmədilər.*

*Yesenin yazır:*

*Atıb abrı, həyanı mən yaxına gələrək,*
*Qucdum ağcaqayını özgənin arvadı tək.*

*Nədənsə, Yesenin demiş, özgə həmişə şirin olur. Axtardılar, tapdılar bir özgə, yəni əcnəbi məşqçi gətirdilər, o da bir qələt edə bilmədi. Onu da bir təhər yola salıb yenə əcnəbi bir məşqçi gətirdilər Adrian Mutu, o da bizi mutlu edə bilmədi. İndi birini də tapıb gətiriblər, deyəsən, familiyası Bojoviçdi. İki aydı gəldiyi o da bir qələt edə bilməyib. Belə getsə, heç edə də bilməyəcək.*

*On klubun üçünün baş məşqçisi əcnəbidi. Halbuki Tərlan Əhmədov kimi məşqçilər küçədə it döyür.*

*İndi "Qəbələ" də gürcü Kxaberi gətirib, familiyası çətindi, yaza bilmədim, birdən səhv edərəm. Kxaber vaxtilə bir müddət "İnter"in baş məşqçisi olub, onda da "İnter"in tərkibində 25-26 əcnəbi futbolçu oynayırdı. Mən ironiya ilə yazmışdım ki, Kxaber özü ilə Gürcüstandan bir KAMAZ futbolçu gətirib. İndi hələ ki, özüylə bir məşqçi gətirib, yəqin ilin sonunda yenə Gürcüstandan bir KAMAZ oyunçu gətirəcək.*

*Onu da deyim ki, "Qəbələ"ni bu vəziyyətə Elman Baxşıyev salmayıb, Azərbaycanın pullu komandaları salıb. Nə qədər ulduz futbolçuları vardı "Qəbələ"nin kasıblığından istifadə edib satın alıblar.*



*İndi də "Sabah"a əcnəbi məşqçi axtarırlar, deyəsən, tapıblar da. Deyəsən, İqor Ponomaryova da it dəyib. Təki axırı yaxşı olsun. Amma inanmıram.*

*Yeri gəlmişkən, milli komandamıza da əcnəbi məşqçi axtarırlar.*

*Guya bundan əvvəlki əcnəbilər böyük qələt eləmişdilər, indi gələcək əcnəbi məşqçi də o qələtləri düzəldəcək. İndi ac toyuqlar yuxuda darı görmürlər, pul görürlər.*

*AFFA-nın prezidentliyi yeri boşdur, yaxşı olar ki, ora da bir əcnəbi prezident gətirsinlər.*

*Nə isə...*

*Dünya düzəlmir ki, düzəlmir, baba...*

# AQİL ABBASIN SALYAN ZİYALILARI İLƏ GÖRÜŞÜ KEÇİRİLDİ



Bu günlərdə Salyan şəhərinin yaradıcı adamları və ziyalıları ilə yazıçı, millət vəkili Aqil Abbasın görüşü olmuşdur. Görüşü rayon icra hakimiyyəti başçısının 1-ci müavini Rəşad Cəbrayılov açdı. Rəşad müəllim yazıçının həyat və yaradıcılığı barədə tədbir iştirakçılarına geniş məlumat verdi. Şair Zabil Pərviz yazıçının ilk hekayələrindən və ilk povesti "Evləri köndələn yar"dan bu günədək bütün əsərləri haqqında qısaca da olsa ətraflı çıxış etdi.

Sonra görüşdə Aqil Abbas ona ünvanlanan sualları cavablandırdı.

Ziyalıları daha çox bir sual maraqlandırırdı, "Dolu-2" filmi çəkiləcəkmi? Yazıçı "Dolu-2" filminin ssenarisini çoxdan tamamladığını, amma hələ Mədəniyyət Nazirliyinə təqdim etmədiyini bildirdi. Yeni ssenarisi haqqında da görüş iştirakçılarını bilgiləndirdi.

Aqil Abbas daha sonra Salyan rayon Mərkəzi kitabxanasını da ziyarət elədi, kitabxanaya öz yeni kitablarını təqdim etdi.

Görüş xatirə şəkilləri çəkdirməklə başa çatdı.

# 1:4! BU NƏ İDİ, BOJOVİÇ?

"Neftçi" öz meydanında "Qarabağ"ı qəbul elədi. Sözün düzü, hər iki tərəf çox gözəl və maraqlı oyun nümayiş etdirdi. Əsl derbi idi. Stadiona da 7 min azarkeş gəlmişdi, özü də hər iki komandanın fanatları. İlk dəfəydi ölkədə yerli komandaların oyununa bu qədər tamaşaçı toplaşmışdı. Gərgin keçən matçda "Neftçi" 1:4 hesabı ilə məğlub oldu.

Ay daa Bojoviç, ay daa...



Rüstəm Hacıyev

## Viktoriya Nuland siyasətdən gedir?

**ABŞ dövlət katibinin müavini Viktoriya Nuland elan edib ki, yaxın vaxtlarda otuz ildən artıq davam edən siyasi karyerasını sona yetitəcək.**

**Vaşinqton administrasiyasının tənqidçilərinin fikrincə, Nuland ”fəaliyyəti dövründə dünyaya xaos toxumu səpməklə məşğul olub”. Altı prezidentlə çalışan bu xanım siyasətçinin ən ”sevimli əyləncəsi” Rusuya ilə müharibəyə çalışmaqla, onu məğlub etmək arzusu olub.**

**Ona görə də, NYT bu personajı birbaşa ”Kremlə mübarizə veteranı” adlandırıb.**

**Bu cür qiymətli mütəxəsis Nulandın yola salınması, heç də Ağ Ev administrasiyasının siyasi kursunu birdənbirə 180 dərəcə dəyişmədi ilə əlaqədar deyil. KİV-lərin məlumatlarına görə, xanım Nuland kadr qarşıdurmasında məğlub olmağını sınıra bilmir. Neçə aylardır ki, prezident Co Bayden onu dövlət katibinin müavini postuna birdəfəlik təyin olunmasına qərar verməyib. Nuland bu vəzifəni müvəqqəti əbəzedici kimi icra edir. Deyilənə görə, ABŞ prezidenti bu vəzifəyə, milli təhlükəsizlik məsələr üzrə köməkçisini gətirmək istəyir.**

**Viktoriya Njland ilə birlikdə böyük bir epoxa gedir. Bu xanım karyerası ərzində Rusiyanın məğlubiyyətini yaşamaq istəyib. Lakin görünən odur ki, siyasətçi xanım siyasi gedişlərini düz hesablamayıb və məğlub duruma düşüb.**

**Əsas nailiyyəti hazırki Kiyev rejimini hakimiyyətə gətirməyi sayılsa da, bu nailiyyət yalnız başlanığıcda uğur qazana bilib. Sonrası isə göz qabağındadır. İki ildən artıq sürən, hələ də sonu görünməyən müharibə Ukraynanı demək olar ki, cəhənnəmə döndərməkdədir.**

**Analitiklər hesab edirlər ki, Nuland Ukraynadakı çevrilişin əsas təşkilatçılarından biri olub. Hətta xanım siyasətçini, ABŞ-ın antirusiya kursunun arxitektoruda adlandıranların sayı çoxdur.**

**Rusiyanın xarici işlər nazirliyində hesab edirlər ki, Nulandın rusofobiya siyasəti istənilən nəticəni vermədi və xanımın bu siyasəti Co Baydenin onsuzda ”batmaqda olan komandasını” suyun dibinə çəkdi. Məhz buna görə də, demokratlar Vikyoriyanı ”öz gəmilətindən” atmaq məcburiyyətində qaldılar.**

**Bu xanım siyasətçinin sonudurmu? Demək çətindir. Nulandın 62 yaşı var. Əgər Birlişmiş Ştatlarda 80 yaşlı Co Bayden yenidən prezident seçilmək istəyirsə, Vikyoriya nədən siyasi karyerasını davam etdirmək istəməsin? Nəzərə alsaq ki, xanım sitasətçi siyasi məğlubiyyəti ilə barışmaq niyyətində deyi, deməli noyabrda başqa kimsə prezident seçilərsə, onda Nulandın ”bəxti yenidən üzünə gülə bilər”.**

***Vesti. ru saytının materiallarından istifadə olunub.***

## Xankəndidəki söküntü işləri erməniləri qəzəbləndirdi





**Erməni mediası və sosial şəbəkələrin erməni seqmenti yenə şivən salıb.**

Adalet.az xəbər verir ki, bu dəfəki ”şivən” qədim erməni irsi” uydurmalarına görə deyil. Beləki, işğaldan azad edilmiş Xankəndidə əvvəllər erməni separatçıları tərəfindən ”parlament” kimi istifadə edilən bina sökülür və bunu sosial mediadan izləyən ermənilər növbəti şər-böhtan kampaniyasına başlayıb:

”Azərbaycan təkcə işğal olunmuş artsaxın mədəni irsini deyil, həm də dövlət səviyyəsində dövlət və özəl strukturların binalarını məhv etməkdə və qəsb etməkdə davam edir”-deyə stauslar paylaşırlar.

Qeyd edək ki, müharibə dövründə zərərçəkmiş binalar sökülərək yeniləri ilə əvəz olunur.

***P.S.** Görəsən bu parabeyinlər nə vaxt anlayacaq ki, bu çarpayı mənimdi, istərəm üstündə yataram, istərəm altında? Kefimizin darğasısınız?*

**Əntiqə Rəşid**

**”Ermənistanın baş nazirinin ofisi ”Azərbaycanın nəzarətində olan 31 erməni kəndi” iddiası ilə bağlı məlumat yayıb. Xüsusən, Ermənistanın Baş naziri N.Paşinyanın ”31 erməni kəndi”nin əhəmiyyətli əraziləri bu və ya digər şəkildə Azərbaycanın nəzarətindədir deməsi sülh danışıqlarını artıq dalana direyib”.**

Bunu Adalet.az -a açıqlama verən Azad Vətən Partiyasının sədri Akif Nağı deyib. O, bildirdi ki, Azərbaycanın Ermənistandan dəqiq mina xəritələri, işğal altında qalan kəndlərin geri qaytarılmasını, üçtərəfli bəyanatda qeyd olunan şərtlərə əməl olunmasını tələb etməsi erməni ictimaiyyətini narahat etdiyi üçün Ermənistan hakimiyyəti də Azərbaycanın mövqeyinə qarşı əks mövqe ortaya qoymağa çalışır.

Hamıya məlumdur ki, Qazax rayonun Əskipara, Aşağı Əskipara, Bərxudarlı, Sofulu, Bağanis Ayrım, Qızılhacılı və Xeyrimli və Naxçıvanın kəndi ermənilər tərəfindən işğal olunub. Yuxarı Əskipara, Bərxudarlı və Sofulu və Kərki artıq an-

## *Akif Nağı:* “Ermənistanın “31 erməni kəndi” iddiası sülh danışıqlarına böyük əngəldir”



klav yox Ermənistan ərazisində eksklav vəziyyətinə düşüb. Yəni hər tərəfdən Ermənistan ərazisi ilə əhatə olunub.

Adıgedən yaşayış məntəqələri 1990-cı illərdə, Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal olunub”.

A.Nağı onu da vurğulayıb ki, əgər bu gün Paşinyan hakimiyyəti ölkəmizin 86.6 min kvadratkilometrlik ərazisini tanıyırsa, bu əraziləri də qeyd-şərtsiz təhvil verməlidir:” Ermənistan ilk öncə qeyri şərtsiz anklavları qaytarmalıdır. Onların yeni siyahı tərtib edərək yayması əslində Azərbaycanın nəzarətində olduğunu iddia etdikləri Yuxarı Şorca (Verin Şorca) və Aşağı Şorca, Sotk, Airk, Azat, Tretuk, Caghatsadzor, Kotakan, Norabak, Verkaber və s. ümumilikdə 31 kəndin yaxınlığında Azərbaycan qoşunlarının geri çəkilməsinə nail olmaq eyni zamanda Azərbaycan tərəfinin mövqeyini neytrallaşdırmaqdır.




Bəli. artıq aydın məsələdir ki, Ermənistanın Azərbaycana aid 31 kəndi ”erməni kəndi” kimi siyahılaşdırması Azərbaycanın sülh sazişi üçün təkliflərinə İrəvanın əngəl törətməsindən başqa bir şey deyil.

Əlbəttə ki, Ermənistanda da bilirlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərhədlərin müəyyənləşməsi, Zəngəzur dəhlizi və anklavlarla bağlı mövqeyi qətidir və Ermənistana bir qarış torpaq güzəştə getməyəcək. Azərbaycanın haqqıdır ki, hələ də erməni işğalında olan və beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərini azad etsin”deyə partiya rəhbəri fikrini yekunlaşdırıb.

**Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında ”bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir” fikirləri də Paşinyanı qorxudub. ”Azərbaycan Ermənistana qarşı ərazi iddiaları irəli sürməyə çalışır və bunu tamamilə qəbuledilməz hesab edirik” deyə, o bildirib.**

**Əntiqə Aslan**

Eminquey

## Baş nazir, qətl və gigiyena



*Niyə o əjdahadan bizdə yoxdur?*

*Əjdaha deyirəm, siz "gündəm" başa düşün. Gündəm də əjdaha kimi alov püskürür axı.*

*Uzaq-uzaq ellərdə, Danimarkada naş nazir Mette Frederikse bazar günü ailəsi üçün nahar hazırlayarkən video çəkib və bunu sadə insanlar kimi instagramda paylaşıb.*

*Baho!*

*Aləm dəyib bir-birinə.*

*Nöşün?*

*Oşün ki baş nazir toyuqla soğanı eyni taxta üzərində kəsib.*

*Allah sən saxla, biz saxlaya bilmirk bu danimarkalıları!*

*Nə qədər bekar, nə qədər boşluqda olasan ki, baş nazirin yemək videosu paylaşa, sən də orada toyuqla soğanın eyni taxta üzərində doğranmasına ilişib qalasan.*

*Bir dəqiqə, ay danimarkalılar, siz bu cəsarəti hardan əldə etmisiz? Ki, baş nazirə irad tutursunuz?*

*Kimdir başınızda duran? Vətən xainləri, qaragüruhçular, binəvalar!*

*Siz şükür edin ki, naziriniz sadəlik edir, öz ailəsi üçün nahar hazırlayır, bunu sizinlə bölüşür. Mən 30 yaşıma çatmışam, hələ dünən görmüşəm ki, keçmiş Xarici İşlər nazirimiz Elmar Məmmədyarov Pele fanatıdır. Kanallarımızın birinə videoaçıqlama verərkən başının üstündə Pelenin şəklini görmüşəm.*

*Xülasə, baş nazir sosial narazılığı nəzərə alıb açıqlama da verib. Deyib ki, ey əziz vətəndaşlar, narahat olmayın, əvvəlcə soğanı doğramışam, sonra taxta da, bıçaq da yuyulub, daha sonra toyuğu kəsmişəm.*

*İndi bu hadisəni öz gündəmimizin üstünə köçürsəm, naziri həftədənbir gündəmə çevrilən başkəsmə, adamyortma hadisələri ilə əvəz etsəm, hansı qatildən soruşaq ki, ananın başını kəsdiyin balta ilə bacının başını necə kəsirsən? Bəs gigiyena? Niyə yumadın o baltanı?!*

## MEDİA Agentliyi bu sayta xəbərdarlıq etdi

**”Moderator.az” saytı tərəfindən martın 4-də dərc edilmiş ”Məktəbdə bədbəxt hadisə: 8-ci sinif şagirdinin barmağı qopdu” sərlövhəli materialda ”Media haqqında” və ”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası qanunlarının kobud şəkildə pozulması faktı qeydə alınıb.**

MEDİA-dan Adalet.az-a bildirilib ki, ”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən zorakılığı və qəddarlığı nümayiş edən informasiya dövriyyəsi məhdudlaşdırılan informasiyaya aiddir.

”Media haqqında” Qanuna görə isə mediada informasiya dərc edilərkən ”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Qanunda nəzərdə tutulmuş tələblərə əməl olunmalıdır.

**Qeyd olunan pozuntunun aradan qaldırılması və belə hallara yol verilməsinin qarşısının alınması məqsədilə ”Moderator.az” Məhdud Məsuliyyətli Cəmiyyəti media subyektinə məxsus ”moderator.az” onlayn media redaksiyasına xəbərdarlıq edilib, qanunvericiliyin tələblərinin bu və ya digər formada pozulması hallarında digər hüquqi tədbirlərin görüləcəyi bildirilib.**

## Ekspert: «Tonqala bu kimi materiallar atılarsa...»

**Bildiyimiz kimi mart ayı bayramlar ayıdır. Ən gözəl adətlərimizdən biri də Novruz bayramından əvvəl ”Su, od, yel və torpaq” çərşənbələrinin olmasıdır. Doğrudur, insanlar bu çərşənbələrdə tonqal yandırıb şənlənirlər. Ancaq bu ənənənin təhlükəli tərəfi də qaçılmazdır.**

Bu Bununla bağlı Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi qaydalarına dair əhaliyə təkrar müraciət edib. Müraciətdə deyilir ki, çərşənbə axşamları təşkil olunan zaman yanğın təhlükəsizliyi qaydaları pozularsa, təhlükəli vəziyyət yaranar.

Mövzu ilə bağlı Adalet.aza açıqlama verən Təhlükəsizlik eksperti Elmar Nurəliyev yanğın təhlükəsizliyi qaydalarına hər kəsin əməl etməsinin vacib olduğunu bildirib: ”Tonqal qalanan ərazidə ən az 15 metr məsafədə tez alışan əşyalar və ya maddələr olmamalıdır. Nəqliyyat vasitələrinin yaxınlığında, yüksək gərginlikli elektrik xətlərinin keçdiyi ərazilərdə tonqal qalamaq qətiyyən olmaz. Yer səthinə metal lövhə qoyulmalı, onun üzərində qalamaq lazımdır. Bu onun üçündür ki, asfalt örtük korlanmasın və yerdə qalan qığılcımlar ətrafa səpələnməsin. Tonqalın maksimum hündürlüyü 1 metr 50 santimetri keçməməlidir. Yalnız ocağın tam söndüyünə əmin olduqdan sonra məkanı tərk etmək olar”.



Ekspert qeyd edib ki, tonqal yanan zaman uşaqları nəzarətsiz buraxmaq olmaz: ”Uşaqlar valideyn nəzarəti altında olmalıdır. Tonqal ətrafında fişənglərdən istifadə etmək olmaz. Tonqalın içərisinə metal, tənəkə, şüşə, konserv qabları, rezin və s. bu kimi materiallar atılarsa, tonqal ətrafında dayanın insanların həyatı üçün təhlükə yarana bilər”.

**Əntiqə Kərimzadə**

# Xudanın və genetikanın möcüzəsi fədakarlıq tək savaşda olmur: Sevil Qazıyeva təcrübəsi

**Məktəbli ikən - uşaq vaxtı düşünürdüm ki, qadınlarımız niyə həyatlarını təhlükəyə atmaqdan qorxmur, niyə rahat yaşamaq varkən özlərini ölümün ağuşuna könüllü atırlar?Niyə, məsələn, ilk azərbaycanlı qadın hərbi pilotu Züleyxa Seyidməmmədova alman faşistlərinə qarşı döyüşüb? Niyə Bakıdan vurub gedib, Moskvaya, orda pilot olub, ondan sonra 4 il Buxarestə qədər döyüşə-döyüşə gedib. Öləcəyini, gənc yaşından torpağa düşəcəyini bilə-bilə... Axı niyə?**

Tarixə ilk azərbaycanlı və şərqli qadın snayper kimi düşmüş Ziba Qəniyeva da Züleyxa xanım kimi... Tibbi xidmətin kapitanları Səlimə Əlizadə, Qonçə Qaragözova, Reyhan Qasımova və minlərlə Azərbaycanlı qadını ölümə sarı götürən hansı hisslərdir? Daha sonra Qarabağ müharibəsi başladı. Onda gənc idim və başqa rayonlardan qadınlar gəlib mənim Ağdamım uğrunda döyüşəndə iki məqamı anladım. Anladım ki, vətən bildiyin ərazini qorumaq imandandır, dürüst əqidənin varlığıdır, vətənpərvərliyin əlamətidir. Vətən məhvumu səni onun hər küncü-bucağı üçün döyüşməyə vadar edir. Anladığım ikinci məqam isə o oldu ki, döyüşə atılan, mübarizəyə qalxan hər bir qadının qanında- canında bir mübarizlik, bir qəhrəmanlıq, ölümə qalib gəlmək hissləri var.



Xudadandır, bilmirəm, genetikadandır bilmirəm...

Amma bildiyim odur ki, qadın-qız yaşa dolduqca içindəki, gizlində qalmış o hisslər də böyüyür. Və böyüyüb gənclik enerjisi ilə də birləşdikdən sonra elə bir həddə çatır ki, o hissləri dayandırmaq, durdurmaq olmur... Ancaq meydan axtarır, ancaq döyüş axtarır...Və nəhayətində tapır.

Belə Azərbaycan qadınlarından biri də Azərbaycan SSR-də ilk qadın mexanizator, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı Sevil Qazıyevadır. Hazırkı nəsil xatırlamaz, amma Sevil Qazıyeva uzun illər qəhrəmanlıq nümunəsi sayılıb. Peşə -təhsil seçimi zamanı gənclərin bir çoxunun oxşamaq, o yolu davam etdirmək istəyinin səbəbkarı olub.

1940-cı il iyunun 1-də Zaqatala rayonunda anadan olan Sevil Qazıyevanın atası müharibədən qayıdandan sonra necə yaralandığını, tibb bacılarının döyüşçülərin yaralarını necə sarıdığını danışanda Sevildə həkim olmaq həvəsi yaranır. 1958-ci ildə orta məktəbi bitirən Sevil atasının yaratdığı həvəs və içindən xudadanmı, genetikadanmı bilmirəm gələn o hisslərin təsiri altında sənədlərini indiki Azərbaycan Dövlət Tibb Universitetinə versə də, müsabiqədən keçə bilmir. Bir gün qarşısına qızlar üçün sənət məktəbi açıldığı barədə elan çıxır. Bundan sonra Sevil həmin məktəbin "Poliqrafiya" ixtisasında təhsil alır.

Amma bu təhsil onun ürəyini soyutmadığının, içindəki hissləri çölə daşımağa şərait yaratmağdığının da fərqində olur. Gəncliyindən və içindən qaynayan -daşan, onu qəhrəmanlığa təhrik edən hisslərin təsiri ilə cəng meydanının sorağına düşür.Günlərin bir günü Özbək qızı Tursunoy Axunovanın maşınla pambıq yığımında göstərdiyi hünər barədə oxuduğu məqalə onun həyatını birdəfəlik dəyişir. O, sürücü mexanik olmağa qərar verir. Qərarına üç rəfiqəsi Məmləkəti, Diləfruzu və Solmazı da qoşur. Mərkəzi Komitəyə gedirlər, orada az qala dövr üçün inqilabi bir təklif verirlər, tələb irəli sürürlər. Bir çoxları "qız hara, traktor hara" təklifinə ağız büzsə də, onların "Niyə azərbaycanlı qız maşınla pambıq yığmasın?" tələbi nəzərə alınır.

Bir müddət sonra məhz Sevilin tələbinə cavab olaraq Binədəki kənd təsərrüfatını mexanikləşdirmə məktəbində sürücü-mexanik hazırlayan kurs açılır. Kursa ilk yazılanlar da bu inqilabçı rəfiqələr və qrupun lideri Sevil olur. Tezliklə "traktorçu tələbə qızlar" səs sorağı Azərbaycanın hər tərəfinə yayılır. Onların ardınca 58 qız məktəbə sənəd verir. Təhsil bitir , indi meydan zamanı. Zaqatalada ömründə pambıq görməyən, pambıq yığmayan Sevil könüllü şəkildə Beyləqan rayonuna işləməyə gedir.

İstehsalat təcrübəsi zamanı Sevil maşınla 97 ton pambıq yığır. Təcrübəsi olmayan bir qız üçün bu,uğurun başlanğıcıda deyə bilərsiniz.Qələbə də deyə bilərsiniz. Bu qələbə təkcə maşınla yığımın müvəffəqiyyəti yox, həm də "maşın qız işi deyil" deyənlərin üzərində qələbə idi.

Sevil haqqında o vaxt media yazırdı:" Sevil qızlar klubu açıb, gənc xanımları özfəaliyyət dərnəyinə toplamışdı. 1961-ci ildə Özbəkistanda sovet pambıqçılarının ümumrespublika toplantısında Azərbaycan nümayəndə heyətinin tərkibində Sevil Qazıyeva da iştirak edir.

Sevil Özbəkistanda olarkən məşhur sovet pambıqçısı Tursunoy Axunovanın iş təcrübəsi ilə yaxından tanış olur. O, Daşkənddən qayıtdıqdan sonra Beyləqanda Axunova kimi kompleks-briqada yaradır və həmin briqadaya başçılıq edir.

1962-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanizasiya fakültəsinə daxil olan Sevil Qazıyeva işləyə-işləyə həm də qiyabi təhsil alır. Qısa müddət ərzində Azərbaycanın adlı-sanlı pambıqçılarından birinə çevrilən Qazıyeva 1962-ci ildə öz maşını ilə 190 ton pambıq yığır. Daha sonra o "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilir".

Sevil artıq gənc qızların qürur mənbəyinə çevrilmişdi. Onun çağırışı ilə 600 nəfərdən çox qız mexanizator peşəsini seçir. Hətta çox sonralar bizim Ağdam rayonu Baş Qərvənd kəndindən olan Sevil Əliyeva adlı gənc qız onu özünə nümunə olaraq seçdi və getdi sürücü-mexanik oldu. Lenin adına kolxozumuzun son gününə qədər o da öz peşəsini sevə-sevə yerinə yetirirdi.

Sevilin mübarizəsi qızışdıqca uğuru da artırdı. Sevil artıq rəfiqələri ilə yarışa atılmırdı. Artıq özündən yaşda da, təcrübədə də böyük olan Sosialist Əməyi Qəhrəmanı Sərdar İmrəliyevlə yarışırdı. Hər ikisi "əməkdar mexanizator" adını almış, birgə kompleks pambıqçılıq briqadası yaratmışdı. Pambığı özləri əkir, becərir, özləri də yığırdı.

Sevil 1963-cü ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilir. Deputat seçilməsi Sevilin qayğılarını daha da artırır. O, eyni vaxtda həm başçılıq etdiyi briqadanın işlərinə nəzarət edir, həm də seçicilərinin problemləri ilə məşğul olur.

Məqalənin girişində demişdim axı, belə qadınlarımız seçdikləri həyatı o qədər israrla, sevgi ilə hərarətlə seçirlər ki, ölüm qorxusu o həyatın heç bir küncündə olmur, ola bilmir. 1963-cü il sentyabrın 27-si ... Sevil Qazıyeva ömrünün bahar çağında, faciəli şəkildə vəfat edir. Bir gün axşamüstü - sahələrdən dəstə-dəstə qayıdan pambıqçılardan yarışdığı briqadirin ondan bir bunker çox pambıq yığdığını öyrənən Sevil yenidən tarlaya qayıdır.

Həmkarım Aytəkin Alxaslı məqaləsində Sona xanımın dediklərini belə qeyd edir:"Axşam qaş qaralanda evə getmək istəyirdik. Lakin Sevil anama sahədə bir cərgə də pambıq yığmaq istədiyini bildirdi. Heç ağlımıza gəlməzdi ki, həmin an Sevil bizim yanımızdan birdəfəlik ayrılır. O, işini tamamlamaq üçün pambıq sahəsinə tərəf yollandı.

Lakin yarım saat keçməsinə baxmayaraq ondan bir xəbər çıxmadı. Birdən maşının işığı söndü. Anam elə bil baş verəcək faciənin ağrısını hiss edib çox narahat oldu.

Bir qədər sonra bir uşaq təlaş içində bizə yaxınlaşaraq Sevilin həlak olduğunu dedi. Biz sahəyə çatanda hamı ağlayırdı. Mən Sevili pambıq maşınının yanında başı əyilmiş halda gördüm. Başının bir hissəsi qopmuşdu. Hər gün sahədə çalışdığı zaman başına bağladığı yaylığı da üstünə qoyulmuşdu".

Bacısı Sona Qazıyeva mediaya verdiyi açıqlama: "Sevilin cənazəsini Beyləqandan Zaqatalaya 8 saata apardıq. Hamı Sevili yola salmaq üçün gül-çiçəklə yollara çıxmışdı. Oğuzdan keçəndə o zaman rayonun 1-ci katibi olan Səfiyyə Dibirova da 50-60 avtomobillə bizi qarşıladı. Biz Zaqatalaya çatanda Sevilin cənazəsini 200 maşın müşayiət edirdi. Sevil bütün hamını yasa boğmuşdu. Elə bil hamı yaxınını, doğmasını itirmişdi, hamı göz yaşı axıdırdı".

**Bəli, qəhrəmanlıq elə bir hissdir ki, onu istənilən sahədə göstərmək mümkündür, istər cəbhədə, istər iqtisadiyyatda, siyasətdə, ədəbiyyatda, mədəniyyətdə, incəsənətdə... Sadəcə bunun üçün bilmirəm Xudanınmı möcüzəsi lazımdır, ya genetikanın köməyimi lazımdır, amma Azərbaycanın kişisi üçün də, qadını üçün də qəhrəman olmaq adi bir haldı.. Bunu zaman bütün dövrlərdə göstərdi...**

**Əntiqə Rəşid**

***BAXIŞ BUCAĞI***

**Əbülfət MƏDƏTOĞLU**
**madatoglua@mail.ru**

# Anama məktub



**Hər dəfə onunla diz-dizə oturanda gözlərimi gizlətməyə çalışıram, baxa bilmirəm gözlərinə. Çünki əsən əlləri, qırışlardan bütün gözəlliyini itirmiş sifəti mənim ürəyimi parçalayır. Saçlarında bir dənə də olsun qara tük yoxdu. Mən heç xatırlamıram artıq onun saçlarının qara olduğunu. Elə bil ki, bu dünyaya üzündəki saysız qırışlarla, əsən əlləriylə, bəmbəyaz saçlarıyla gəlib anam. Mənim səsi məlhəm, əlləri ipək, saçları göyçək anamın izi-tozu qalmayıb bu dünyada. Onlar qeybə çəkilib. Çünki mən günahkaram**

Çünki mən onun 1988-ci ildən o yanda qalan illərini qoruya bilməmişəm... Buna görə də baxa bilmirəm gözlərinin içinə. Amma o...

Əllərimi alıb əllərinin içinə... İkimizin əli birlikdə əsir... ikimizin nəfəsi birlikdə titrəyir... və eşidirəm onun səsini:

- Ay oğul, başının tükü nə yaman ağarıb? Niyə bu hala düşmüsən?

Heç nə deyə bilmirəm ona. Nə deyim axı?! Günahlarımı necə etiraf edim?! Bir oğul ki, anasının dişiylə, dırnağıyla yuva etdiyi evdə saxlaya bilmirsə, nəfəsiylə isitdiyi divarların arasında yaşada bilmirsə və bir də bütün gəncliyini, gözəlliyini, dizinin taqətini, gözünün nurunu bələdiyi evdə bu yaşına gətirib çıxara bilmirsə, onda niyə ağarmasın saçları? Onda niyə düşməsin bu hala?!

Soruşma ana, məndən heç nə soruşma. Mən sənə cavab vermək gücündə deyiləm. Cavab versəm də inanmayacaqsan. Ana ürəyi hiss edəcək yalan danışdığımı. Danışsam deməliyəm ki, çalışıram, vuruşuram, siyasətimiz belədi, imkanlarımız elədi... Bu gün... sabah... bu bayramda... o biri bayramda qayıdacağıq... aparacam səni evimizə-eşiyimizə... sən də həyət-bacarın əvvəlki kimi silib-süpürəcəksən... toyuq damından tutmuş inəklərimizin tövləsinə qədər... ot tayamızın yığıldığı küncdən tutmuş qışlıq kartof, soğan, meyvə saxladığın "əl evi"nə qədər hər yeri bir-bir gözdən keçirəcəksən və mən də sənə kömək edəcəm. Amma deyə bilmirəm bunları. Çünki nə bu günə, nə sabaha güvənəcək halım yoxdu. Güvənəcək halım olmayandan sonra nə deyə bilərəm ki... Doğrudu, əvvəllər deyirdim, hətta yazırdım da. Yadındadı?! Yazmışdım sənə "Mənim çadırlarda qocalan anam" şeirimi. O şeirə Razim Paşayev də musiqi bəstələmişdi. Və sən də dinləmişdin o mahnını. Yaylığının ucuyla silmişdin gözlərini... Onda səsin bu qədər titrəmirdi... Onda demişdin ki, "sağ ol, ay bala, sən də sağ ol, oxuyan da, onu oxuyan üçün yazan da". Axırıncını ona görə özünəməxsus şəkildə dedin ki, sənin yazmaq-oxumaq savadın yoxdu. Mahnı yazanın bəstəkar olduğunu eşitmisən, amma heç fərqinə varmamısan. Elə sənin özəlliklərindən biri də bu olubdu. Nəyi necə bilmisən, elə də demisən. İndi də yadımdadı o misralar. Onda yazmışdım ki:

***Ürəyim bir kövrək layla istəyir,***
***Gözlərim yumulu, qulağım səsdə.***
***Sifətin qırışıb, əlim titrəyir,***
***Sən nə həvəsdəsən, mən nə həvəsdə?!***
***Mənim çadırlarda qocalan anam.***

O şeirin axırında da yazmışdım ki:

***İllər dəyişibdi bizləri yaman***
***Yalandı deyilən söz də, nəfəs də!***
***Laylanı eşidib, bəlkə, o zaman***
***Yenidən yaşayım mən o həvəsdə.***
***Mənim çadırlarda qocalan anam.***

Amma eşidə bilmirəm o laylanı... Çünki sənin səsin artıq o laylaya uyğun gəlmir, uyuşmur... Səs o qədər titrəyir ki, söz də titrəyə-titrəyə gəlir dünyaya. Və mən də o titrəyən səsin, sözün işığında bax, ölüb-dirilirəm. Ona görə ki, sənin qarşında günahkaram. Deyəcəksən ki, ay bala, elnən gələn dərd-bəladı, sənlik nə var ki burda... Amma dediklərin nə qədər səmimi olsa da, təsəllidən başqa bir şey deyil. Sadəcə, sən ana ürəyiylə, ana duyğusuyla təsəlli verirsən mənə də, özünə də. Mən də bu təsəllinin içində daha çox əzilirəm. Ona görə də bir vaxtlar sənə dediyim kimi, yenə ürəyimdə təkrarlayıram:

***Axşam, səhər fikirli***
***Anır doğma elini.***
***Çadır yaman bükübdü***
***Göz görəsi belini -***
***Anamın...***

***Nə təsəlli diləyib***
***Nə "döz!" deyə bilirəm***
***Gözlərindən gözümü***
***Nə gizləyə bilirəm -***
***Anamın...***

Bəli, indi çadır şəhərləri yoxdu, amma qaçqın şəhərləri, qəsəbələri var. Yaşayır qaçqın qəsəbəsində anam. Onunla diz-dizə, üz-üzə oturub söhbət edirik, halını soruşuram. O, sualıma cavabdan yayınır. Eləcə, sözü fırladıb nəvələrini soruşur, mənim saçlarımın niyə ağardığı ilə maraqlanır. Sanki bu dünyada onun üçün bizdən önəmli heç kim yoxdu... Sanki özünü bütünlüklə unudub, yaddan çıxarıb. Ona görə də özündən danışmır. Harasının ağrıdığını, nəyinin çatmadığını, nəyə ehtiyacı olduğunu nə illah edirəm demir. Sözünün əvvəli də, sonu da "siz sağ olun, ay bala"dı. Biz necə sağ olaq ki, bir ananı layiq olduğu kimi yaşada bilmirik... biz necə sağ olaq ki, övlad borcumuzun yükü altında qəddimiz bir az da artıq əyilir. Və biz beləcə yaşayırıq... Amma bunun özü də vallah, heç yaşamaq deyil.

Hə, hardasa bu naşükürlük kimi görünə bilər. Axı, biz müsəlmanıq. Bizdə çox qəribə də olsa bir fərqli inanc var. Özü də bu inanc daha çox kişi adlarında özünü göstərir. Məsələn, Şükür, Kərim, İnşallah, Maşallah, Qismət, Nəsib, Taleh... Nə isə... Biz şükranlığı və kərimli olmağı artıq boyumuza biçmişik və boymuza biçilən bu yükün altında da özümüz də qocalırıq analarımız kimi. Və nəhayət...

... Bir dəfə anama məktub yazmaq istəmişdim. Sonra fikrimdən vaz keçdim. Bildim ki, daha doğrusu, xatırladım ki, anam yazıb-oxumağı bilmir. Və bir də bilsə də, o məktubu kim aparıb qaçqın şəhərciyində ona çatdırmayacaq. Yaxşı budur telefonla danışım. Anamla birgə yaşayan qardaşımın telefon nömrəsini yığdım. Xahiş etdim ki, telefonu anama versin. Telefonda onun səsini eşidəndə əvvəlcədən fikirləşdiklərimin hamısı yadımdan çıxdı. Çünki anam ilk sözümdən mövzunu dəyişdi. Hər şeyimiz var, hamımız da yaxşıyıq, - dedi. Mən isə utandığımdan cibimə qısılmış əllərimə və bir də alnıma gələn soyuq tərə söykənib dayandım. Bu, ana ürəyinin duyumu idi. O hiss etmişdi ki, sözlə, qələmlə dolanan oğlu ona nələr deyəcək, hansı dillər tökəcək. Ona görə də qabaqlamışdı oğlunu.

İndi iki gün öncə ziyarət etdiyim anamın durumu məni həqiqətən yerin dibinə soxdu və çıxarmadı. Orda heç nə deyə bilmədim. Heç burda da demirəm. Bir də artıq mənim deməyə onsuz da sözüm yoxdur. Bircə "Allah sənə ömür versin, ana!" deməkdən başqa... "Allah mənə günahlarımı yumaq imkanı versin qarşında" əlavəsindən başqa. Amma nəvələrinin diliylə o gözəl günlərdə dediyin sözü bu yazının sonuna əlavə edirəm.

**8 Mart bayramın mübarək! Və bacarsan bağışla, ana...**




**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**


# Hər an ölüm...

**Bakının Yeni Günəşli yaşayış sahəsinin "D" massivində, daha doğrusu, "Fatimeyi-Zəhra" məscidinin iki addımlığında bir-birinə bitişik iki 16 mərtəbəli bina tikilir.**

**Artıq binanın 16-cı mərtəbəsi inşa olunur. Həmin iki bina tikildiyi ilk gündən təhlükəsizlik qaydalarına əməl edilmir! Əgər həmin inşa olunan binanın yanında park salındığını xatırlatsaq, onda təhlükəsizlik qaydalarının pozulmasının hansı faciəyə yol aça biləcəyini təsəvvür eləmək bir o qədər də çətin deyil. Küləkli havada bu təhlükə daha da artır.**

**Çünki yüksəklikdən hər inşaat materialları yoldan keçən və parkda gəzən insanların üstünə düşə bilər. Hələ, Allah eləməmiş, kran park tərəfə aşsa görün onda nə baş verər? Bu yaxınlarda yuxarıdan tikinti materialı park tərəfə düşüb.**

**Xoşbəxtlikdən həmin vaxt parkın o istiqamətində adam olmayıb. Parkda gəzən bir neçə insan tikintiyə gedib və iş icraçısına narazılığını bildirib! Hər halda, tikintiyə nəzarət edən qurumlar Mənzil Tikinti Kooperativinə bu qanun pozuntusunu xatırlatmalı və lazım gələrsə, onları inzibati məsuliyyətə cəlb etməlidir!**

## Solts: "Hərbiçilərin səs yazıları tərəfdaşlarımızla münasibətlərimizi korlamayacaq"



**Almaniyanın kansleri Olaf Şolts inanır ki, alman hərbiçilərinin səs yazılatının yayılası faktı, tətəfdsşları ilə münasibətləri korlamayacaq.**

Kanslerin fikirincə, Almaniya ilə tərəfdaşlarının əlaqələri elə bir zivədədir ki, baş verən bu hadisə onu qıra bilməz. Şolts bildirib ki, səs yazılarının cəmiyyətə sızmasından sonra, Almaniyanın əlaqə yaratdığı ölkələrin hamısı bildirib ki, "Biz bu mərhələni adlaya biləcəyimizə inanırıq".

Almaniya KİV-ləri isə heç də kansler kimi düşünmürlər. "Handelsblatt" qəzetinin əməkdaşları bildiriblər ki, "mühüm məlumatların sızması" fonunda Almaniya tərəfdaşlarınln etibarını itirməkdidir.

Tabloid Blid də, öz növbəsində yazır ki, bundesver zabitlərinin danışıqlarının yayılması sübut edir ki, Qərb artıq Berlinə o qədər də inam göstərmir.

## Putin: "Müharibə həmişə faciədir"



**"ABŞ artıq cini şüşədən buraxıb". Rusiya Federasiyasının prezidenti Vladimir Putin hesab edir ki, ABŞ hakimiyyəti səhv siyasət yürüdür. Çünki dünyanın bir mərkəzdən idarə olunması, onun əsasını dağıdır. BMT Təhlükəsizlik Şurasından yan keçməklə, Birləşmiş Ştatlar Yuqoslavakiya və İraqa qarşı hərəkət etməklə artıq "cini şüşədən buraxıb". Beynəlxalq gənclər festivalı iştirakçıları ilə görüşü zamanı, Vladimir Putin bildirib ki, gənclər öz mövuelərini bildirmək hüququna malikdirlər. "Lakin, Rusiya gəncləri ABŞ-a qarşı barışmamaq aksiyalarına çıxmağa çağırmır.".**

Rusiya prezidenti daha əvvəl də qeyd etmişdir ki, hazırda dünyada vəziyyət çox çətin duruma düşüb. Çoxsaylı problrmlər və qaynar ocaqlar mövcuddur.

"İnsanların bir-biriləri ilə müharibə aparması, həmişə faciədir".

Dünyanın hegemon dövlətlərinin başçıları elə bəyinatlarla çıxış edirlər ki, hərdən adam düşünür ki, görəsən dünyanı qarışdıranlar bunlar deyilsə, görən kimlərdi?..

ABŞ prezidenti deyir ki, mən deyiləm, Rusiyadır. Rusiya prezidenti də deyir ki, əsl "qazanı qaynadan" elə Birləşmiş Ştatların özüdür. Çin isə... hələ ki, kənardan müşahidə edir...

**Rüstəm Hacıyev**

## Qəddarlıq



**Bu qədər vəhşilik olar?! Az qala hər gün bir neçə adam xüsusi qəddarlıqla öldürülür.**

Bəs buna səbəb nədir? Ona görə də belə qətllərin səbəb və nəticələri hüquq- mühafizə orqanları tərəfindən tam araşdırılmalı,qabaqlayıcı tədbirlər görülməlidir. Əks təqdirdə bu motivdə cinayətlərin qurbanları çox olacaq, biz yenidən belə hadisələrin şahidi olacağıq!

## Haqsızlıq olmasın



**Bir mədəni, tərbiyəli elm və təhsil naziri var!**

Hamı da düşüb bu nazirin- Emin Əmrullayevin üstünə. Sağdan da vururlar, soldan da! O da səbrlə dözür. Cənab nazir də hamıya hörmətlə yanaşır və gərək hamı da ona hörmət bəsləsin! Hər şeyi Emin müəllimin üstünə atmaq ədalətsizlik və böyük günahdır! Xüsusi ilə də biz jurnalistlər nazirə hörmətlə yanaşmalıyıq, cünki o, bizə hörmətlə yanaşır! Və insan mədəni olanda bundan su- istifadə etməməliyik! Bir də jurnalist etikasını heç vaxt unutmamalıyıq!!!

## "Azəriqaz" camaatı niyə aldadır?!

**Bir vaxtlar bizim yaşadığımız mənzildə mexaniki sayğac quraşdırılmışdı.**

Bir müddətdən sonra onu smart-kart sayğacla əvəzlədilər. Sözün düzü gördük ki, smart- kart mexaniki sayğacdan daha sərfəlidir. Həmin sayğaca 10 manat yükləyrdik iki ay qazdan istifadə edirdik. Elə bil ki, "Azəriqaz" bu sayğacların onlara sərf etmədiyini hiss etdi. İndi dörd aydır ki, bizim mənzildə smart-kartı mexaniki sayğacla əvəz edirlər. Bu da bizdə əsəb gərginliyi və problem yaradıb. Belə ki, bir ayda yeni sayğac 8 manat 20 qəpik pul yazıb.

İndi" Azəriqaz" qazdan soruşuruq; neçə olur ki, smart-karta 10 manat yükləyirdik, iki ay gedirdi,amma mexaniki sayğac bir aya 8 manat 20 qəpik yazır? Görünür, mexaniki sayğaclar, ya standartda uyğun deyil, ya da keyfiyyətsiz istehsal olunub. Ancaq abonenti bu, qətiyyən maraqlandirmır. Və abonenti o maraqlandırır ki, "Azəriqaz" bizim cibimizə girib niyə oğurluq eləyir? Bəs biz onların cibinə girib oğurluq eləsək dözərlər? Qoy , bu suallara məlum qurum özü cavab versin!!!




## Bəzi istedadlı gənclər "oyundankənar" vəziyyətə düşür...

**Bir çox istedadlı gənc dövlət qulluğunda işə girmək üçün imtahan verib, hər üç mərhələdən uğurla keçsə də onları əlaqədar qurumlar işə götürmürlər.**

Məsələn , xarici ölkələrdə işləmis, İngilis, fransız və alman dillərini bilən bir gənc sosial şəbəkədə yazır ki, mən bütün mərhələdə yüksək nəticə əldə etdim.Xarici İşlər Nazirliyində söhbətdən də keçdim və dedilər ki, bir qədər gözləyin, səni işə qəbul edəcəyik! Mən də gözlədim bir nəticə olmadı.

Oradan bildirdilər ki, səni işə götürə bilmərik,tərcürmeyi- halında qaranlıq məqamlar var. Mən də aidiyyatı quruma müraciət etdim, dedilər ki, sizin həyatınızda heç bir qaranlıq məqam yoxdur. Bax belə istedadlı gənclər qalır kənarda, arxalı adamlar isə vəzifədə əyləşir. Sonda isə bu gənclər ədalətsizliyi görüb ölkədən çıxıb gedirlər. Və beyin axını başlanır!



## Ay can, ay can!

**İndi çox adam qəzet oxumur. Və bir də kimsə özünə əziyyət verib, köşkdə qəzet almır, pulu da cibində qalır.**

Elə kompüterdə internetə girib istənilən qəzetin elektron variantını oxumaq mümkündür. İndi nadir halda görürsən ki, metroda, avtobusda qəzet oxuyan var!

Ona insanlar qəribə baxırlar və beyinlərindən keçirirlər ki, bu dəliyə bax ey, qəzet oxuyur.

Amma o " dəli" ən ağıllı adamdı.Çünki qəzet oxuyur! Və bir də axı, qəzetlər hörmətdən düşüb, sosial şəbəkələr, saytlar hörmətə minib.

**Hətta onlarla müqayisədə televiziyalar da geridə qalır. Ay kişinin oğlu, bir qəzetin 2 min, uzaqbaşı 5 min tirajı ola və onun da yarısı satılmaya o qəzet kimə lazımdı. Bax burada qəzet sahibləri günahkar deyil ha . Günahkar onu gözdən salanlar və bir də bataqlıq içində olan cəmiyyətdir! Ona görə də onların beynindən bu fikir keçir:" Qəzetlər hörmətdən düşdü, ay can, ay can!"**



## İtlərə dəyməyin...



**Bizdə itlərin hüquqları qorunur, amma insanların hüquqları qorunmur.**

Dövlət qurumları deyir ki, itə toxunmaq olmaz! Bu itlər də insanları parçalayır.

Bir neçə gün bundan əvvəl Qobu qəsəbəsində üç it uşağı parça- parça edib!! İndi o uşaq ölümcül vəziyyətdədir!!! İtə, dəyməyin dümya dağılar ey! Təki ölən it yox , insan olsun!!!

**EMİL FAİQOĞLU**

## Separatçılara ailələri ilə əlaqə imkanı yaradılıb

**Fevral ayının sonunda Beynəlxalq Qızılı Xaç Komitəsi əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkiblər.**

Adalet.az xəbər verir ki, bu barədə BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

O bildirib ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb: "Mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir.



BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir", İ. Hüseynova qeyd edib.

**Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş "dövlət naziri" Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.**

## Natəvanın Fransadakı abidəsinə zərər vuruldu

**Xurşidbanu Natəvanın Fransanın Evian-lö Bən şəhərindəki heykəli Parisə gətirilib.**



Adalet.az xəbər verir ki, heykəl martın 4-də Evian şəhərindən götürülüb, bu gün Azərbaycan Səfirliyinin nəzdindəki Mədəniyyət Mərkəzinə çatdırılıb.

Heykəlin Mədəniyyət Mərkəzinin bağında ucaldılması ilə bağlı işlər davam etdirilir. Heykəli götürərkən üzərindəki örtük açılıb. Müəyyən olunub ki, abidənin üzərinə qırmızı boya atılmaqla yanaşı - heykəlin gözləri, adının və Azərbaycan yazısının yazıldığı hissələrə qırmızı boya çəkilib - onun özünə də zərər verilib. Belə ki, heykəlin burnuna və barmaqlarına zərər yetirilib.

# Məşhurların "8 Mart" təbriki

**Bildiyimiz kimi sabah Beynəlxalq qadınlar günüdür. Hər kəs özünə doğma olan xanımları məhz həmin gündə təbrik etməyi özünə mənəvi borc hesab edir.**

Hələ illər əvvəl şair Tofiq Bayram "Qadın ürəyi" şeirində qadının bütün duyğularının, hisslərinin, kövrəkliyinin sözlə rəsmini çəkmişdi:

*Güldürsən, ömürlük səadətindir,*
*Söndürsən, yanmağı bir də çətindir.*
*O, əsl qayğının, məhəbbətindir,*
*Sevgisiz zindandır qadın ürəyi.*

Bu bayram münasibətiylə biz də Adalet.az olaraq bu dəfə də aktyorlara üz tutduq. Əks cins olaraq kimə hədiyyə alacaqlarını və ya nə hədiyyə edəcəklərini soruşduq:

**İlqar Musayev** hədiyyəsinin nə olduğunu açıqlamasa da ailəsində ona doğma olan xanımlarrı təbrik edəcəyini söylədi:

"Bütün qadınları təbrik edirəm. Mən də mənə doğma olan xanımları- anamı, həyat yoldaşımı və qızımı təbrik edəcəm".

**Vüsal Murtuzəliyev** isə sualımızı olduqca səmimi cavablayıb:

"Düzü hədiyyə verəcəyim doğmalarım çoxdur. İndidən hədiyyəni desəm, o, sürpriz olmaz. Büdcəyə uyğun hədiyyə də olacaq və səmimi deyim elə pul şəklində də təbrik olacaq".

**Rəşat Kəsəmənli** isə həmkarlarından fərqli olaraq məsələyə mənəvi tərəfdən yanaşıb:

"Düşünürəm ki, hədiyyə almaq vacib deyil. Sadəcə əsl qadın adına layiq olanları təbrik edirəm. Bir də Anamın əllərindən öpüb ona hədiyyə alaram. Hər övlad anasının qədrini bilsə, qadınlar hər zaman təbrik olunmuş olarlar".



**Tural Əhməd** də ona doğma xanımları təbrik edən bəylər sırasındadır:

"Qadınlarsız bir günümüz belə olmasın. Həyat yoldaşıma hədiyyə alacağam təbii ki. Ona olan sevgimi bir daha hədiyyə verəcəyəm ona".

**Elnar Qarayev** "mənim üçün dəyərli olan xanımlara hədiyyə alacam", deyərək sualımızı daha lakonik cavablayıb.

**Amid Qasımov** isə həmkarlarından fərqli olaraq alacağı hədiyyədən yox, anasının "8 MART" qadınlar bayramı ilə bağlı xatirəsini bölüşüb:

"Təxminən keçən il mart ayının əvvəli idi. Kənddə balaca bir hovuz var. Hər gün anam səhər tezdən baxçamızı o hovuzun suyu ilə suvarırdı. Birdən bu hovuzun içindəki motor yanır. Düz 5-6 gün anam atamı dilə tutur ki, bu hovuzun motorunu düzəltdirsin. "8 mart"a kimi atam bunu düzəltdirmir. Bunu mənə anam danışır. Deyir ki, ayın 8-i səhər- səhər birdə gördüm ki, kişinin qucağında təzə bir su motoru var, o da bantiklə bağlanıb. Anamı bu motorla təbrik edib. Deyib ki, bayramını təbrik edirəm, indi ürəyin nə qədər istəyir həyətini suvar. Anam bunu mənə danışanda çox qəribə hisslər keçirdim. Hər il "8mart"da bu hadisəni xatırlayıram".

**ƏNTİQƏ KƏRİMZADƏ**

# "Avropa Bilik Yarışması"nın qalibləri mükafatlandırılıb

**Martın 2-də Bakıda Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı nümayəndəliyi və "Gənc Avropa səfirləri" şəbəkəsinin birgə təşkilatçılığı ilə "Avropa Bilik Yarışması" keçirilib.**

AZƏRTAC xəbər verir ki, bu müsabiqə Avropa Bacarıqlar İli çərçivəsində "Doğru bacarıqlar qazan" şüarı altında təşkil edilən silsilə tədbirlərin bir hissəsidir. Azərbaycanın müxtəlif bölgələrindən olan 14-26 yaş arasında gənc istedadları bir araya gətirən yarışın məqsədi Avropa İttifaqı və ona üzv dövlətlərə dair biliklərin, həmçinin dəyər və mədəniyyətlərin canlı ünsiyyət mühitində interaktiv şəkildə təşviq olunmasını dəstəkləmək, analitik bacarıqları inkişaf etdirmək, eyni zamanda, komanda işini gücləndirməkdir. Müsabiqədə iştirakçıları salamlayan Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko bildirib ki, Avropa İttifaqı təhsil sahəsində müxtəlif proqramlar həyata keçirməklə, o cümlədən təhsil sərgiləri təşkil etməklə Azərbaycan gənclərinin öz potensiallarını tam şəkildə gerçəkləşdirmələrində onları dəstəkləmək yolunu seçib. Bu yarışma da bacarıqlarının əyləncə yolu ilə artırılması, həmçinin Azərbaycanın uzunmüddətli və strateji tərəfdaşı olan Avropa İttifaqı haqqında əlavə məlumatın əldə edilməsi baxımından nəzərəçarpan bir nümunədir. "Avropa Bilik Yarışması" müsabiqəsinə Bakı, Gəncə, Xaçmaz, Lənkəran və Sumqayıtdan ümumilikdə, təxminən 300 nəfərin qatıldığı 72 komanda müraciət edib. 65 gəncin təmsil olunduğu 18 komanda yarışda iştirak hüququ qazanıb.



Tədbirdə Belçika, İsveç, Almaniya, Fransa, Rumıniya və Slovakiyanın Azərbaycanda fəaliyyət göstərən səfir və diplomatları da iştirak ediblər.

Birinci yeri müvafiq olaraq hər iki turda qalib gəlmiş "Sınaps", ikinci yeri "The rapture", üçüncü yeri isə "Jong Ajax" komandaları tutub.

Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko qaliblərə mükafatları təqdim edib.

**Yarışın iştirakçıları sertifikatla təltif olunublar.**

# Babacanyan: «Xankəndidə Aznavuru qorumayan Makron Ermənistanı necə qoruyacaq?»

**2021-ci ildə Azərbaycanın qədim şəhəri olan Xankəndində- Mədəniyyət Mərkəzinin ərazisində yerləşən Erməni-Fransız Dostluq Parkında Şarl Aznavur (Şaxnuur Vaxinak Aznavuryan) büstü qoyuldu.**

28 fevralda erməni mediası yazdı ki, Azərbaycan dövləti məşhur müğənninin 100 illik yubileyi münasibətilə ucaldılan abidəni söküb.

Adalet.az xəbər verir ki, bu hadisə erməniləri çox qəzəbləndirib. "Hraparak" nəşrinin əməkdaşı Hasmik Babacanyan həmin qəzəbi qələmə alıb. Jurnalist yazıb:"Azərbaycan administrasiyası Xankəndidə ucaldılmış Şarl Aznavurun abidəsini söküb. Aznavur məşhur fransız-erməni müğənnisi, şansonist, bəstəkar, şair, yazıçı, kino aktyoru və ictimai xadimdir.

O, fransız dilində ən məşhur müğənnilərdən biridir. Makron bir dəfə deyibmi: Stepanakertdəki dünya şöhrətli vətəndaşımın heykəlini niyə sökürsən? Ermənistanın baş nazirinin kreslosunu tutan şəxsdən danışmağa ehtiyac yoxdur, çünki hansısa xarici ölkənin nümayəndəsi ondan daha ermənidir"

Hasmik Babacanyan Azərbaycanda hərbi əsir kimi saxlanılan Livanlı terrorçu Maral Nacaryanın Livana qaytarılmasına işarə vuraraq yazır: Ad çəkmirəm, amma azərbaycanlılar başqa dövlətin vətəndaşını əsir götürəndə o biri dövlət öz vətəndaşına sahib çıxdı, Azərbaycan o qadını qaytardı. Onu hamınız yaxşı tanıyırsınız. Aznavur əsir qadın qədər dəyərli deyildimi? Aznavur, təkcə Fransanın deyil, dünyanın vətəndaşıdır.

O bütün dünyaya aiddir. Niyə Makron bir dəfə də olsun heykəlin sökülməsini bütün dünyada elan etmədi? Axı bu Makronun sözləridir ki, Aznavur öz erməni kökünə çox möhkəm tellərlə bağlanmış fransız idi. Axı Makron deyirdi ki, özünü Fransa mədəniyyətinə həsr edənlər heç vaxt ölmür. Axı Makron üçün Aznavur Fransanın dili idi... Makron deyirdi ki, Şarl səkkiz dildə oxuyur, amma o, mahnılarını hər yerdə fransızca ictimaiyyətə təqdim edir, çünki fransız dili ümidin, sevginin, şairlərin, sənətçilərin və xalqın dilidir. Makronsevərlər deyəcəklər ki, Makron desəydi də, Azərbaycan bunu etməyəcəkdi, ona qulaq asmayacaqdı. Qoy Makron desin, Azərbaycan da eləməsin. Təki desin! Təki Makronun ağzında o söz çıxsın bütün dünya onun səsini eşitsin...

Jurnalist fikrini bu sözlərlə yekunlaşdırır:"Azərbaycan adlı kiçik və yeni yaranmış dövlət Fransaya qulaq asmayacaqsa, Fransanın sözünü vecinə almayacaqsa, bəs o zaman Fransa həm Azərbaycandan, həm də Rusiyadan Ermənistanı necə qoruyacaq?-deyə Hasmik Babacanyan vurğulayıb.

**Qeyd edək ki, Ermənistan hökuməti FransanınPrezidenti E.Makrona o qədər arxayın dır ki, onun diktəsi ilə hər addımında Azərbaycanın və Rusiyanın əleyhinə qərarlara imza atır. Paşinyan ümid edir ki, Makronun verdiyi silahlar və təhlükəsizlik zəmanəti Azərbaycan və Rusiyaya qarşı atdığı səhv addımların nəticəsini heçə endirə bilər. Halbuki, Hasmik haqlıdır, 1 Şarl Aznavuru qorumağı bacarmayan Makronun yeri gələrsə Ermənistanı xərcləyəcəyi şübhə doğurmur.**

**Əntiqə Rəşid**

*Vüqar Abbasov. Niderland.*

# Vətəndaş, yaxşı vətəndaş...



*"Dövlətin qanunlarına tabe olanlar vətəndaş adını alırlar"*

*Jan-Jak Russo "İctimai müqavilə"*

**Bəli, qanun hamı üçün eyni olmalı və hər kəs də qanuna tabe olmalıdır. Bu, birmənalıdır. Qanunlara könüllü əməl edəni həm də vətənpərvər adlandırmaq olar. Yeri gəlmişkən, vətənpərvərlik haqqında ən gözəl tərifi (mənim düşüncəmə görə), səhv etmirəmsə, yazıçı Anar vermişdi və o, təxminən belə demişdi: "Vətənpərvərlik hərənin öz işini vicdanla görməsidir". Mövzudan kənarlaşmayaq, əslində kənarlaşmaq da deyil, bizim üzərimizə düşən işlərdən, vəzifələrdən biri də qanunlara əməl etməkdir. Bəs bunu edirikmi?**

**... Üç nöqtəni ona görə yazdım ki, qanunları pozmamız barədə onlarla faktlar gətirmək mümkündür. Bir çoxlarımız öz xeyrimizə qanunları pozmağa hazırıq. Amma bir başqasının qanunu pozduğunu görəndə əsəbləşir və haqqı, ədaləti yada salırıq. Bu yerdə bir haşiyə çıxım.**

**Bir neçə il öncə Bakıda olanda taksiyə minmişdim. Taksi sürücüsü yolboyu qanunsuzluqdan şikayət etdi. Mənzilbaşına yaxınlaşanda dözmədim və sürücü ilə aramızda belə bir dialoq oldu:**

**- Cavan oğlan, bayaqdan qanuna əməl edilmədiyindən, etikadan, daha doğrusu, gündəlik rastlaşdığınız etikasızlıqlardan danışırsınız. Amma özünüz tanımadığınız bir adama "sən" deyə xitab edirsiniz. Damağınızda siqaret qoymuş, şüşəni da sona kimi açmısınız. Musiqinin səsindən qulaq tutulur, həm də, mənim zövqümə görə, bayağı bir musiqidir. Yolda benzin də doldurdunuz. Düzünü deyin, sürücülük vəsiqəsini necə almısınız?**

**- ...**

**- Bütün bunlara baxmayaraq siz də narazılıq edirsiniz...**

**Söhbətimizin hamısını burada yazmağa ehtiyac hiss etmirəm. Taksiyə minirsən belə, bazara gedirsən belə... az qala hər addımda belədir və hər kəs də özünü haqlı sayır, başqasını ittiham edir. Bəs kimdir məsul? Kim düzəldəcək bütün bunları? Axı məmləkətdə fəhlədən tutmuş lap yuxarı vəzifələrdə çalışanlara kimi, dövləti idarə edənlərə kimi, hamısı bizdəndir...**

**... Sosial şəbəkələrdə qarşıma tez-tez iş elanları çıxır. Əksəriyyəti savadsız, peşəkarlıqdan kənar hazırlanmış elanlar olur. Amma sözüm və həm də problem bunda deyil (bəlkə də məhz bundadır). Elanların əksəriyyətində diskriminasiya, bir və daha artıq qrupun hüquqlarının məhdudlaşdırılmasını görmək mümkündür. Maraq üçün iş elanları olan saytlardan birinə (https://tap.az/elanlar/is-elanlari) daxil oldum. Sonra isə internetdən Əmək Məcəlləmizi tapıb göz gəzdirdim. Baxdım ki, Əmək Məcəlləsinə əməl olunarsa, bu iş elanlarını verənlərin çoxu qanunamüvafiq cəza almalıdır. Məsələn, Əmək Məcəlləsində gündəlik iş saatı 8 saat, həftədə isə 40 saat müəyyən edilib (əlbəttə ki, istisnalar mümkündür, Məcəlləni tam oxumadım). Gəlin birlikdə Məcəllənin 90-cı maddəsinin üçüncü bəndinə baxaq: "3. Altıgünlük iş həftəsində həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan, həftəlik norma 36 saat olduqda gündəlik iş vaxtının müddəti 6 saatdan və həftəlik norma 24 saat olduqda gündəlik iş vaxtının müddəti 4 saatdan çox ola bilməz". Sonra isə yuxarıda qeyd etdiyim saytdan bir elana baxaq:**

**Gördüyünüz kimi iş saatı 12 saat edir, yəni normadan 4 saat çox. Hələ verilən elanlardakı digər qanunsuzluqları demirəm. Məsələn, namizədlərə yaş həddinin qoyulması, cinsi mənsubiyyətə görə tələblərin olması və.s. Bu da daha bir misal:**

**Belə faktları çox göstərmək olar. İstəyən özü iş elanlarına, Əmək Məcəlləsinə baxsın.**

**Bütün bunlar digər insanların, yaşı müəyyən yaşdan yuxarı olanların, bəzi hallarda kişilərin, bəzi halda qadınların hüquqlarının məhdudlaşdırılması deyil? Nəhayət, bütün bunlar qanun pozuntusu deyil? Qanunları pozan özümüzük, amma özümüzə qarşı qanun pozuntusu olanda qanun yada düşür. Bütün bunlara nəzarət etməli bir qurum, təşkilat var? Bütün bunlara nəzarət olunacaq?**

**Suallar çoxdur. Gəlin nəzarət etməli olanları qoyaq bir kənara, özümüz qanunlara əməl edək, necə deyərlər, vətəndaş, yaxşı vətəndaş olaq.**

***P.S.* *Yeri gəlmişkən, mənim fikrimcə, Əmək Məcəlləsinə də bəzi dəyişikliklər etmək mümkündür. Məsələn, yuxarıda misal çəkdiyim 90-cı maddənin üçüncü bəndi. Mənə elə gəlir ki, işə götürənlə işçi qarşılıqlı razılıq əsasında, həftədə 24 saat iş saatını 3 günə, gündəlik 8 saat işləməklə də doldurmaq olar. Qeyd edim ki, belə təcrübə Avropanın bir çox ölkələrində, həmçinin mənim yaşadığım ölkədə də var.***

**vugarabbasov@hotmail.com**

# Sevgi və kədər şairi



Cahangir MƏMMƏDLİ
BDU Milli mətbuat tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor

**Əbülfət Mədətoğlu sevgi şairidir. Kitablarının birində özü yazır: "Bu kitabda nə varsa, hamısını sevgidən yazdım, sevə-sevə yazdım". Əslində bəlkə də ən çətini sevgidən yazmaqdır. Sevgidən yazmaq hər kəs üçün yazmaqdır. Hər kəs üçün yazmaq asan iş deyil. Sevgidən yazmaq anında dünyanın sevgi şairlərini və onların fövqündə duran Füzulini, Əli Kərimi, Məmməd Arazı göz önünə alasan gərək. Çünki arxada qalanlar, klassikləşənlər sevgiyə İlahi bir anlayış kimi, varlıq kimi baxıblar. Məncə, nədən yazırsan yaz, xüsusilə sevgi mövzusu üzərində gəzişmələrdə belə bir sual qoyulmalıdır: sevgidən bu qədər yazanlar içərisində mən yeni nəsə deyə biləcəyəmmi? Mən Əbülfət Mədətoğlunun şeir dolu kitablarını oxudum və qəti bir qənaətə gəldim ki, o, əsl sevgi şairidir.**

Və bir də bu dünyada hər şey sevgidən başlayır. Yüz min istiqamətli sevginin hamısı isə bir sevgidən doğur; qadına sevgidən.

Elmi zəkasına və təhlillərində obyektivliyinə çox güvəndiyim Rüstəm Kamal Əbülfət Mədətoğlunun bir kitabına yazdığı ön sözdə bu şairi "ömür, ümid və sevgi ilğımı" kimi qiymətləndirir. Əbülfət Mədətoğlunun şeirlərinin sevgi obyekti çoxdur. Onun ruhunu oxşaya biləcək bütün sevgilər "vətənin bir ovuc torpağı" ilə müqayisə edilir:

*Tanrı ətəyinə uzanan əlim*
*Saralır son bahar yarpağı kimi*
*Oxşa gəl, ruhumu, ay gözəl ölüm -*
*Vətənin bir ovuc torpağı kimi.*

Şairin Vətən sevgisi bu poeziyanın ən ağır nisgilidir. Və bu nisgil, əlbəttə, Vətənin - Qarabağın 30 illik nisgilinin ekvivalentidir:

*Bir ömrüm var - uduzduğum, udduğum*
*Günlərini saymaq indi nağıldı.*
*Ay diz çöküb ətəyindən tutduğum,*
*Niyə mənim yurdum-yuvam dağıldı?*

Bu, ağır bir sualdır və bu sualın ağırlıq siqləti şairin sevgi dünyasında Vətəni ilk sıraya qoyur.

Bir az əvvəldə dediyim kimi, yüz min istiqamətli sevginin hamısı bir sevgidən doğur; qadına sevgidən. Əlimdə Əbülfət Mədətoğlunun bu istiqamətdə sevgi dolu kitabları var: Əvvəlcə "Mənim kimi sevə bilsən..."dən: Üç nöqtə ilə bitən bu sərlövhə çox maraqlı bir sevgi dünyası vəd edir: poetik sevgi dünyası. Bu sevgi dünyasının nə başlanğıcı, nə sonu var. Başlanğıcı məlum deyil ona görə ki, şeirlərin, demək olar ki, heç birinin (ikisindən başqa) sərlövhəsi yoxdur, bütün şeirlər və bütün sətirlər kiçik hərflə başlayır, kiçik hərflə bitir. Doğrusu, ilk baxışda belə bir təqdimat tərzi oxucuya çox qəribə gəlir və bu qəribəliyi anlamaq üçün şeirlərin hamısını oxumaq gərəkdir. Onda hiss olunur ki, belə bir format (formatmı?) Əbülfət Mədətoğlu şeirlərinin təkcə tərtibat poetikası deyil, daha çox bu poeziyanın məzmun, tematika bitkinliyidir. 14,5 çap vərəqi həcmində bu kitabdakı 207 şeirin ümumi bir mövzusu var: sevgi - qadına sevgi, Vətənə sevgi, insana sevgi, yaxşıya sevgi, pisə sevgi (!), həsrətə sevgi, sevgiyə sevgi və s. Bu sevgilər müəllifin poeziyasında o qədər səmimi və sistemli ifadə olunur ki, onlara bir bucaqdan, aydın və dərk edilmiş bir bucaqdan baxanda bütöv bir roman təsiri bağışlayır.

Sətirləri kiçik hərflərlə başlayan bu şeirlərin ilkində:

*gecəmi gündüz edən*
*odumu külsüz edən*
*sevgimi dilsiz edən*
*bir dil arzusundayam... (10)*

kimi bir pessimist fikir dayanır və bu qəm dünyası səhifələr boyu çoxçeşidli şeirlərlə davam edərək lap sonda...

*dərdi də pullu edin*
*bacaran alıb çəksin*
*çəkdikləri dərdlərin -*
*dərdinə qalıb çəksin (228)*

kimi sətirlərlə bitir.

Deyəsən, elə mən də şairin özü kimi bir az pessimizmə qapıldım. Amma neynim ki, bu şeirlərdə pessimizmin özü də sevgiyə bağlanır...

Əbülfət Mədətoğlunun şeirlərinin hər birində oxucu özünü görür. Çünki bu poeziyanın yaratdığı bütün duyğular hər kəsin ürəyində uyumaqdadır. Və poeziyanın əsl missiyası isə elə bu yatmış, potensial duyğuları oyatmağındadır.

*ağrıdır çiçək məni*
*hamıdan göyçək məni*
*nə olar, göy, çək məni -*
*sən öz dəriliyinə...(11)*

Yaxud:

*asılıb başım üstdən*
*alatoran buludlar*
*ruhumu, ürəyimi*
*sıxıb baxan buludlar...*

Bəlkə də adi bir təbiət mənzərəsidir. Amma poetik yanaşma bu adi mənzərəni duyğulu bir tabloya çevirir.

Yaxud:

*gözümdən yol asılır*
*sinəmə od basılır*
*hər gün başdan yazılır -*
*həsrətim varaq kimi...(35)*

Bu sətirlərin də poetik gücündə həsrətdən bezmək yox, həsrəti duymaq kimi orijinal bir məqsəd var. Şair yaxşı bilir ki, əslində əsl sevginin dili yoxdur. Amma bu postulatı özünəməxsus şəkildə belə ifadə edir:

*elə bil yuxuluyam*
*anışdıra bilmirəm*
*üzümə bir qız baxır*
*danışdıra bilmirəm...(43)*

Şair bu "dilsizliyi" başqa bir şeirində belə ifadə edir:

*bir könül sevdası var*
*başımı qatır hələ*
*yüz illik yuxusuz tək -*
*sakitcə yatır hələ...(78)*

Əbülfət Mədətoğlu istər xarakterində, istərsə də poeziyasında sakit bir kənd adamıdır. Şəhər dünyası inciməsin, kənd adamı xalqa, onun dilinə, insanın yaranışına daha yaxından bağlıdır. Bəlkə ona görə ki, şəhərdən əvvəl kənd yarandı, dünya kənddən başladı...

Əbülfət Mədətoğlunun yazı masamın üstündəki digər bir kitabı "Bir qadına" adlanır. Bilmirəm, bəlkə şair doğrudan da bu kitabdakı 160-a qədər şeirlərin hamısını bir qadına həsr edib! Amma "Bir" qadına yazılmış bu şeirlər bütöv bir sevgi dünyasıdır və o "bir qadın" o qədər ustalıqla ümumiləşdirilib ki, hər kəs o şeirlərdə həçansa sevdiyi, sevməkdə olduğu "bir qadını" görməkdədir. Məncə, əsl bədii sənət, əsl bədii düşüncə bu əlaməti ilə - bir obrazı hər kəs üçün ümumiləşdirə bilmək keyfiyyətilə estetika yarada bilir.

Əbülfət Mədətoğlunun bu kitabına Xalq yazıçısı Elçin çox geniş və son dərəcə səmimi bir ön söz yazıb. Elçin müəllimin bu ön sözünün özü də bir kitab şeir ətrafında müasir poeziyamızın dünyaya, gerçəkliyə bədii baxışının ümumiləşdirilmiş ədəbi-tənqid formatıdır. Belə bir ümumiləşməni hər kitabdan alınan təəssüratda formalaşdırmaq olmur. Belə bir elmi-tənqidi ümumiləşmə üçün məhz Əbülfət Mədətoğlu poeziyası lazımdır... Təsadüfi deyil ki, kədərin, hisslərin, duyğuların Azərbaycan poeziyasındakı həqiqi yerini təhlilə cəlb etməmiş ədəbi tənqidə öz elmi gileyini bildirən Elçin göstərir ki, "tənqidimiz bundan sərf-nəzər edirsə, deməli, onun, yəni tənqidimizin fəhmi bu istiqamətin gələcəkdə bəlkə də milli poeziyamızın magistral yollarından birinə çevrilə biləcək ehtimalını hiss edə bilmir. Bu ehtimalı yaradan poetik ovqatı, necə deyərlər, əyani şəkildə ifadə etmək baxımından, misal üçün, Əbülfət Mədətoğlunun yaradıcılığı, məncə, tutarlı bir əsas verir". Və Elçin bu "əsas"la bağlı Əbülfət Mədətoğlu poeziyasından tutarlı misallar gətirir...




Əbülfət Mədətoğlunun bu istiqamətdəki poeziyasında, yenə təkrar edirəm, kəndin, insanın yaranış nöqtəsinin, xalq dilinin adamı duyğulu hisslərə çağıran leksikası, üslubu var:

*Bu qocalan ümidlərim*
*Vaxtsız, vədəsiz qarıdı...*
*Ümidsiz, ümidli yerim*
*Güldü, həsrətim yarıdı!..*

*Ruhum bükülən ərəndi,*
*O, mənim bəndim-bərəmdi,*
*Günlərim pərən-pərəndi -*
*Sanki dağılmış darıdı...(23)*

Əbülfət Mədətoğlunun ümidsiz sevgisinin ifadə olunduğu şeirlərin hər sətrində bu sevgiyə əslində ümid dolu bir baxış var. Bu şeirləri oxuyanda mən müasir rus yazıçısı Valentin Rasputinin ümidsiz sevgiyə bağlı nəsrlə dediyi bir fikrini xatırladım. Yazıçı povestlərinin birində gerçəkləşəcəyinə heç bir ümid yeri qalmayan bir sevgini belə obrazlaşdırır: "Bu sevgi qış günəşinə bənzəyirdi: parıldayır, amma isitmir". Lakin qış ötəcək, yaz gələcək və o günəşin parıltısı həm də isidəcək. Əbülfət Mədətoğlu bu ümidi "Qadın" şeirində çox uşaqlıqla qələmə alır. Əksər şeirlərində pessimist ovqatla yaşayan şair bu şeirində qəmi, kədəri unudaraq "indi dünyanın ən gözəl anını yaşayır - yerdən, göydən razı..."

Və qarşısında bir qadın əyləşib, amma yenə sevginin dili laldır, nə o qadın dinir, nə şair dillənir, adını soruşmağa ürək eləməyən şair sonda bütün özünün sevgi poeziyasının idealını təqdim edir:

*Allahın xəlq etdiyi bir mələk,*
*sadəcə şərti olsun, deyir ürək*
*bu ad:*
*Dünyanın ən gözəl QADINI!...*

Beləcə, şair bir QADININ timsalında bütövlükdə qadın tablosunu ustadcasına ümumiləşdirir.

Yuxarıda "Bir qadına" kitabının poetikası ətrafında bəzi fikirlər dedim. İndi "Bir qadına" şeirinin özü haqqında söz demək keçir ürəyimdən:

*Seçdiyim yolu geyindim -*
*Ümid adına, adına...*
*Öz dərdlərimdən deyindim -*
*Mən bir qadına, qadına...*

Cəmi üç bəndlik bu şeirin aşıq poeziya üslubu onu daha cəzbedici formata salır:

*Deyindim, huşu da getdi...*
*Baharı, qışı da getdi...*
*Bir sevgi boşuna getdi -*
*Düşməz yadına, yadına...(27)*

Sevgi şeirlərinin əksəriyyətində müəllifin xalq dilinə xüsusi marağı, diqqəti var. Bəlkə də burdakı "maraq" və "diqqət" sözlərini mən uydururam. Çünki axı, bir tərəfdən də əsl poeziya, əsl şeir sənəti "maraq" və "diqqətdən" çox Tanrı sevgisindən süzülüb gəlir. Elə "Sən ruhumun Tanrısısan" şeiri öz başlığı ilə də sanki Tanrıdan gəlir:

*Dilim-dilim olsun dilim,*
*Əzabdı hər ayım, ilim...*
*Yuxuda gördüm ki, gülüm,*
*Sən ruhumun Tanrısısan! (31)*

Bu sevginin səmimiyyəti sevmiş və sevən hər kəsin bütöv bir ömür yolunun dolaylarını xatırladır:

*Baxt özü o baxtdı, bilir,*
*Vaxt həmin o vaxtdı, bilir...*
*Allah özü haqdı, bilir,*
*Sən ruhumun Tanrısısan!*

Bu poeziyada xalq deyimləri o qədər yerindədir ki, bəzən sanki bu şeiri oxuduğun məkan doğma el-obadır və sən dərdini tay-tuşlarına danışırsan:

*Yuxum perik, günüm ah*
*Alın yazımdı günah...*

Yaxud:

*Qəm bitib çıxıb dizə,*
*Xəfəsi dəyir bizə...*
*Ruhum gələcək sizə*
*Bu axşam adnadı!..(34)*

Cəmi dörd sətirlik bir şeirdə qadına sevginin elə məqamı qələmə alınıb ki, bu dörd sətir poetik aforizmə çevrilir:

*Məndən ayrılmağın,*
*Tək bircəcə yolu var:*
*Məni torpaq aparsın -*
*Səni də sevdiyin yar!..*

Bu dörd sətir qısa deyimdə görünməyən qısqanclığın dastanı təsiri yaradır.

Əbülfət Mədətoğlunun poeziyasında dərdin poetik ifadəsinə xüsusi diqqət yetirən yazıçı Elçinin nə qədər haqlı olduğu şairin bu tipli sətirlərində aydın görünür:

*...Şükür duası edib -*
*Qələmə söykənirəm...*
*Günümə bax, bu yaşda -*
*Dərd dili öyrənirəm!..(98)*

Şairin bu "dərd dili" öz leksikası, sintaksisi, ifadə tərzi ilə o qədər mükəmməldir ki, oxucunun da estetik baxışlarına çevrilir və hər kəsə sevgini necə yaşamağı öyrədir - mən bu son sözümdən heç bir ehtiyat eləmirəm - çünki öyrədir.

**Əbülfət Mədətoğlunun qəmqüssə, kədər dolu kitab-kitab şeirləri, məncə, heç bir oxucunu yormaz. Çünki bu şeirlərdəki qəmqüssə, kədər "hər kəsin" də haçansa yaşadığı real həyatın dənələridir. Füzulinin qəm, kədər dolu şeirləri onu klassik ədəbiyyatımızın əvəzolunmaz şairi kimi dünyaya tanıtdı. Əbülfət Mədətoğlu da qəmə, kədərə bağlılığı ilə Füzuli yolunun yolçusu kimi bədii sözün ucalığındadır.**

**"525-ci" qəzet, 6 mart 2024-cü il**

## ƏLİN CİBDƏN UTANDIĞI GÜN

***(8 Mart üzrxahlığı)***

***Əslində bütün günlər yaşamaq üçündür, dəyərləndirmək və qiymətləndirmək üçündür. Təbii ki, söhbət dəyərləndirməyi, yaşamağı bacaran insandan gedir. Amma neyləmək olar ki, bəzən biz yaşamağı bacarmırıq, və yaxud da yaşamağın damarını tapa bilmirik, yolundan uzaq düşürük, ya da bizə yaşamağa imkan verilmir.***

***Söhbət hansısa bir basqıdan getmir, təzyiqdən getmir. Söhbət reallıqdan, insanın yaşamı üçün lazım olan maddi və mənəvi durumdan gedir.***

***Bax, bu mənada artıq uzun illərdir ki, insanlar özləri üçün fərqli günlər qeyd edirlər. Daha doğrusu, təqvimdə bunu işarələyiblər. O günlərdən biri də 8 Martdır. Bu, simvolik bir gündür, yəni həmin gün kişilər xanımlara bir az fərqli yanaşırlar. Bir az diqqətli, qayğıkeş, anlayışlı münasibət sərgiləyirlər. Və bu da həmin gün kişilər tərəfindən qadınlara hədiyyə kimi dəyərləndirilir. 365 günün birini qadınlara sanki ərməğan edirik. Amma...***

***Köhnə kişilərin sözü olmasın, ötənlərdə bayramlar da, xatirələr də, diqqətlər də tamam başqa idi. Mən orta məktəbdə oxuduğum illərdə müəllimlərə, sinifdəki qızlara bir açıqlama və yaxud da bir kitab bağışlayardıq, içərisinə də ürəyimizin isti sözlərini qeyd edərdik. Sonra həyat öz inkişaf sürətini artırdı və bizi uzaqlaşdırdı kitab, açıqlama hədiyyələri verməkdən. Onun yerini gül dəstələri, müxtəlif ətriyyatlar, bahalı hədiyyələr tutmağa başladı. Elə bu gün də həmin ovqat davam edir, amma bu günün bazarı bizim illərin bazarı deyil. Və deməli, bizim illərin adamları da bu günün bazarına uyğunlaşa bilmirlər. Bunun da əsas səbəbi məhz əllə cibin arasındakı məsafədir.***

***Əgər bir mətbuat işçisi, bir ziyalı, bir sadə əmək adamı aldığı məvacibi bir ayın günləri arasında bölə bilmirsə yaşadığı sıxıntı təbii ki, sonda ürək ağrısına, həsədə, dilxorçuluğa çevrilir. Mən bu yazını yazmazdan öncə gül dükanına yaxınlaşdım, qiymətlərə baxdım və ailəmdəki, çevrəmdəki xanımları göz önünə gətirib o güllərə baxmaqla kifayətləndim. Çünki hərəsinə bircə ədəd qızılgül almaq artıq bir aylıq əmək haqqına vida deməkdir. Bax, kasıblıq da burda ağlamaq tutur, əl də cibdən utanır.***

***Ona görə də ümid qalır yenə xanımların anlayışına. Necə deyərlər, onlar da bizimlə bir cəmiyyətdə, bir reallığın içində yaşayırlar. Nə çəkdiyimizi, necə yaşadığımızı elə onlar da bizim qədər görür. Görünənə isə bələdçi lazım deyil. Bu mənada gerçəyi görən, qiymətləndirən, dəyərləndirən xanımlar, bizim ürəkdən gələn səmimi təbrikimizi qəbul edin. Elə bu təbriki hədiyyə kimi qəbul edin. İnanın və bilin ki, biz sizləri sevirik, biz sizlərlə xoşbəxtik. Sizin hər birinizə arzuladığınız xoşbəxtliyin yolunda hər zaman yaşıl işıq arzu edirik. Yolunuz açıq, bəxtiniz uğurlu olsun.***

***Bayramınız mübarək!***

Bəxtiyar SADIQOV

# Doğrudanmı biz bu qədər kasıbıq?!



Bu il Zəfər müharibəsinin dörd ili tamam olacaq!

* Dördüncü ildir ki, otuzillik işğala son qoymuşuq!

* Dördüncü ildir ki, qalib xalq, qalib dövlət adını fəxrlə daşıyırıq!

* Dördüncü ildir ki, "məcburi köçkün" adını tarixin arxivinə verərək "qəhrəman vətəndaş" statusunu qazanmışıq!

Alnımız açıq, üzümüz ağ, dilimiz uzun, milli mənliyini geri qaytarmış xalqıq!

Bütün bunlara Prezident İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə nail olmuşuq!

* Bütün dünya 44 günlük Zəfər müharibəsini XXI əsrin müharibələr tarixində yeni səhifə kimi qəbul edib.

* Bütün dünya 44 günlük Zəfər müharibəsini "nümunəvi" müharibə hesab edərək Azərbaycanın tətbiq etdiyi strategiya və taktikanı öyrənir, nəticə çıxararaq öz ordularında islahatlar aparır.

Başqa sözlə, bizdən güclülər və imkanlılar həvəslə bizdən öyrənir, yeniliklərimizi tətbiq edirlər.

* Bütün dünya 44 günlük Zəfər müharibəsində keçilməz cığırlardan keçərək, sıldırım qayalara dırmaşaraq, çiyinlərində ağır yük daşıyaraq, ağır artilleriyanın, zirehli texnikanın, PUA-ların imkanlarından bəhrələnmədən, demək olar ki, yalın əllə Şuşa kimi qala şəhərini alan xüsusi təyinatlılarımızın qeyri-adi igidliyini və rəşadətini qəbul edir və heyrətini gizlətmir!

44 günlük Zəfər müharibəsinin müəllifi və sərkərdəsinin, qələbələrimizin təşkilatçısının cənab İlham Əliyev, zəfərimizin təminatçılarının qəhrəman əsgər və zabitlərimizin, şəhid və qazilərimizin olduğunu hamı etiraf və qəbul edir!

* İlham Əliyev hazırda fəaliyyətdə olan dövlət başçıları sırasında yeganə Ali Baş Komandandır ki, ləyaqətli müharibə aparmaqla tam və qəti qələbə qazanıb!

* İlham Əliyev beş əsrlik Azərbaycan tarixinin yeganə sərkərdəsidir ki, itirilmiş torpaqları geri qaytarıb!

* İlham Əliyev iki əsrlik "Qarabağ problemi"ni müharibə yolu ilə həll edən yeganə sərkərdədir!

* İlham Əliyev yeganə dövlət başçısıdır ki, separatizmin kökünü kəsməyi, öz ərazisini separatçılardan büsbütün təmizləməyi bacardı, onun modelini yaratdı!

Həm də mülki əhaliyə, mülki obyektlərə heç bir tələfat və zərər yetirmədən!

Bu gün Azərbaycan ərazisində cəmi 6 separatçı qalıb ki, onlar da məlum yerdə "çay içirlər".

Son iki əsr ərzində dünyanın heç bir yerində heç bir dövlət başçısı, ordusu və xalqı belə möhtəşəm zəfər çalmayıb!

Bunu tək biz yox, hamı bilir və qəbul edir!

***

Torpaqlarımızı işğalçılardan təmizləyərək, ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa edərək mümkün olmayanı gerçəkliyə çevirmişik!

Amma ötən üç-dörd ildə bu möhtəşəm Zəfərin, qəhrəman sərkərdə və oğullarımızın şücaətini, igidliyini, qeyrət və mərdliyini əks etdirən bədii əsər, bədii film yaradıb ortaya qoymamışıq.

Qəribədir, həyatda olanlar bədii əsərlərdə və filmlərdə yoxdur!

Televiziya kanalları çoxsaylı verilişlər, sənədli filmlər, dəyərsiz seriallar, müxtəlif kompozisiyalar hazırlayaraq (kefiyyətdən danışmırıq) nümayiş etdirirlər.

Adətən, belə çəkilişlərin ömrü ekranda göstərildiyi müddət qədər olur.

Telearxivin necə "qorunduğuna" isə sovet dövrü arxivlərinin saxlanılmasında şahid olduq.

Ermənilərin Cənubi Qafqaza köçürülməsinin 150 illiyindən bəhs edən telefilmlərin və digər çəkilişlərin başına elə daş salmışlar ki, biri də tapılmayıb!

İndiyədək qəzetlərdə söhbət açılan mövzularda müxtəlif yazılar və materiallar getsə də, artıq qəzetlərin özlərini də "tarixin arxivi"nə verməyə hazırlaşırıq.

Bunlar da qəzetlərlə birlikdə yoxa çıxacaqdır!

Qalır bədii əsərlər və kino çəkilişləri.

***

Tarix, adətən, sənədlərdə, arxivlərdə qorunub saxlanılır.

Müasir dövrdə, gündəlik həyatda isə bədii əsərlərdə, kino lentlərində yaşayır.

Tarixin gerçəkdə yaşadılmasının, yaddaşlara həkk olunmasının ən yaxşı və sınanmış yolu hadisələri əks etdirən bədii əsərlərin yaradılması, maraqlı ssenarilər yazılaraq bədii filmlərin çəkilməsidir.

Yazıçı tarixi hadisəni, faktı yaratdığı insan obrazlarında təsvir etməklə, ətə-qana gətirməklə sevdirməyi və yaşatmağı bacarır.

Bədii filmlər yaddaqalan qəhrəman surətləri yaratmaqla, emosional və gərgin səhnələr çəkməklə beynimizə və yaddaşımıza uzunmüddətli təsir göstərir.

Bütün bunlar hisslərimizə təsir edir, qəlbimizdə özünə yer tapır, hafizəmizə həmişəlik həkk olunur.

Həm də bir yox, sonrakı nəsillərin də sevgi və yaddaşına çevrilir!

Bədii əsərlərin və kinofilmlərin əlçatanlığı rahat, ömürləri uzun, auditoriyaları çox geniş olur!

Hər il bir neçə dəfə faciəli günlərimizi və fəlakətli tarixlərimizi qeyd edirik.

"Fəryad" və "Dolu" filmləri vasitəsilə yaddaşları təzələyirik.

Hər iki film işğal məşəqqətlərindən və məğlub olduğumuz müharibədən bəhs edir.

Bəs qalibiyyətimizi nə vaxt bədii əsərlərdə və filmlərdə görəcəyik?

Yeri gəlmişkən xatırladıram ki, yazıçı Aqil Abbas "Dolu"nun ikinci hissəsini, hətta yeni filmin ssenarisini yazdığını bildirir.

Bəs nəyi gözləyirik?

Yazanımız və çəkənimiz yoxdur, yoxsa pulumuz?!

***

Yazıçı, dramaturq, ssenarist sarıdan müəyyən çətinliklər yaşanır.

Bunun I Qarabağ müharibəsində şahidi olduq!

Qələm sahibləri əvvəlcə bir neçə povest, roman, dram əsərləri yazsalar da, sonra başımızın altına yastıq qoydular ki, "əsl sənət əsərləri müharibədən bir qədər keçdikdən sonra yaranacaqdır!"

Müharibədən nəinki bir qədər, hətta bir müharibə də keçdi!

Amma hələ də "şedevr"lər yoxdur!

Yazıçılarımızın "köhnələr"i qocalıb, cavan qələm sahiblərinin isə iddiaları istedadlarından çox-çox yekədir!

Hər şey istəsələr də, hələ ki ortalığa bir şey qoya bilməyiblər...

Zaman isə gedir...

Amma heç də ümidsiz deyilik!

Həm də görünür onları ətalətdən qurtararaq hərəkətə gətirmək üçün aidiyyəti dövlət qurumlarının özləri də ətalətdən qurtulmalıdırlar.

Nəyi nəzərdə tuturuq?

***

Bəzən elə məsələlərdə laqeydlik, soyuqqanlılıq və biganəlik göstəririk ki, sağlam ağıla sığışdırmaq çətinlik törədir.

Bütün paslı qıfılları açan ən universal açar "iqtisadi açar"dır!

Hər işin uğurunun da əsas təminatçısı maddi vəsaitdir.

Heç cürə anlamaq olmur - nə üçün müvafiq nazirliklər, komitələr, qurumlar artıq probIemə çevrilmiş bu məsələ ilə məşğul olmur, onun həllinə vəsait "tapmırlar"?

Yazıçı, ssenarist yazmırsa, yazmaq istəmirsə, hər il böyük məbləğdə mükafat ayırmaqla müsabiqələr keçirmək olmazmı?!

Qoy bir il, iki il zəif əsərlər yazılsın, qoy mükafat o qədər də uğurlu olmayan ssenarilərə verilsin...

Nə olar, sonda istədiyimizə nail ola bilərik.

Əgər özümüz çəkə bilmiriksə, yaxşı ssenari, rejissor, lap olsun aktyor yoxdursa, onda "Hollivud"a sifariş verib Zəfərimiz barədə dünyaya səs salan film çəkdirə bilmərikmi?!

* Axı hər şey pulun başındadır!

* Axı bir çox ölkə bu yol ilə gedərək böyük uğur qazanıb!

* Axı bu Zəfərə çatmaq üçün uzun illər ərzində milyardlarla pul xərcləmişik!

Gəlin bir qədərini də onun tərənnümünə sərf edək də!

Dünya dağılar?!

Kasıb düşərik?!

Azərbaycan möhtəşəm qələbəsi ilə dünyada yenidən tanındı və yüksəldi, yeni imic sahibi oldu!

Gəlin bu imicimizi daha da zənginləşdirək də!

Bu, xəsislik ediləsi məsələ deyil axı!

* Xocalı, Qaradağlı, Başlıbel soyqırımları baş verdi, onlarla qoca, qadın, uşaq qətlə yetirildi;

* 20-25 il ərzində minlərlə insan çadır şəhərciklərində, yataqxanalarda, ictimai binalarda ən ağır şəraitdə yaşadı;

* Dörd minədək insan itkin düşdü, analar illərlə yol gözləyərək övladlarının öldü-qaldısından xəbər tuta bilmədilər;

* Mülki əhaliyə qarşı olmazın vəhşiliklər törədildi, bu gün də yeniyeni kütləvi məzarlıqlar aşkara çıxarılmaqdadır;

* Düşmən bir milyondan çox "ölüm toxumu" səpərək, mina tələləri quraraq yüzlərlə mülki insanın ölümünə, əlilliyinə bais olur, hələ indiyədək də həqiqi mina xəritəsini təqdim etmir.

Niyə bunları bədii əsərlərə və filmlərə çevirib dünyaya təqdim etmirik?!

Yaxud başqa bir misal.

"Azərbaycan" qəzeti bir yaradıcı kollektiv olaraq müstəqil dövlətimizin inkişafı, iqtisadi, siyasi, mədəni-mənəvi uğurları ilə bağlı 20-dən çox kitab nəşr etdirmişdir.

Ən uğurlu kitabımız isə (qeyritəvazökarlıq olmasın) "Heydər Əliyev mənim həyatımda" ikicildliyi olmuşdur.

Qeyd edək ki, indiyədək Ulu Öndərimizin Azərbaycana rəhbərliyinin hər iki dövrü ilə bağlı siyasi və quruculuq istiqaməti saysız-hesabsız kitablar yazılmış və bundan sonra da yazılacaqdır!

Lakin onun xeyirxah insan kimi böyüklüyünü əks etdirən, ən çətin anlarında adamlara arxa durub kömək edən, cavanları oxutduran, sonra vəzifə pillələri ilə irəlilədən, ağır xəstəliyə düçar olmuş insanları müalicə etdirərək ömrünü uzadan, əmək adamının zəhmətini qiymətləndirən, onları mənzillə, fərdi təqaüdlə təmin edən saysız-hesabsız addımları olmuşdur.

İkicildlikdə belə insanların minnətdarlığını əks etdirən xatirələr toplanmış, Ulu Öndərimizin bir insan kimi xeyirxah obrazı çoxsaylı yazılarla təsvir olunmuşdur.

Bu gün yenidən elə bir kitabı ərsəyə gətirmək istəsək, artıq mümkün deyil!

Çünki xatirə müəlliflərinin bir çoxu - Ulu Öndər Heydər Əliyevlə orta məktəbdə birgə oxumuş uşaqlıq dövrünün yaxın dostları Zərqələm xanım, Füruzə xanım, Dövlət müəllim və başqaları artıq həyatda yoxdurlar.

"Heydər Əliyev mənim həyatımda" kitabının rus, ingilis, ərəb dillərində nəşr olunması üçün iki mötəbər quruma və nazirliyə müraciət etdik.

Çünki özümüzün buna imkanımız çatmırdı.

Söz verənlər olsa da, əməli işi görmədik!

Buna nə ad qoyaq, indiyədək tapa bilməmişik!

***

Erməni özünə yalançı tarix yazır, qondarma "soyqırım"ları düzəldir, hamını ona inandıra bilir.

Biz isə olanları, etdiklərimizi və bizə edilənləri ortaya çıxarmağı bacarmırıq!!!

Heç olmasa bədii əsərlərdə və kino lentlərində.

Həm də hadisələr o qədər təzətərdir ki, bütün dünyanın gözü qarşısında baş verib, nə sənədə ehtiyac var, nə də arxivlərə müraciət etməyə.

Bəs çatmayan nədir, niyə özümüzə, bu gün yaranan tariximizə, xalqın qəhrəmanlığının gələcək nəsillərə çatdırılmasına bu qədər biganəyik?

Axı bu yolda iki dəfə Vətən müharibəsi aparmış, birlikdə 23 mindən çox şəhid vermişik, minlərlə qazilərimiz var.

Heç olmasa onların xatirinə bir addım ataq!

Bəlkə pulumuz yoxdur, tarixinin ən qüdrətli dövlətini yaradan Azərbaycanda tarixi əbədiləşdirməyə vəsait tapılmır?

Kim buna inanar?

Belə çıxır ki, bu barədə də göstərişi yalnız Prezident verməlidir?

Bəs bizim vətəndaş mövqeyimiz?

Bəs bizim vətənpərvərliyimiz?

Bəs bizim vəzifə borcumuz, məmur məsuliyyətimiz?

Axı bunlar edilməlidir və kimlərsə bu işlərlə məşğul olmalıdır!

Daha səbir etdik, gözlədik, yetər!

**"Azərbaycan" qəzeti,**
**5 mart 2024-cü il**

# Həyat yoldaşına yazdığı məktub 85 il sonra qızına çatdı

**9 sentyabr 1914-cü ildə əsgər Thomas Hughes cəbhəyə gedərkən qayıqda həyat yoldaşına qısa bir məktub yazdı və onu şüşəyə qoyaraq dənizə atdı (La-Manş).**

**Həmin şüşə 85 il sonra 1999-cu ildə balıqçı Steve Gowan tərəfindən tapıldı və Thomas Hughesin 86 yaşlı qızı Emiliyə çatdırıldı... Məktubda bunlar yazılmışdı: "Bəy və ya xanım, 1914-cü ilin sentyabr ayının 9-cu günündə cəbhəyə gedən zavallı bir ingilis əsgərinin məktubunun çatdıra bilərsinizmi?**

**İmza - Əsgər T.Hughes, İkinci Durham Piyada, Üçüncü Ordu Korpusunun Ekspedisiya Qüvvələri"**

**Thomas məktubun ikinci hissəsində həyat yoldaşına bunları yazmışdı:**

**"Əziz həyat yoldaşım, bu məktubu qayıqda yazıram və sənə çatıb çatmayacağını görmək üçün dənizə atıram. Əgər məktubum sənə çatarsa, bu zərfin sağ tərəfində "çatdı" yazılan hissəni imzala. Məktubun çatma tarixini və saatını yaz, onu yaxşıca qoru... Hələlik şirinim, görüşənədək. Sənin ərin."**



**Bu məktub heç vaxt Thomasın həyat yoldaşına çatmadı, lakin qızına çatdı. Thomas həmin məktubu yazdıqdan 2 gün sonra savaşda həyatını itirmişdi.**

**Emin**

# Yaltaqlıq və nəzakət



*Zakir Bayramlı,*
*Şair-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, təhsil işçisi*

**Dünyada yaltaqlığın tarixi çox qədimdir. Onun min illərlə yaşı var. Müdriklərin fikirinə görə ilk yaltaqlıq elə insan cəmiyyətinin yarandığı ilk vaxtlardan əmələ gəlməyə başlayıb. O olduqca çətin və mürəkkəb inkişaf yolu keçərək bugünkü günümüzə gəlib çatmışdır. Həyatda çox hallarda bəzi insanların, xüsusilə gənclərin yaltaqlığa meyil və maraq göstərməsi, onu öz həyatlarına daxil etməsinə təsadüf edilir. Bütün ömür boyu yaltağlığın ab-havası ilə yaşamaq və onun çoxsaylı faydasından bəhrələnmək bəzi insanların öz şəxsi seçimi və ən böyük arzusudur. Çünki onlar bu əməldən yalnız çoxlu xeyir götürmək məqsədilə bu təhlükəli oyunun ən məharətli oyunçularına çeviriliblər.**

Yaltaqlıq etmək və ya yaltaqlığı sevmək bəzi insanların xislətindən doğur. Əgər bir tərəf yaltaqlanmağı xoşlayırsa, digər tərəf də ondan həzz alır. Hər iki tərəfə fayda gətirən belə qarşılıqlı münasibət varsa, deməli onda o yerdə yaltaqlığın ömrü çox uzun olacaq. Yaltaqlıq pis vərdiş olmaqla yanaşı narkotik vasitə kimi insanlarda asılılıq yaradan bir adət və ya xəstəlik növüdür. Özü də insandan ölənəcən əl çəkmir. Yaltaqlıq edənlərdə ünsiyyət amili daha üstünlük təşkil edir. Bu zərərli vərdişin valideynlərdən uşaqlara keçməsi ehtimalı heç vaxt mübahisə doğura bilməz. Çünki ailədə uşaqların tərbiyə edilməsi zamanı ata və ananın bütün yaxşı və ya pis hərəkətləri avtomatik olaraq ailədə tərbiyə alanlara təsir edir. Nə qədər cəmiyyət və xalq içində yaltaqlıq və ya yaltaq hərəkətlər tənqid olunsa və pislənsə də hər gün dünyada və yaşadığımız cəmiyyətdə yaltaqlıq xislətini özünə daimi peşə seçən bəzi insanlarla, o cümlədən gənclərlə üz-üzə gəlirik. İndi təkcə dövlət sektorunda deyil, özəl sektorlarda işləyən bəzi insanlar, o cümlədən, gənclər arasında da yaltağlığı özünə sənət növü seçənlər gündən-günə artıb çoxalmaqdadırlar.

Bəs, yaltağlığı aradan qaldırmaq, onun kökünü kəsib tamamilə ləğv etmək niyə ötən minilliklərdə bəşər övladına qismət olmayıb? Çünki sadəcə olaraq onun aradan qaldırılmasına artıq ehtiyac qalmayıb. Ona görə ki, nə qədər dünyada insan övladı, şeytan və nəfs var, yaltaqlığı yer üzündən silmək mümkün olmayacaq. Ona görə ki, bu pis vərdiş insanların canına,qanına, sümüyünə,iliyinə və s. orqanlarına o qədər dəqiqliklə və incəliklə işləyib ki, onu insan bədənindən cərrah bıçağı və ya lazer şüaları ilə də çıxarıb yox etmək mümkün deyil. Artıq orqanizmin hər bir hüceyrəsində, hər bir toxumasında yaltaqlıq özünə yurd-yuva salıb, orada doğma sakin olub. Onu insan bədənindən xaric etmək böyük müşkül işə çevrilib.

Lüğətdə yaltağlıq sözü yaltaqlanan,digərinə yaltaqlıq edən, yaltaq adam kimi izah olunur. Ümumiyyətlə, yaltaq sözü yala meyl etmək, yal istəmək mənalarını verir. Pxixologiyada isə yaltaqlıq insanların xarakterik xüsusiyyəti kimi şərh olunur. Yaltaqlıq bir çox amillərdən, insanın genetik xüsusiyyətlərindən,yaşam tərzindən, ailədə valideynlərdən aldığı tərbiyədən və s. asılıdır. Müasir dövrdə cəmiyyətimizin bəzi "Qurbanəli bəy"ləri hələ də öz yaltaq əməllərindən əl çəkmək istəmirlər. Bəzən iş yerində yaltaqlıq elə biabırçı həddə çatır ki, yaranmış vəziyyət yaltaqlıq tamaşalarını kənardan seyr edən işçilər iş mühitinin bu cür iyrənc halətindən bezikir.

Yaltaqlığa yuvarlanmağa, onu etməyə məcbur edən səbəblər çoxdur. "Ancaq əsas səbəb elə insanın özüdür"- desək səhv etmərik. Çünki yaltaqlıq vərdişi özü ikiüzlülükdür. Bu şəxsi mənafe uğrunda mübarizənin bir növüdür. Təkcə onu demək kifayətdir ki, bu xüsusiyyəti doğuran səbəb yaltaqlanan şəxsin özünün maraq prinsipinə daxildir. Bəzi insanlar, xüsusən gənclər öz arzusuna, istədiyinə və müəyyən etdiyi hədəflərə çatmaq üçün yaltaqlıq kimi davranış xüsusiyyətindən geniş istifadə edirlər. Eyni zamanda yaltaq adamlar başqalarının tənqidini, iradını qəbul etmək istəmirlər. Onlar yaltaqlığı normal hal kimi qəbul edirlər. Yaltaqlanmaq- öz şəxsi mənafeyi naminə və yaxud bir şəxsin kimlərinsə yanında öz nüfuzunu qaldırmaq üçün digərlərinin qabağında alçalmaq, tələb edilən istəyə uyğun hərəkət etmək və ya təlxəklik hərəkətidir.

İllər ötdükcə, dünya dəyişdikcə yer üzünün əşrəfi sayılan insan özü də xaraktercə, bilik-bacarıq, dünyagörüşü cəhətdən gəyişilərək xeyli inkişaf edib və irəli gedib.

Elmin və texnologiyanın vüssətli inkişafını, texniki-tərəqqinin günü-gündən artan yüksəlişini görən yaltaqlıq da köhnə ölçüsünə sığa bilməyib. O da öz yolu ilə inkişaf edib, özünü təzə dünyagörüşü ilə, bilik və bacarığın ən son üsul və texnologiyaları ilə püxtələşdirib və təkmilləşdiribdir. İndiki yaltaqlar yüz il bundan əvvəlki yaltaqlar deyil.

Nə qədər pislənirsə pislənsin, nə qədər tənqid olunursa olunsun, yaltaqlıq özü də bir çətin, qorxulu və təhlükəli iş, lakin bacarıq və fitri istedad tələb edən bir sahədir. Yaltaqlığı bütün elementləri və incəlikləri qorunub saxlanılmaqla sidq-ürəkdən hər adam yerinə yetirə bilməz. Çünki yaltaqlıq insanın nadir və əcaib xarakterik xüsusiyyətidir.

Azərbaycan ədəbiyyatında şair və yazıçılarımız tərəfindən yaradılmış əsərlərdə yaltaq adam obrazları çoxdur. Bu geniş mövzu olduğuna görə biz yalnız bu söhbətimizdə görkəmli yazıçımız Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsi haqqında kiçik bir nümunəni oxuculara təqdim edəcəyik. Müəllif əsəri satirik qələmlə yazıb. İnsanın ağlını, qürurunu və mənliyini itirərək necə rəzil günə qalması, öz hərəkəti ilə ən iyrənc gülüş obrazına necə də asanlıqla çevrilməsi əsərdə xüsusi sənətkarlıqla açıq-aydın surətdə oxucuya çatdırılıb. Yazıçı hekayədə "Qapazlı" kəndinin bəyi Qurbanəli bəyi həm lovğa, həm yaltaq, həm də yalançı bir adam kimi təsvir edib. Hekayədə müəllif Qurbanəli bəydəki yaltaqlıqla bərabər, həm də ikiüzlülüyü, yüngül xasiyyəti, kobudluq və zalımlıq kimi insana yaraşmayan pis xüsusiyyətləri də tənqid edir. Əsərin qəhrəmanı Qurbanəli bəyin əxlaqi-mənəvi səviyyəsi,danışıq mədəniyyətinin aşağı olması ilə özünü gələn qonaqlar qarşısında biabır və rüsvay edir. Qurbanəli bəyin bədbəxtliyi, onun acınacaqlı vəziyyətə düşməsinə özündən yüksəkdə duran məmurlara yaltaqlanaraq "Mən istəyirəm sizə nökərçilik eliyim"- deməsi, ancaq özündən aşağılarla, yəni nökəri Kərbəlayı Qulam və başqalari ilə kobud rəftar etməsi səbəb olmuşdur.

Kiçik haşiyə.Bir nəfər vəzifəli şəxsdən soruşurlar: "İşlədiyin vaxtda heç tərifə ehtiyacın olubmu"? O, belə cavab verib: "Hər gün, hər saat. Tərif mənim üreyimin dərmanıdır.Tərifsiz vəzifənin nə ləzzəti. Əyər hər gün çoxlu tərifl**ə**nməsən,sürəkli alqışlar qazanmasan, xoş sözlər eşitməsən və şirin təbəssümlər görməsən onda həmin vəzifədə işləmək olar? Onlar olmayan vaxtda qanım qaralır, ürəyim darıxır, sanki havam çatışmır. Elə bil kabinetim suyu kəsilən dəyirmana oxşayır, sanki üzümə qaranlıq çökür, gəlib-gedən yox, səssiz-səmirsiz oturmuşam"...

Yaltaqlıq peşəsi istər-istəməz ğözünü yumub, özünü riskin qucağına atmaq deməkdir.

El arasında, bədii ədəbiyyatda yaltaqlıq pislənsə, tənqid edilsə də, bu hərəkətə pis baxılsa da nəhəng dünyamızın ayrı-ayrı idarəçiliyində ondan geniş istifadə edilir. Çünki dünyanın bünövrəsi ilk öncədən belə qurulub və belə də davam etməkdədir. Yaltağlığı özünə sığışdıran, onu utanmadan yerinə yetirən adamlar işdə həmişə sığortalanırlar. Onlar həmişə töhmət almaqdan, işdən çıxmaqdan uzaq olurlar. Yaltaqların yaltaqlanmasından xoşlanan, bu işdən həzz alan, böyük xeyir görən ikinci tərəf isə həmin növ adamlar onun işlərini yüksək səviyyədə, təşkilatçılıqla və "ahəngdar formada" aparan işçilərə vaxtaşırı müxtəlif güzəştlər və imtiyazlar, hədiyyələr, təltiflər və s. verilməsini təşkil edirlər.

Lüğətdə nəzakət sözü tərbiyə, ədəb, mərifət, zəriflik, incəlik, lətafət, naziklik, gözəllik və s. kimi izah olunur. Həmçinin nəzakət eyni zamanda şəxsiyyətə diqqətli və həssas münasibət yaradılmasını, onun ləyaqət və mənafelərinə isə hörmət və ehtiramla yanaşılmasını tələb edir.

Dünyanın müdrik insanları ta qədim zamanlardan nəzakət naqqında öz müdrik sözlərini yazıb-yaratmışlar. Neçə minilliklər keçsə də həmin aforizmlər bu gün də müasir cəmiyyətimizdə çox gözəl səslənir. Ailə adlı kiçik dövlətə Ümummilli Liderimiz Heydər Əliyev yüksək qiymət verərək ailədə nəzakətliliyə ciddi əməl edilməsini belə dəyərləndirirdi: " Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır". Dahi Azərbaycan şairi Nizami Gəncəvi isə nəzakətli adamı dünyanın ən gözəl insanı hesab edərək belə yazırdı: "Görnüşünüz necə olursa olsun, nəzakət sizi dünyanın ən gözəl insanı edər". Qədim Yunan filosofu Sokrat isə vəzifədə olanlara, xüsusilə hakimlərə işarə ilə nəzakət qaydalarına ciddi əməl etməyi tövsiyə edərək belə yazırdı: "Hakimdə dörd zəruri keyfiyyət olmalıdır: o, səbr və nəzakətlə dinləməli, ağılla cavab verməli, soyuqqanlı düşünməli və qərəzə yol vermədən qərar çıxarmalıdır".

Nəzakət-digərlərini incitməmək və narazı salmamaqdan ötrü gözəl nıtq qabiliyyəti, əla davranış hərəkətləri nümayiş etdirməkdir.

Mövcud tərəflər öz aralarında müsbət keyfiyyətli münasibətlər yaratmağa cəhd edirlər.

Yer planetinin hər bir sakininin diqqətlə dinlənilməsinə, maddi və mənəvi ehtyac və tələblərinin aydın başa düşülməsinə, bir insan kimi sevilmək ehtiyaclarına hörmətlə və nəzakətlə yanaşılmasına dünyanın hər yerində ciddi fikir verilməlidir.

**Yaltaqlıq və kobudluq hər ikisi nəzakətə, müsbət davranışa çox yaddır. Elə etmək lazımdır ki, dediyimiz hər söz, etdiyimiz hər hərəkət nə yaltaqlıq hesab edilsin, nə də kobudluq sayılsın. Hər şey insanın özündən asılıdır.**

## *Qlobal fəlakətin rekord işarəsi: Soyuq qışı yaya çevirən fevral günəşi*

**Meteoroloji müşahidələr tarixində 2024-cü ilin fevral ayı dünyada ən isti fevral ayı olub.**



Adalet.az xəbər verir ki, bu haqda "Kopernik" Avropa Atmosfer Monitorinq Xidmətinin (CAMS) verdiyi məlumatda bildirilir:"Məlumatlar peyklər, meteoroloji stansiyalar, gəmilər və bütün dünya üzrə təyyarələr tərəfindən toplanıb".

Meteoroloqların məlumatına görə, bu ilin fevral ayının orta temperaturu 13,54 dərəcə təşkil edib ki, bu da 1991-2020-ci illərin orta temperaturundan 0,81 dərəcə və əvvəllər ən isti hesab edilən 2016-cı ilin fevral ayının orta temperaturundan 0,12 dərəcə yüksəkdir. Keçən ay Avropada orta temperatur normadan üç dərəcə yüksək olub, "Mərkəzi və Şərqi Avropa üçün orta səviyyədən xeyli yuxarı". Bundan başqa, Sinoptiklər Sibir bölgələrində, Şimali Amerikanın bəzi bölgələrində, Cənubi Amerikanın əksər hissəsində, Afrikada və Qərbi Avstraliyada havanın daha isti olduğunu vurğulayıblar.

Qeyd edək ki, fevralın 20-də Rusiyanın paytaxtı Moskva şəhərində qış fəslinin ən isti günü qeydə alındı.Bu barədə Rusiyanın "Fobos" hava mərkəzinin aparıcı mütəxəssisi Yevgeni Tişkoveç bildirdi:"Moskvada 1976-cı il fevral ayının 20-də 6 dərəcə isti qeydə alınıb. Bu gün isə havanın temperaturu 7,7 dərəcəyə yüksəlib. Bununla da rekord qırılıb", - deyə aparıcı mütəxəssis vurğulamışdı.

***P.S.** **ABŞ alimləri düşünür ki, hazırda yerin nüvəsində qeyri-adi və qeyri-sabit dəyişikliklər baş verir, həmçinin Yerin fırlanmasının təsadüfi və xaotik sürətləndirilməsi və onun fırlanma oxunun mövqeyinin dəyişməsi baş verir. Bundan əlavə, okeanların planeti kompensasiya etmək və soyutmaq qabiliyyətini itirməsi təhlükəsi var ki, bu da yaxın illərdə dağıdıcı nəticələrə səbəb ola bilər.***

**Əntiqə Rəşid**

## *Kinoya baxa-baxa ölən uşaq*



**Bu şəkil bəlkə də sizə adi gələcək, amma çox dəhşətlidir.**

5 yaşlı Zoi Katerin xərçəng xəstəliyindən əziyyət çəkirmiş. Həkimlər heç bir çarənin olmadığını deyir. Anası və atası onun son günlərində istəklərini yerini yetirirlər. Belə ki, günlərin birində Zoi sevimli filminə ailəvi baxmaq istəyir. Onlar filmə birlikdə baxırlar və Zoi yatır, sonuncu dəfə...

Bundan sonra oyanmır. Bu foto da onun sonuncu ailəvi film izlədiyi anda çəkilib. Valideynləri onun yuxuya getdiyini düşünür, həsrətlə baxırlar. Sonuncu dəfə baxdıqlarını bilmirlər.

## *Problemləri həll etmək insanı təzə saxlayır*



**Yaponlar bir ada cəmiyyətidir. Onlar təzə balığı həmişə çox sevirlər. Lakin Yaponiya sahillərində bol balıq az tapılır. Bunu anlayan balıqçılar əhalinin tələbatını ödəmək üçün böyük gəmilərlə okeana gediblər. Geri qayıtmaq bir-iki gündən çox çəksə, tutulan balıqlar köhnəlirdi. Alıcılar da balığın köhnə, ya təzə olduğunu dadından anlayırdılar.**

Bu problemi həll etmək üçün balıqçılar gəmilərində soyuq hava anbarı düzəldirlər. Beləliklə, istədikləri qədər uzağa gedir, tutduqları balıqları da həmin hava anbarında dondurulmuş şəkildə saxlayırdılar. Ancaq alıcılar bu dəfə də təzə balıqla donmuş balığın ləzzət fərqini ayırd edir və bu donmuş balıqlara çox pul ödəmək istəmirlər. Bundan sonra balıqçılar çarəni gəmilərinə akvarium yerləşdirməkdə görürlər. Balıqlar canlı olsa da, alıcılar bu balıqlarda da ləzzət fərqi olduğunu bildirirlər. Nəhayət, yapon balıqçılar təzə və ləzzətli balığı süfrəyə gətirə biləcəkləri tam fərqli bir yol tapırlar. Onlar balıqları saxladıqları akvariuma kiçik köpəkbalığı da atırlar. Beləcə, balıqların bir qismi köpəkbalığı tərəfindən yeyilsə də, digərləri son dərəcə təzə qalır.

İnsan üçün də həyat balıqların həyatı kimidir. Çox vaxt rahatlıqdan əl çəkib öhdəsindən gələ biləcəyi ölçüdə problemlərlə boğuşmaq insanları güclü və həyata daha çox bağlı edir.

**Emin**



Əfşan Yusifqızı

# "AY İLK MƏHƏBBƏTİM, SON MƏHƏBBƏTİM"

- Ay qız, a bala, ay üzü tökülmüş, at o kitabı əlindən bir yana. Dur, bir işin qulpunnan yapış, nə görmüsən axı o kitabda?

- Ay nənə, bu kitabı oxumaq üçün yazıblar e, tullamaq üçün yox. Bilirsən necə maraqlı kitabdı?

- Elə aton da belə deyirdi, yuxu da yatmazdı, xoruz banına kimi kitab oxuyardı, sora noldu? Odeey, itə də bir əppək borcdudu, qurda da...

- Nənə, əslində atam hamıdan varlıdı. Kəndimizdə o varlı dediyimiz Alim dayının evində heç bir dənə də olsa kitab yoxdu, amma bax, atamın kitablarını şkaf tutmur, yarsını yerə yığıb.

- Yaxşı day, başımı çöyürmə görüm.

- Yaxşı, ay nənə, ayrı söz deyirəm. Yadındadı sən bir mahnı xoşlayırdın e, onu oxuyan müğənni də rəhmətə gedəndə ağlamışdın.

- Hə, bala yadımdadı. O irəhməttik bizim kəndə toya gəlmişdi. Orda oxuyanda derdi ki:

„ Sən məəm başıma nələr gətirdün? ”

Göylümnən xəbər vermişdi. Yaxşı da səsi vardı, cavanca hayıf oldu. Baxırdun yaranal kimi oğlandı, yazıx beyqəfil getdi. Adı dilimin ucundadı, bax e, burdan-bura huşumnan çıxdı.

- Məhəbbət Kazımov idi, ay nənə.

- Hə, hə, Möhübbət... Allah yerini irahat eləsin. Yaxşı oxuyurdu.

- Nənə, o oxuduğu mahnı vardı ha, „ Ay ilk məhəbbətim” mahnısı. Bax onu yazan yazıçı yazıb, bu kitabı da.

- Bıy, a bala, bəs mən elə bilirdim onu elə oxuyan özü yazıb. O mahnını birinci dəfə eşidəndə çox pis köyrəlmişdim.

- Niyə pis olmuşdun, ay nənə?

- Biz də cavan olmuşduğ da, bala. Adamın yadına köhnə zamannar gəlir...

- Nənəmə qurban olaram e... Nənə, düzün de, rəhmətlik babam yadına düşürdü, yoxsa ayrı sevdiyin olubmuş?

- Yox, a bala, nə sevməsi, dədəm kimə məsləhət bilib, ona da getmişəm. Amma cavannığımda da, Sara, Şökət oxuyanda köyrəlib, ağlayırdım.

- Mənim gözəl nənəm, ağlamısansa, yəqin könlün ayrı havada olub, gizlətmə.

- Ağız, dur, dur, işün-gücün tökülüb qalıb. Kəmsər-kəmsər danışma.

- Ay nənə, az qalıb e, kitabın son səhifələrini oxuyuram, bitirim, durub işləri mi görəcəm. Narahat olma.

- A bala, o kitabın dalındakı qelyan çəkən kişi yazıb bu kitabı? Nə yazır orda? Nə deyir ki, sən gözüyü çəkmirsən ordan?

- Hər şeydən, ay nənə, sən xoşlayan bayatıdan, şeirdən də yazır. Nənə, yaxşı yadıma düşdü, bax, sən həmişə bayatılar deyirdin, mən də bəzilərini dəftərimə qeyd eləmişdim. Deməк sənin də təhsilin olsaydı, oxusaydın, indi tanınmış şair olardın, sənin gözəl ruhun var e, ay mənim şirin nənəm.

- Hə, bala, mənim tay-tuşlarım oxudu, məni dədəm qoymadı oxumağa, dedi qız nədi, oxumaq nədi. Bala, mənim iti yaddaşım vardı, həm də yaxşı səsim vardı. Eşidənnər deyirdi ki, bu qız Fatma kimi oxuyur. İradiyodan eşitdiyim muğamatdarı yadımda saxlıyırdım. Səhəri pambıq yığa-yığa oxuyardım, ağlıyardım.

- Fatma kimdi ay nənə, Mehralıyeva? Nənə, qurban olum, yadında qalanlardan birini mənə oxuya bilərsən?

- A bala, məndə huş qalıb? Qoy görüm yadıma nə düşür?

”Əzizinəm, a balam,
Bu dərd məni dəng eylər, dəng eylər,
Saraldar, a balam,
soldurar, bədrəng eylər, bədrəng eylər..”

- Ay nənə, ay nənə, nənəəə, bunu sən oxudun? Sən indiyə kimi niyə mənə demirdin bəs? Çox böyük istedadın olub sənin, ay nənə. Həm də fikir verdim



oxuyanda sözləri kitabda olduğu kimi tələffüz edirsən e, nənə. Sənin atan günah iş görüb, sənin istedadını məhv edib. Nənə, icazə ver, səsini yazım, xahiş edirəm, nənə...

- Yox, a bala, səsim yazmaq nədi? Hələ şey olmaz. O vaxt gəlib qapı-qapı gəzib səsi olan uşaqları yığırdılar. Məm də səsimi bəyənmişdilər, irəhməttik dədəm qoymadı.

- Heyf, çox üzüldüm, can nənəm.

- Yaxşı, a üzün tökülməsin, məni ağlatmaq istirsənmi? De görüm o qəlyan çəkən kişi nə yazıb e, o kitaba, möhəbbətdən yazıb?

- Hər şeydən yazıb, nənə. O, çox böyük yazıçıdı. Özünü də şəxsən tanıyıram e, nənə.

Tez-tez Universtetdə tələbələrlə görüş keçirir. Bu ” Daş evlər” kitabını da özü imzalayıb verdi mənə. Çox ağır mövzulardı. Nənə, sən bayatını çox sevirsən, qulaq as burdan sənə bir bayatı oxuyum:

*Öldürdü bu hay məni,*
*Payız, Bahar, Yay məni.*
*Qoy baş vurum suyuna,*
*Apar, apar, çay məni”*

- Ağız, deyirəm da, sən məni ağlatmasan dincəlməzsən. Durum, gem cücələrə yem verim. O kişi ayrı nə yazıb bilmirəm, irəhmətlik oxuyan mahnısına görə ona həmişə alxış-dua eləmişəm, bala.

- Sağ ol, mənim dili dualı, kövrək qəlbli nənəm. Bax, indi sənin xətrinə gör telefondan nəyi tapıram, dinlə...

Sən nə istəyirdin, nələr itirdin?
Qorxma kül olmaqdan, yan, məhəbbətim.
Sən mənim başıma nələr gətirdin,
Ay ilk məhəbbətim, son məhəbbətim.
O parlaq sevgimdən çox utanıb dan,
Ulduzlar eşqimdən qızartı dərmiş.
İnsanlar bir dəfə doğulduğundan,
Elə bircə dəfə sevə bilərmiş...”

SON

Əsərlərini sevə-sevə oxuduğum, çox sevdiyim yazıçı Seyran Səxavətin ad günündə yazmışdım.Heç vaxt paylaşmadım.



Maarifə Hacıyeva,
filologiya elmləri doktoru, professor

# AZƏRBAYCANA MƏHƏBBƏTLƏ

*”Bizim başqa ailəmiz yoxdu.*
*Bizim ailəmiz Türk Dünyasıdı”*

*İlham Əliyev*

Məhsuldar yaradıcılıq yolu keçən ”Yada düşdü” ədəbi-bədii dərginin təsisçisi, respublika ”Xatirə kitabı”nın redaktoru, günügünə calayaraq gecə-gündüz səbr və təmkinlə çalışan Nəzakət Məmmədli həm də tanınmış media işçisi, mükəmməl poeziya incilərini ərsəyə gətirən şairədir:

***Keçdiyim qayşılı ömür yolunda,***
***Gözləri dolubdu bəzən yolun da,***
***Ümidim dopdolu arzularımda,***
***Bu xanım ömrümü mərd daşıyıram.***
***Bu gecə çiynimdə dərd daşıyıram,***
***Aranı dağlara çəkib aparıb,***
***Dağları arana tək daşıyıram,***
***Bu gecə çiynimdə dərd daşıyıram...***

Şeirləri dövri mətbuatda davamlı yayınlanan Nəzakət xanımın 2002-ci ildən bəri yeddi şeir kitabı, o cümlədən ”Ömrüm”, ”Ömrün qatarı” adlanan poeziya toplusu Azərbaycanda nəşr olunmuşdur. Nəzakət xanım həm də ”Vətən daşı”, yaxud 44 günlük dastanı” adlı film-proyektinin, irihəcmli poemaların müəllifidir.

Onun haqqında Azərbaycan mətbuatında da olduğu kimi, türk mətbuatında da maraqlı məqalələr yazılmışdır. 2014-cü ildə Türkiyədə şairənin ”Saralmış yarpağa bənzər ömrüm” şeirlər və məqalələrdən ibarət kitabı Türkiyə türkcəsi ilə işıq üzü görmüşdür. 2023-cü ildə isə İstanbulda ”Yurd həsrəti” adlı şeirlər toplusu Türkiyə türkcəsi ilə nəşr edilmişdir.




Kitaba ön söz yazan İmdat Avşar Nəzakət Məmmədlinin ədəbi-bədii yaradıcılığından, onun poetik düşüncələrindən və ictimai fəaliyyətindən söz açaraq yazır: ”Nəzakət Məmmədli Vətən torpağından, yurd və millət sevgisiylə yoğrulmuş, könlünün zirvələrində hər zaman üçrəngli Azərbaycan bayrağını dalğalandıran şairdir” (səh. 9).

Kitabda toplanan şeirlər öz mövzu və mündəricəsi ilə diqqət çəkir. Bu şeirlərdəki mövzular - Qarabağ mövzusu, Vətən mövzusu, Ana mövzusu, Şəhidlik mövzusu, qardaş ölkə Türkiyəyə sevgi mövzusu kitabın ana xəttində görünən mövzulardır. Doğrudur, kitabın tərtibçisi bu mövzulara ayrı fəsillər ayırmasa da, şeirlərin adları oxucuya mövzunu özəlliklə diktə edir. 1813-cü ildən işğal edilərək Araz boyu yarıya bölünərək İrana ilhaq edilən Azərbaycan xəritəsində Cənubi Azərbaycan kimi adlanan Azərbaycan torpaqları haqqındakı əsərlər ”Cənub mövzusu” adı ilə Azərbaycan ədəbi qaynaqlarında yer almışdır.



Kitabın tərtibçisi və ön söz müəllifi Nəzakət xnaımın bu mövzuda yazdığı şeirlərin adlarını çəkir və bu şeirlər haqqında mülahizələrini bölüşərək yazır: ”Keçmişdə itirilənlərə bir vətəndaş münasibəti bildirən şair ölkəsinin başına gətirilənləri sadalayır, gələcək nəsillərə uğurlu bir hədəf də göstərir” (səh. 10).

Kitabda toplanan şeirlərin bir qismi də II Qarabağ Müharibəsində qazanılan zəfərlərə, Azərbaycan ordusunun qəhrəmanlığına, bu qəhrəmanlığın ümidləri yenidən canlandırdığını ifadə edən şeirlərdir.

**Kitabda yer alan şəhidlərə həsr olunmuş şeirlərin, müqəddəs Ana mövzusuna həsr olunmuş şeirlərin, Türkiyəyə, onun gözəl şəhərlərinə həsr olunmuş şeirlər də Türkiyə türkcəsi ilə axtarılmışdır, türk oxucusunun qəlbinə yol tapacağına inanırıq. Azərbaycana, onun şairə qızına məhəbbətlə tərtib edilmiş ”Yurd həsrəti” kitabının tərtibçisi və ”Ön söz” yazarı İmdat Avşara təşəkkür edirik.**

# Universitetlərdə bu qaydalar təsdiqləndi

**Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) ilə bağlı yeni qaydalar təsdiqlənib.**



Adalet.az xəbər verir ki, bununla bağlı Elm və Təhsil Nazirliyinin kollegiyası qərar qəbul edib. Qərarla əvvəlki qaydalar ləğv edilib.Elm və Təhsil Nazirliyinin Aparatının Elm və ali təhsil siyasəti şöbəsinə, Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə qərardan irəli gələn vəzifələrin icrasını təmin etmək tapşırılıb.

Qeyd edək ki, təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, təhsil müəssisəsinə bərpa olunma və ya akademik məzuniyyətdən sonra təhsilini davam etdirmə tələbənin əvvəl təhsil aldığı tədris dilinə (tədris dilinin ingilis dilindən ümumi təhsil pilləsində təhsil aldığı tədris dilinə və ya ümumi təhsil pilləsində təhsil aldığı tədris dilinin ingilis dilinə dəyişdirilməsi halları istisna olmaqla) uyğun aparılır.

# AİLƏDƏ VALİDEYNİN ROLU...

**Ev-ailə uşağın göz açdığı mikroməkandır. Və bu məkanda baş verənlər, evin övladının ilk gördüklərini qavrayır, valideynlərin bir-birinə münasibətinə göz qoyur. Heç şübhəsiz ki, dediklərimiz uşağın anlayışlı yaşlarından başlayır.**

Ailədə-evdə ananın aparıcı rol oynaması və uşağın birbaşa anadan asılılığı, övladı anaya bağlayan ilkin şərtlərdəndir. Evdə-ailədə olan hər hansı bir maddi ehtiyacları və yaxud nəyisə həll etmək atanın üzərinə düşdüyündən, ananın ailə üçün istədiklərini dilə gətirərkən, atanın dinlənməsi-susması da uşağı anaya bir az da yaxınlaşdıran səbəblərdəndir...

Körpə ata tərəfindən nə qədər əzizlənsə də, ailədə ananın roluna üstünlük verir və bu zaman təbii olaraq uşağın hələ tam formalaşmamış həyata baxışında güclü-gücsüz meyarı yaranır. Atanın ailədə olan problemləri həll edərkən, olan bəzi gecikdirmələr qadını danışdırdığından, uşaq özünə mütləq şəkildə ananı tərəf seçir.

"Dünya gör-götür dünyasıdır" atalar sözümüz elə birbaşa ailədə böyüyən övladlarımıza aiddir. Bu mənada ailədə olan mühit-atmosfer övladın gozl?rind? kimin-kim olduğunu ortaya qoyur. Uşaq nə qədər təbii olaraq anaya bağlı olsa da, onun saf, təmiz, hələ heç bir iz qalmayan yaddaşında, anasının atasına qarşı olan yerli-yersiz qınamalar?-günahlandırmalar? uşağın psixologiyasında mənfi, elementlərin yaranmasına səbəb olmaqla, ata-ana münasibətlərinin niyə belə olduğu uşaqda mənəvi-psixoloji zədələrin ilk rüşeymlərininin bünövrəsini qoyur...

Evdə-ailə də olan ən kiçik mübahisə belə uşağın uşaq qəlbində təəssüf, nigarançılıq və bəzən də qorxu, təşfiş yaradır. Hələ araya girmək, haraycılıq etməyi bacarmayan uşağın qəlbində ağrının, təəssüfün hissləri onun psixologiyasında mənfi təməlin yaranmasının səbəbidir.

Uşaq baxçaları körpələrin ünsiyyət qurmasının, bir-birinə yanaşmasının, yoldaşlıq etməsinin məktəbidir. Uşaq baxçalarına getməyən, qoyulmayan uşaqlarda, evdə olanları qismən də olsa unutmağa, başı qarışmağa yeri olmadığından zehni cəhətdən formalaşması bir xeyli ləngiyir.

İstər uşaq baxçasına, daha sonralar isə məktəbə gedən uşaqların da, bağçada, məktəbdə uşaqlara fərq qoyulması, uşağın valideyninin imkanlı-imkansız, vəzifəli-vəzifəsiz olmasına görə baxça müəllimlərinin də belə "seçim"ləri, ailədə olan problemlərin fonunda uşağa öz mənfi təsirini göstərir. Təbii ki, istər bağça, istərsə də məktəb müəllimləri, uşaqlara yanaşmada bu incə nüanslara əhəmiyyət verməməkləri, ayrı-seçkilik etməsi (uşağı qarşılayarkən valideynə xoş getməsi üçün, uşağı danışdırarkən, yanaşmasında olan mehir-istilik, bütün uşaqlara şamil edilmədiyindən) bu mənzərəni görən, izləyən uşaqlarda həsəd, qibtə duyğuları oyadır.

Evdə-ailədə ilkin bünövrəsi qoyulan tərbiyənin, baxçada, məktəbdə üst-üstə düşməməsi, formalaşma, nəyin necə olmasını ayırd edən yasaqlarda ikili yanaşmanın zərərli-neqativləri müşahidə olunur.

Valideynin uşağı yeməklə, paltarla təmin etməyi hələ tam valideynlik deyil. Odur ki, ailədə dünya görüşü kifayət qədər geniş olmayan valideynlər (ata, ana) səni saxlayıram (pal-paltar alıram, yedizdirirəm) deyilən ailədə uşağa mənəvi tərəfdən məyusluq gətirir. Əlbəttə, həyata gəlmiş uşağın - insanın ilkin tələbatları valideynlər tərəfindən ödənilməsi ata-ananın mənəvi borcudur.



Belə minnətli qınamalar, uşaqlarda özünə inamı zəiflədir, asılılıqla barışmalı olan uşaqlarda daxili təbii etirazların yaranması baş verir. Çox təbii ki, insan yaratdığını yaşatmalıdır.

Hələ düşüncəsi qətiləşməyən, duyğuları pərakəndə, təzadlı olan, həyatı tam-bütün dolğunluğuyla dərk etməyən körpələr çıxılmazlıq-asılılıq labirintində ölçüb-biçirlər. Valideyn - ata-ana hansı bir haqla, etdiyi borcunu dilə gətirməli, övladı minnətlə yükləməlidir?!

Valideyn dünyaya gətirdiyinin hər əzabına qatlaşmalı, cəmiyyət üçün böyütdüyü-yetişdirdiyi vətəndaşın hələ formalaşmamış düşüncəsinə, edilməsi təbii mənəvi-maddi olan xidmətini başa qaxmalı, üzə vurmamalı, uşağı borclu çıxartmamalıdırlar. Axı, sənə də baxıblar, böyüdüblər. Çox təbii ki, az da olsa, uşağına baxa bilməyən bəzi valideynlər uşaqlarını uşaq evinə, internata verirlər. Deməli, yaranmışı yaşatmaq hüququnu dövlət də qoruyur. Düşüncəsiylə özlərinə haqq qazandıran bəzi valideynlər anlamalıdırlar ki, yiyəsizlikdən itin, pişiyin nəsili kəsilməmişdir. Evi-eşiyi olmayan-dar macalda doğduğunu südlə təmin edən, əzizləyən, diliylə yalayan, ağzında yuvadan-yuvaya daşıyan pişiklərdən nümunə götürülməlidir. Çox zaman heyvanların balalarına qarşı sevgisini-qayğısını adamlarda görməmək heyrət doğurur.

Gəldiyim qənaətə görə, şəxsi fikrimdə, elə bilirəm ki, heyvanlar təbiətə, həmcinslərinə, balalarına yanaşma da daha demokratikdirlər...

...Hər millətin öz mentaliteti olduğu məlumdur. Ancaq övlad sevgisində bənzərsiz millət olmağımız da bir aksiomadır. Ruslar on yeddi - iyirmi yaş arasında (tək bir övladı olsa da) olan övladlarına - necə yaanşmaq barədə heç bir öyüd - göstəriş vermirlər (bu genetikadan gələn bir vərdiş - milli xüsusiyyətdir). Övladlar hərbi xidmətdə olur, qayıdır və yaxud təhsilini bitirib, istədiyi kimi hərəkət edir, ata-anadan ayrılırlar.

Bizim millətin isə xarakterində - təbiətində övladı gözündən uzağa buraxmamaq, 50-60 yaşlı övladına hələ də uşaq kimi baxmaq xüsusiyyətləri var. Mən ailədə həddən ziyadə əzizlənmələrin, ifrat dərəcədə başına dönmələrin əleyhinəyəm. Və müsahibələrimdə bütün belə halların övladı eqoistliyə, özündən razılığa aparan hallara səbəb olur. Nəticədə valideynin zəhmətinin, qayğısının qiymətləndirilməsi mənfi hal alır. Valideynlər istəklərini tam biruzə verdiklərindən övlad sui-istifaə edir - ailədə söz sahibi olmağ çalışır.

**Uzun illərin müşahidəsindən sonra, gəldiyim qənaət budur ki, övladlarımıza olan sevgi-məhəbbətimizin heç olmasa dörddə birini bildirməyək, ehtiyatda saxlayaq ki, övlad eqoitstliyinə - baş gicəllənməsinə, saymazlığına və özünə vurğunluğuna yol verməyək...**

**Südabə Vəliyeva**

# Psixomatika – xəstəliklərinin psixoloji səbəbləri və müalicəsi üsulları

**Yaşadığımız müasir dünyada "psixosomatika" termini hər kəsə yaxşı məlumdur. Ona görə məlumdur ki, biz ictimai həyatımızda onunla tez-tez rastlaşırıq. Tez-tez rastlaşsaq da, təəssüflər olsun ki, az adam onun mahiyyətini, nə olduğunu başa düşür. Yaranmış vəziyyətə görə insanları iki kateqoriyaya bölünür: bəziləri buna ümumiyyətlə inanmır, bəziləri də hər şeydə onu - yəni xəstəliyi günahlandırır və onun bütün fəsadlarının "duyğularla işləyərək" ("Psixoanalizə giriş" Ziqmund Freyd) müalicə oluna biləcəyinə inanır və ümid edirlər.**

Bu fərdi işimizdə, kiçik yanaşmamızda "psixosomatika" terminologiyasını aydınlaşdıracaq, anlayacaq və onun meydana gəlməsinin səbəblərini öyrənəcək və ən başlıcası təzahürünün qarşısını almaq üçün üsul və vasitələri müəyyən etməyə çalışacağıq. Əvvəlcə, ilk addım kimi ən vacib olan"psixosomatika nə deməkdir?" - sualına cavab tapmağa cəhd göstərəcəyik.

Hər şeydən əvvəl onu qeyd edək ki, psixosomatika (yunanca - "ruh" və soma, somatos "bədən") keçən əsrin 50-ci illərində tibbi mühitdə kök salmış tibb və psixologiyada məlum bir istiqamətdir. Psixomatika emosional təcrübələrin, streslərin və psixoloji problemlərin fiziki vəziyyətə təsirini öyrənir və onu geniş şəkildə izah edir, real misallarla əlverişli şəraitdə hərtərəfli aydınlaşdırır. Qeyd edək ki, psixomatikada dağıdıcı bir proses - ailə mübahisəsi, işdəki problemlər, şəxsiyyət böhranı və ya məişət münaqişəsinin hər hansı bir stress mənbəyinə çevrilə biləcəyini güman edə bilərik.

Psixosomatik patologiyaların mövcudluğu yalnız psixoloqlar tərəfindən deyil, həm də müxtəlif ixtisaslı həkimlər tərəfindən də qəbul edilir. Bu fenomenin nə qədər yaygın olduğuna dair mütəxəssis məlumatları fərqlidir. Bəziləri hər üçüncü, bəziləri hər onuncu xəstənin psixomatika ilə həkim yanına gəldiyini söyləyirlər. Görünür ki, psixomatik patalogiyalar ağır stresini yaşadığımız müxtəlif hadisələrin təzahüründən doğan amillərdən qaynaqlanan əlamətlərdir. Yeddi əsas psixosomatizm var: bronxialastma, xoralıkolit, əsas hipertoniya, neyrodermatit, revmatoidartrit, onikibarmaq bağırsaq xorası, hipertiroidizm. Praktikada xəstəliklərin psixosomatikası daha genişdir, bura həm də onkoloji və yoluxucu xəstəliklər, allergiya, burun axması, diş ağrısı kimi müxtəlif ağrı növləri daxildir.İşin qəribəlik doğuran tərəflərindən biri də odur ki, çox nadir hallarda həkim ilk müayinədə xəstənin psixosomatikası olduğunu dərhal müəyyən edir. Tipik olaraq, bu cür xəstəliklər görünüşünə görə somatik xəstəliklərdən fərqlənmir. Məsələn, xəstənin qastritinin helicobacter bakteriyasından və ya bəzi təcrübələrdən qaynaqlandığını dərhal müəyyən etmək heç vaxt mümkün deyil. Çox tez-tez həkimlər xəstənin zehni zədələnməsindən şübhələnmədən mədə-bağırsaq traktını, ürək-damar sistemini, sinir sistemini və ya ruhi vəziyyətini diaqnoz edirlər. Təyin olunmuş dərmanları qəbul etdikdən bir müddət sonra məlum olur ki, onda yan təsirlərdən və sağalma qabiliyyətindən əziyyət çəkən xroniki xəstəlik var. Belə xəstələrin vəziyyətini yüngülləşdirməsi zamanı qarşıya çıxan problemi tamamilə həll etmək üçün psixosomatik xəstəliklərin müalicəsində müxtəlif psixoterapiya növlərindən geniş şəkildə istifadə olunur.

Bronxial astmanın müalicəsində hipnoz (ənənəvi və müasir) NLP üsullarından, yəni neyrolinqvistik proqramlaşdırma (NLP, ingilis dilindən Neyro-linqvistik proqramlaşdırma) və davranış terapiyası, gelştat terapiyası tətbiq olunur. Bəzi hallarda uğurlu müalicə metodu ilə vəziyyətin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq və xəstəliyin residivlərinin qarşısını almaq mümkündür.

**Psoriaz, neyrodermatit və ekzema kimi dəri xəstəliklərinin psixoterapevtik üsullarla müalicəsi müxtəlif dərəcədə effektivdir. Bəzən xəstəliyin sabit remissiyasına nail olmaq və residivlərin qarşısının alınmasını öyrətmək də mümkündür. Bütün bunları öyrənmək və müalicədə tətbiq etmək isə cəmiyyətimizdə daha da sağlam olmasının təmin edən başlıca amillədəndir. Cəmiyyətimizdə sağlam mühit olması isə təkcə həkimlərimizin deyil, bütün insanların vətəndaşlıq borcudur. Deməli, hamımız cəmiyyətimizdə sağlam mühitin formalaşmasına çalışmalıyıq.**

**Lalə RƏCƏBOVA,**
**Azərbaycan Dillər**
**Universiteti**

# Gövhər Həsənzadə - 55

**Bu gün Azərbaycan Respublikasının Əməkdar artisti,tanınmış bəstəkar Gövhər Həsənzadənin 55 illik əlamətdar yubiley günüdür (06.03.1969, Bakı). Gövhər Sudef qızı Həsənzadə Asəf Zeynallı adına Musiqi Texnikumunun (indi AMK nəzdindəki Musiqi Kollecinin) Musiqi nəzəriyyəsi və tarix fakültəsində oxuyub. Orta ixtisas təhsilini 1988-ci ildə fərqlənmə ilə başa vuran Gövhər Həsənzadə, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyasının) Bəstəkarlıq fakültəsinə daxil olub. Xalq artisti, professor Cövdət Hacıyevin sinfində oxuyan Gövhər Həsənzadə, ali təhsilini 1993-cü ildə uğurla bitirib.**

Gövhər Həsənzadə böyük simfonik orkestr üçün poema, simfoniya, fortepiano və orkestr üçün konsert, skripka və orkestr üçün konsert, simli kvartet və kvintet, fortepiano və skripka alətləri üçün prelüd, sonata və bir çox klassik janrda yazılmış 50-yə yaxın əsərin, 300-ə yaxın mahnının, eləcə də "Azərbaycan Respublikası Gənclərinin Himni" (1996), "Olimpiada yolları" Himni (1996), "Sən qalib gələcəksən" (2008), "Sən azərbaycanlısan" (2013) və b. layihələrin müəllifidir.

2008-ci ildə Azərbaycanı ilk dəfə təmsil olunduğu "Avroviziya" Mahnı Müsabiqəsində "Day After Day" mahnısının müəllifi və kompozisiyanın bədii rəhbəri də Gövhər xanım olub. 2013-cü ildə isə "Türkviziya" Mahnı Müsabiqəsində yenə də Azərbaycanı ilk dəfə təmsil edərək "Yaşa" mahnısının müəllifi və kompozisiyanın bədii rəhbəri olaraq, 24 türksoylu ölkə və topluluq arasında birinciliyi ölkəmizə qazandırıb.

O, Azərbaycan musiqiçilərindən başqa qardaş Türkiyə, habelə ABŞ və Avropa musiqiçiləri, musiqi qrupları (Zərrin Özər, Mustafa Ceceli, Nilufər, Pınar Aylin, Kaan Yalçın, Kanun Yıldırım, Zeliha Sunal, Ayla İşıl, Sənəm, Barrbaros, Meyra, Bəngü, "In-Grid", MİŞA, "Studio-A" və b.) ilə də çalışıb.

Bəstəkar elmi araşdırmalarla da məşğuldur. Onun əsas araşdırma mövzusu Azərbaycan professional mahnı janrının yaranmasının tarixi aspektləridir.

Gövhər xanım Gənc Estrada Musiqisi ifaçılarının "Zirvəyə doğru" Ümumrespublika Müsabiqəsinin yaradıcısı və bədii rəhbəri olub. Gövhər Həsənzadə Azərbaycan Prezidentinin 16.05.2006-cı il tarixli Sərəncamı əsasında Əməkdar artist fəxri adına layiq görülüb. O, 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının, 1998-ci ildən Türkiyə Musiqi Əsəri sahibləri Məslək Birliyinin (MESAM-ın), 2019-cu ildən "Azad Azərbaycan" Teleradio və Yayım Şirkətinin Bədii Şurasının üzvü, 2021-ci ildən "Müəllif Hüquqları Uğrunda" İctimai Birliyin sədridir.



1993-cü ildə Respublika Sarayının (indiki Heydər Əliyev Sarayının) bədii rəhbəri və rejissoru, 2001-ci ildə Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzinin (indiki Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzinin) direktoru vəzifəsinə təyin edilən Gövhər Həsənzadə hazırda Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" Mədəniyyət Mərkəzi rəisinin müavini - Mədəniyyət-təminat şöbəsinin rəisi vəzifəsində çalışır.Gövhər xanımı əlamətdar yubileyi ilə bağlı təbrik edir, ona yeni yaradıcılıq uğurları diləyirik!

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Mədəniyyət Komitəsi**



*Kəmalə Abiyeva*

## UNUT

Boynubükük bir atanın
gözlərindən cığır salan
bir ananın saçlarında
dən-dən olan
dərd gördünmü?
O saçlarda dolandınmı?
O gözlərdən həyatına
boylandınmı?
Sən kədəri gördünmü heç?
Bilirsənmi necə olur?
kədər vətən yarasıdı,
kədər torpaq ağrısıdı.
Bəs sevinci gördünmü sən?
Hələ gizlənqaç oynamaq arzusunun
torpaq üçün
Şəhid olmaq arzusunda ölməsində,
atasının daş şəklinə qucaq açan
bir körpənin gülməsində
ağrı içində qıvrılan,
kədərlə qolboyun olan
o sevinci gördünmü sən?
dərdlərini, kədərini yığ üst-üstə
Bax sevincin gözündəki
o qürurlu kədərə bax protez üstə
və
həyatdan sevinc istə.
gör olurmu?
Olmasa da, heç darılma.
Bir də qar soyuqluğunu duymayacaq
uşaqlığın
qartopu oynamaq istəyinin əlindən tut.
bütün dərdlərini unut.

## SORUŞMAYIN

Soruşmayın halımı, soruşmayın necəyəm,
Daha bir az fərqliyəm əvvəlki tək deyiləm
bir az gecə kimiyəm, bir az gündüz kimiyəm.
ömrümü tüsdülədən sönməyən köz kimiyəm.
Baxışları didərgin yurdsuz bir göz kimiyəm.

Daha hər şey fərqlidi, əvvəlki tək deyil ki.
Dəniz də həmin deyil, dərdlidi elə bil ki.
Göylər də həmin deyil, buludlar da həminki
Mən də bir az başqayam, mən də bir az fərqliyəm

Soruşmayın halımı, soruşmayın necəyəm
Sevinməyi tərgidən,
dilimdə çoxdan ölən
Ürəyimə gömülən söz kimiyəm bir az da.
Bəlkələr ovutmayan, təsəllisi olmayan,
ümidi tapılmayan döz kimiyəm bir az da.

## ŞİKAYƏTİM VAR

Daha səbr etməyə səbrim də çatmır
Sənin yaratdığın dünya dağılır,
Nə ağac ağaca oxşayır daha,
Nə yamac yamaca oxşayır daha.
Tikanla çiçəyin fərqi bilinmir.
Suala qarışıb bütün cavablar
Tanrı, mənim sənə şikayətim var.

Əzrail bir idi, dönüb min olub.
Şeytana uyanlar artıb çoxalıb.
Şeytanı daşlayan başlar çoxalıb.
Şeytana uymayan çarəsiz qalıb.
Şeytanla mələyin fərqi bilinmir
Cavaba dönübdü bütün suallar.
Tanrı mənim sənə şikayətim var.

Həyat həyat deyil, tilsim olubdu,
Yaxşılar yamana təslim olubdu.
Sevgi də, nifrət də batıb günaha
Haqq da, həqiqət də batıb günaha
Yalanla gerçəyin fərqi bilinmir
cavabsız qalıbdı bütün suallar.
Tanrı mənim sənə şikayətim var.

## ELƏ DARIXDIM Kİ

Elə darıxdım ki bu yer üzündə
Buludlara dönüb çəkildim göyə.
Göyə də sığmadım səpildim yerə
bəlkə bir damcımı tapasan deyə.
Elə darıxdım ki, elə darıxdım,
Nə yerə, nə göyə sığa bilmirəm.
Elə darıxdım ki, darmadağınam,
Özümü bir yerə yığa bilmirəm.
Günlər ilə döndü, darıxdı zaman
ayların, illərin yaddaşı oldun.
Mən bir dünya qurdum xəyallarımdan
sənsə o dünyanın yad daşı oldun.
Elə darıxdım ki, mən bu şəhərdə
bir küçə, bir qapı olmaq istədim,
dedim o küçədən keçib yenə də
bəlkə o qapını döymək istədin.
Döndün mənim gerçək bir yalanıma,
sənli həqiqəti görmədim ki, heç.
Özümü aldatdım öz yalanımla
əgər günahdısa bu günahdan keç.
Elə darıxdım ki, sənli qəlbimi
darıxan əlimlə sökmək istədim.
Elə darıxdım ki, mən səni deyil,
başqa birisini sevmək istədim...

## ÖLDÜM, XƏBƏRİN OLMADI ALLAH...

Qırıldım, elə qırıldım ki, toz məndən yaxşı,
Rənglərim soldu beləcə, boz məndən yaxşı.
Don vurmuş bənövşə , buz məndən yaxşı,
Öldüm, xəbərin olmadı Allah...

Dualar davaya qarışdı , qaldımı deyilməyən,
Cəzamı, qəzamı varımdı çəkilməyən ?!
Mən tanrının bəd bəndəsi,
bətindən sevilməyən!
Öldüm, xəbərin olamdı Allah...!

## BİR UŞAQ BOYLANDI XATİRƏLƏRDƏN

Qayıtdım yenə də uşaqlığıma,
Xəyalım o ötən illərə döndü
Babamın kənd evi düşdü yadıma
Könlümdə gör neçə xatirə dindi.

Yadıma düşdükcə ötən günlərim
Özüm də kövrəldim, xatirələr də.
Yadıma salaraq ötən günləri
Bir uşaq boylandı xatirələrdən

Yasəmən ağacı, zanbaq kolları,
Həyəti bəzəyən qamaqçiçəyi.
O kəndin palçıqlı, daşlı yolları
Sandım ki, hələ də məni gözləyir.

Getdim mən o kəndə, getdim yenə də,
Necə doğma idi cığır da, iz də
Bir həsrət asıldı kipriklərimdən,
Sanki kövrəlmişdi kənd evimiz də.

Bir gəlini gördüm bulaq başında,
Gülümsər gözləri necə tanışdı.
Sandım uşaqlığım durub qarşımda
O gözlər bir anda nələr danışdı...

Nənəmdən xəlvətcə kal meyvələri
Necə dərməyimiz yadıma düşdü.
Yığıb donumuzun ətəklərinə
Gizli yeməyimiz yadıma düşdü.

Gəzərdik bağları tutub əl-ələ,
Güllərin ətrini birgə duyardıq.
Hərdən xınagülü yığıb həvəslə
Təzə gəlinlərtək xına qoyardıq.

Unudub illəri, özüm özümü
Elə uşaq olmaq istədim ki, mən.
Şirin bir duyğuyla yumdum gözümü
Gizlənqaç oynamaq keçdi könlümdən.

Yadıma düşdükcə ötən günlərim,
Özüm də kövrəldim, xatirələr də.
Yadıma salaraq ötən günləri
Bir uşaq boylandı xatirələrdən.

## QARĞIŞ

İstəyirəm
Yuxunu tapmayasan.
gecəni gəzə-gəzə qalasan.
Yatmayasan...
səssizcə ağlayasan,
harayını göz yaşında boğasan
İstəyirəm özünü gecədən atasan,
küçəyə atasan,
Gedib o tənha skamyada oturasan...
tökəsən xatirələri qarşına
peşiman olasan
və mən çıxam qarşına...

## BAKIM

Səhərlər Xəzərdə güzgülənərək,
Qızılı saçların darayır Günəş.
Sevgidən alışıb yanan ürək tək
Bakımla göz-gözə dayanır Günəş.

Doymayır hüsnündən hər gün görsə də
Mənimtək Bakıma olubdu vurğun.
Bəlkə də qəlbinin Günəş Xəzərdə
Səma həsrətini ovudur hər gün...

Şirin yuxusundan Günəş hər səhər
Odlu öpüşlərlə oyadar onu.
Bakım min naz ilə durub geyinər
Onun bəxş etdiyi qızılı donu.

Təbəssüm səpərək nurlu üzündən
Qızılı saçların darayır Günəş.
Bəlkə də Bakımın mavi gözündə
Sevgisinə cavab arayır Günəş...

# "Ailə səadəti" kitabı haqqında qeydlər

**Portret**

**İmzası oxuculara yaxşı tanış olan, yazıçı, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü Zakir Bağırın ilk hekayəsi "Elan", yazıçı, dramaturq Firudin Ağayevin zəmanəti ilə "Göyərçin" jurnalında dərc olunub. Müəllifin hekayələri "Kaspi", "Ədəbiyyat və İncəsənət", "Ədalət", "Azərbaycan Gəncləri", "Bakı", "Yeni Azərbaycan" qəzetlərində, "Ulduz", "Söz", "Azərbaycan", "Literaturnıy Azerbaydjan", "Şəfəq", "Məşək", "Kirpi" jurnallarında çap olunub. Yazıçının 36 hekayəsi və 1 povesti rus dilinə tərcümə edilib. "Mələk cildli nankorlar" dramatic povesti və bir neçə hekayəsi türk dilinə tərcümə olunub. Povest mükafata layiq görülüb. "Dəmirağacı" hekayəsi dərsliyə salınıb. "Molodejnaya Azerbaydjan" qəzetinin keçirdiyi "Gülüş otağı" müsabiqəsində 3 hekayəsi qalib olub.**

"Ata yadigarı" adlı ilk kitabı filologiya elmləri doktoru, professor Akif Hüseynovun rəyi ilə "Gənclik" nəşriyyatında nəşr olunub. Bu kitaba 1 povest, 10 hekayə daxil edilib. Yazıçının ikinci kitabı "Hədiyyə" Əməkdar incəsənət xadimi, yazıçı Vidadi Babalılın rəyi ilə "Yazıçı" nəşriyyatında nəşr edilib. Kitabda 3 povest və 3 hekayə salınıb. Müəllifin üçüncü kitabı "Şənlik xalq mahnı və rəqs ansambli" adlanır. Yazıçının dördüncü kitabı "Mənim atasız dünyam" adlanır. İki həcmli bu kitaba beş hissəli "Mənim atasız dünyam" romanı, 5 povesti, 37 hekayəsi daxildir.

Zakir Bağır həm də dramaturqdur, onun 3 pyesi Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulub. "Sehirli üzük" və "Novruz" pyeslərinin quruluşçu rejissoru, əməkdar artist Təvəkkül Əliyev, "Cırtdanın yeni sərgüzəştləri" pyesinin quruluşçu rejissoru isə Adil Zeynalov olub.

"Ailə səadəti" sayca yazıçının beşinci kitabıdır. Kitaba 5 povest, 19 hekayə, 3 pyes daxildir. Kitab "Borc" povesti ilə başlanır. Həyatda cürbəcür borclar olur. Bəzən bir vəzifə və ya ixtiyar sahibi, qohum və tanışlarını layiq olmadıqları bir işə təyin etməyi özünə borc bilir. Onların işə rəhbərliyi nəticəsində çoxları nahaq bəlaya düçar olurlar. Gənc aspirant Zahir də belə bəlaların qurbanı olub. Həyatda həmişə yaxşı adamlar olur. Onlardan biri də Zahirin elmi rəhbəri, professor Xələf Xələfzadədir. O, bütün maneələrə baxmayaraq aspirant Zahirə kömək etməyi özünə borc bilir.

"Ailə səadəti" povesti ailə-məişət məsələlərinə həsr olunub. Anasını itirən Samirə Aydınlı uşaq evində yaşayır. Mahirin anası oğlunu Samirə Aydınlı ilə ünsiyyət saxlamasından ehtiyat edir. Oğlunu sevmədiyi bu qızla evlən-




dirir. Təzə gəlin ailənin ehtimatını qoruya bilmir. Samirə Bakıda, Mahir isə Ukraynada ali məktəbə daxil olurlar. Təsadüf nəticəsində Mahir universitetin yataqxanasının komendantı Kərim əminin otağında Samirəyə oxşayan yaşlı bir qadının Kərim əmi ilə çəkdirdiyi şəkli görür. Sən demə, bu qadın Samirənin anası, Kərim əmi isə atası idi. Mahir Kərim əmini Samirə ilə görüşdürür. Avtomobil qəzası zamanı ağır yaralanmış Mahirin atası Kərim əmini tanıyır. Onlar vaxtı ilə bir yerdə işləyiblər. Mahirin anası hərəkətlərindən peşman olur, Mahiri Kərim əmiyə tapşırır.

Kitabdakı "Düyünlər" povesti jurnalistlərin həyatından bəhs edir. Yazıçı əsəri 23 il qəzet redaktoru işləmiş şair Şəkər Aslanın xatirəsinə həsr edib.

"Mələk cildli nankorlar" povesti türk sərkərdəsi Əhməd Camal Paşanın Lənkərandakı 1918-ci il hadisələrində göstərdiyi igidlikdən bəhs olunur. Real hadisələr əsasında qələmə alınmış bu povest bir neçə hekayələrlə türk dilində çap edilib. Povest mükafata layiq görülüb.

"Qara eynəkli qadın" povestində bir qadının acı taleyindən bəhs olunub. Kitaba daxil edilmiş "Məmmədhəsən əminin eşşəyi", "Dövlət", "Qara ləkə", "Hamilə qız", "Bəylik kostyumu" və başqa hekayələr yumir janrında yazılıb. Hekayələrin dili sadə, mövzuları orjinaldır.

Kitaba 3 pyes daxildir: "Sehirli üzük", "Novruz", "Nə çıxar yamanlıqdan".

Ədəbiyyata kiçik yumoristik hekayələrlə gələn müəllifin yaradıcılığı haqqında filologiya elmləri doktorları Kamran Kazımov, Fazil Rəhmənzadə, şair Nüsrət Kəsəmənli, filologiya elmləri namizədi, yazıçı Yaşar Rzayev, Xalq şairi Sabir Rüstəmxanlı, yazıçılardan Salam Qədirzadə, Seyfəddin Dağlı, Firudin Ağayev və başqaları müsbət fikir söyləyiblər.

Şair İsa İsmayılzadə "Bakı" axşam qəzetində dərc etdiyi "Şeir yazmağa nə var" məqaləsində Zakir Bağırın "Toy dəvətnaməsi" hekayəsini daha uğurlu sayıb. Əməkdar müəllim Mirhaşım Talışlı "Narahat ürəyin hədiyyəsi", əməkdar incəsənət xadimi şair Tofiq Mütəllimov "Hədiyyə", əməkdar journalist Flora Xəlilzadə "İstedad, yoxsa, boş vaxt?", filologiya elmlər namizədi, dosent Əlirza Əliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, teatrşünas Vidadi Qafarlı, tənqidçi Əzim Göyəzənli və başqaları yazıçının əsərlərinə yüksək qiymət veriblər.

**Kitabın redaktorları: Cavad Zeynal, yazıçı**

**Ağamir Cavad, şair**

**Rəyçilər: Rafiq Yusifoğlu - filologiya elmləri doktoru, Sumqayıt Dövlət Universitetinin professoru, "Göyərçin" jurnalının baş redaktoru, ədəbiyyatşünas, şair, yazıçı, tərcüməçi**

**Əbülfət Mədətoğlu - "Ədalət" qəzetinin baş redaktoru müavini, əməkdar jurnalist, şair, publisist.**

**Kamran Kazımov - Filologiya elmləri doktoru, Ədəbiyyatşünas, Vətən müharibəsi şəhidi Vüsal Kazımovun atası.**

# Mən qürbətdə yaşadım, Vətən mənim içimdə

Xəqani Qayıblının 60 illik yubileyinə Xalqımızın örnək övladlarından biri də xaricdə yaşayan azsaylı yaradıcı ziyalılarımızdan olan şair, tərcüməçi, publisist, ictimai xadim, Dünya Azərbaycanlıları Konqresinin İdarə Heyətinin katibi, Estoniya-Azərbaycan cəmiyyətinin sədri Xəqani Qayıblıdır.

Qısa arayış: Xəqani Qayıblı 1964-ci il martın 1-də Gürcüstanın Qaraçöp mahalının Ləmbəli kəndində anadan olub. Şəcərəsi Qazax rayonunun Salahlı kəndindən, məşhur Qayıbovlar nəslindəndir. Səkkizillik məktəbi doğma kəndində, orta ixtisas məktəbini Azərbaycanın Qazax rayonunda bitirib. 1989-cu ildə Azərbaycan Yazıçılar Birliyi tərəfindən Moskvaya Qorki adına Ədəbiyyat İnstitutuna, həmin ilin sonunda Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi tərəfindən Estoniyaya, Tartu Universitetinə göndərilib. 400 illik tarixi olan həmin universiteti eston dilində bitirən ilk azərbaycanlı tələbədir. 1997-ci ildən Estoniya prezidentinin şəxsi tərcüməçisi, 1998-ci ildən Tartu Universitetinin professoru, universitetin Türk Dili Mərkəzinin müdiridir. 2000-ci ildə Estoniya hökuməti tərəfindən Türkiyə və Estoniya arasında diplomatik və mədəni əlaqələrin inkişafında göstərdiyi xüsusi xidmətlərinə görə fəxri Estoniya vətəndaşlığı alan ilk türkdür. Əsərləri eston, gürcü, rus, latış, alman dillərinə və tatar, qazax, qaqauz, Türkiyə türkcəsinə çevrilib. Müxtəlif illərdə 30-dan çox ictimai-siyasi, tarixi, elmi-mədəni məqalənin, 4 kitab və 1 monoqrafiyanın müəllifidir.

Xaricdə yaşamaq, ictimai məzmun kəsb edən vəzifədə çalışaraq milləti ləyaqət və şərəflə təmsil etmək hər kəsə müyəssər olmur. Belə mövqedə olanlar əslində yaşadığı və çalışdığı ölkədə bir xalq və ya millət haqqında təsəvvür formalaşdırır. Belə bir yanaşma həmin şəxs üçün həm şərəflidir, həm də məsuliyyətli. Şeyx Nizami Gəncəvinin məşhur beytini xatırladım:

*Xidmət etmək işidir kişilikdən nişanə,*
*Xalqına xidmət etmək bir şərəfdir insana.*

Xəqani Qayıblı artıq 25 ildən çoxdur ki, yaşadığı Estoniyada təmsil etdiyi xalqa şərəf gətirərək, həm eston xalqına, həm də əsl kişi kimi Azərbaycan Xalqına ləyaqətlə xidmət edir. Müsahibələrinin birində deyir: " Məncə, Vətəndən kənarda yaşayan hər bir insan, özü istəsə də, istəməsə də, mənsub olduğu millətin təmsilçisinə, bir anlamda elçisinə çevrilir.... Çətindi, amma şərəflidi, çünki millətinə xidmət edirsən..."

Təbii ki, Xəqani Qayıblının çoxşaxəli fəaliyyətinin hər bir sahəsi əslində bir araşdırma mövzusudur. Lakin mən bu yazıda Xəqani Qayıblını oxucuya daha çox şair kimi təqdim etmək istəyirəm.

Mətbuat və sosial şəbəkələr vasitəsilə şeirləri ilə tanış olsam da, Xəqani Qayıblı ilə şəxsən tanış deyildik. Onunla ilk görüşümüz və tanışlığımız 29 oktyabr 2016-cı ilə təsadüf edir. Görüşümüzə görkəmli ədəbiyyatşünas alim, professor Rüstəm Kamal vəsilə olmuşdu. Həmin gün Xəqani müəllim mənə həmin görüşümüzdən xatirə olaraq öz aftoqrafı ilə təzə nəşr olunmuş "Yenə canım söz gəzir"şeirlər kitabını hədiyyə etmişdi. Kitabı ara-sıra varaqlayıb yaradıcılığı ilə tanış olduqca bu qarayanız, istiqanlı, vətənpərvər və dostcanlı, bir az da ərköyün bu oğlanı bir şair kimi getdikcə daha yaxından tanımağa başlayırdım... Və Çox istəyirdim ki, onunla daha yaxın ünsiyyətdə olaraq, onun iç dünyası ilə daha yaxından tanış olum. Sonrakı görüşlərimiz ədəbi-bədii tədbirlər və dost toylarındakı görüşlərlə məhdudlaşdığı üçün onunla ətraflı söhbət etmək imkanı yaranmırdı. Sonuncu görüşümüz ötən ilin sonunda ümumi dostumuz, görkəmli şair və gözəl insan İbrahim İlyaslının övladının toy məclisində baş tutdu. Xəqani bəy də uzaq yolu yaxın edərək Estoniyadan toya təşrif buyurmuşdu.

Əsasən yaradıcı ziyalıların iştirak etdiyi toy məclisində Xəqani Qayıblını demək olar ki, hər masanın ətrafında görmək olurdu. Çox sevinir, özünü sanki öz övladının toyunda iştirak edirmiş kimi aparır, dost sevincini bölüşmək nümunəsi nümayiş etdirirdi. Sanki iştirak etmədiyi dost toylarının da əvəzini çıxırdı. Sonralar başa düşdüm ki, Xəqani Qayıblı nəyə görə

*"Dost toyundan qayıdır" indi dostlar hardasa,*
*Tutub hönkürtü məni, tutub hıçqırıq məni...*
*Ömrüm qürbət ellərdə təklikdən batıb yasa,*
*Daha dostlar neyləsin bu qəlbi qırıq məni!*

- bəndini niyə belə yanıqlı yazıbmış.

Arada "gəmi bizim də limana yan aldı".

Çox səmimi və mehriban görüşdük. Vətəndən, doğma insanlardan, adət ənənələrimizdən, toylarımızadan, əziz insanlarla ünsiyyətlərdən ötrü çox darıxdığını, bu təmasların həsrətini çəkiyini bildirdi. Söhbətimiz xeyli çəksə də, yenə də sənətdən, şeirdən, yaradıcılıqdan söhbət etməyə macal olmadı.

Həmin görüşdən xeyli vaxt keçir. Düşündüm ki, belə getsə mənim onula ətraflı söhbət etmək imkanım olmayacaq və qərara gəldim ki, şairlə ən yaxşı ünsiyyət onun şeirləridir.

Budur Xəqani Qayıblının "Yenə canım söz gəzir" kitabı ilə üz-üzəyəm. Varaqlar bir-bir çevrildikcə Böyük Füzulinin 600 il bundan əvvəl bəşəriyyətə ünvanladığı, lakin bu günə qədər də cavabı axtarılan sualı yada düşür:

"Bu nə sirrdir ki, olur hər ləhzə yoxdan var söz"?

Təbii ki, əslində söz hələ təklikdə elə bir məna kəsb eləmir, hikmət deyil. Sözün qüdrəti o zaman ali məqama çatır ki, özü ilə qoşa işlənir, yerində oturur, söz sərraflarının qüdrəti sayəsində öz məqamına yüksəlir. Elə ona görə də Böyük Tanrının verdiyi qabiliyyətlə insanın yaratdığı, ifadə etdiy sözdən güclü heç nə ola bilməz. Söz fövqəl gücə malikdir. Bir hikmətli söz, bir mənalı ifadə, bir bənd şeir insanı yaşada bilər, xəstəni sağalda bilər, insanın həyatını dəyişə bilər. Tanrı sözünün qüdrətini öz ali məqamına çatdırmaq üçün, öz bəndələrinin içərisindən bir qisminə qeyri-adi istedad verərək sözləri nəzmlə, ritmlə, ahənglə, qafiyə formasında işlətmək qabiliyyəti vermişdir ki, belə insanlara da söz adamı, şair, şeir yazan demişlər. Mənim qənaətimcə, şeir gözəgörünməz fövqəl bir varlıq tərəfindən, elə o varlığın vergi, istedad bəxş etdiyi insanlara-şairlərə diqtə olunan bir möcüzə, şairlik isə bu diqtə əsasında insanın ən ülvi hisslərini, duyğularını ifadə və təqdimetmə qabiliyyətidir. Xəqani Qayıblı da bir şair kimi, Mövlanə Füzulinin həmin sualına cavab tapmağa çalışır. Kitaba "Önsöz yerinə" yazdığı bir səhfəlik yazısında deyir: "Hər kəsin imrəndiyi bir varlıq var, mənimki Sözdür, Sözünkü mənəmmi, bunu Söz bilər." Xəqani Qayıblı fikirlərini davam edərək yazır: "İstədiyi vaxt şeir yazmağı bacaranlardan üzürxahlıq eyləyib keçirəm əsas mətləbə...İstəyin başqa şey, ŞEİR yazmağın isə bambaşqa şey olduğunu, məncə, dirsəyi dizdə, canı sözdə olanlar daha gözəl bilir... Bu məqamlarda yazılan şeirin Tanrıdan Peyğəmbərlərə gələn vəhy kimi qutsal olduğu da bilinən bir gerçəklik."

***Sözü dürr, varlığı dürr***
***Haqqa ərənlər bilir...***
***Şeir vəhy kimi gəlir,***
***Hisslə Sözün arası.***

Xəqani Qayıblının şeirləri onun kitabına "uğurlu yol"yazmış mərhum şairimiz İsa İsmayılzadənin dediyi kimi bir nəfəsə yazılmış şeirlərdir. Göydən vəhy kimi gəlir:

***Zinrik -zülmət gecənin***
***Sübhü-Danı özgədir!***
***Sabaha sağ çıxmağa***
***Yenə canım söz gəzir.***
***Sübhün şəfəqlərində***
***Yenə itib azacam...***
***...Sükut saçını yolur-***
***Yenə şeir yazacam...***

Nə qədər sözdən qaçmağa çalışsa da şair olmaq Xəqani Qayıblının tale qisməti imiş, ona elə şeirləri kimi bir vəhy də gəlmişdi ki, o şair olacaq:

***Bir uşaq can atır şair görməyə...***
***Can atır əl çatmaz arzusu kimi.***
***Bir şair Ağatlı oğlana dönüb***
***Keçir həyatından bir yuxu kimi...***
***Başıma gələnlər gəlməz ağlıma***
***Başıma gələnlər qəfildən gələr.***
***Ağlıma gələnlər gəlsə başıma***
***Səsim yüz obadan, yüz eldən gələr...***
***...Mən, vallah, nə vaxtsa şair olacam.***
***Ağlıma gələnlər başıma gəlsə!***

Yazılarımın birində bir dəfə yazmışdım. Şeir də, uşaq ana bətnindən doğulan kimi doğulur. Ağrı ilə, əzabla. Belə qənaət etmək olar ki, şeir Tanrının şairlər vasitəsilə öz bəndələrinə ünvanladığı pıçıltılarıdualarıdır və ancaq şairlərin ifadə edə bildiyi hikmətdir... Şeir həm də qeyri-adi bir aləmdir. Sən onun orbitinə düşdünsə, bu orbitdən çıxa bilməyəcəksən. Çünki onun xislətində elə bir cazibə qüvvəsi var ki, səni özünə çəkməkdə davam edəcək". Xəqani Qayıblı "Sözün içini-dışını-YÜKÜNÜ görəndən sonra şeirdən uzaq durmağa çallışsa da, " bu vəhylər gələndə o vədinə xilaf çıxmaqdan başqa əlacı qalmır. Bax onda Xəqani Qayıblı şeiri kağıza köçürmək yox, "quş kimi bir ağacın budağına qonub ötmək, dünyanın özündən boyat bir bayatı kimi üzünü Dan Yerinə tutub şeir demək, tənha bir ağaca, bomboş səhraya, yetim bir cocuğun gözlərinə baxıb" əzbər oxumaq istəyir

***Bu dəyirman daşına bax,***
***Bir gün öz dəni yandırar!***
***Mən dolannam söz başına,***
***Neylim, söz məni yandırar!***

Və sözə bənd olandan "Söz" onun başına "min oyun açsa "da, elə huşu tərpənəndən, ağlı kəsəndən Tanrının söz kəməndinə düşüb və bu kəmənddən qopa bilmir:

***Adam var söz ondan baş alıb qaçıb,***
***Söz mənim yağımdır, mən əriyən şam.***
***Söz mənim başıma min oyun açıb***
***Mən sözün başına ip salmamışam.***
***Bəlkə də sözə yad, özgə "mən"im var***
***Di gəl ki, söz qoymaz özgə "mən" dinə.***
***Huşum tərpənəndən, ağlım kəsəndən***
***Düşmüşəm Tanrının söz kəməndinə.***

Xəqaninin müşühidə etdiyim bir xüsusiyyətini də qabartmaq istəyirəm. Mən ədəbi-bədii tədbirlərdə dəfələrlə müşahidə etmişəm ki, Xəqani şeiri şeir xatirinə söyləmir.

O şeiri məqamında , həm də tədbirin ahənginə uyğun olaraq soyləyir. Şeirlərini söyləyəndə, şeirlə yaşayır, göylə əlləşir, vəcd məqamına yüksəlir, intonasiyasındakı ton dinləyicini də ovsunlayır. Onun səsində şeir bütünlüklə oxucuya sirayət edir.

Şeirlərini oxuduqca Xəqaninin həmin aləminə düşürsən, səsini eşidir, nəfəsini duyursan. Şeirlərinin energetikası var və oxuduqca onu hiss edirsən. Bir misal çəkəcəm- Etiraf şeirinin bir bəndini. Oxuyub əmin olacaqsınız:

***Özümü özümdən ayılda bilsəm,***
***Birdə o yerlərə qayıda bilsəm,***
***Ata evimizin daşından öpüb,***
***Anamın gözünün yaşından öpüb***
***Bir yaşın içində qardaşım oğlu,***
***Dünyaminin qırxıq başından öpüb,***
***Üzümü torpağa sürtüb qalacam...***
***Gəldim...***

Bu sətirlər səni düşünməyə vadar edir, ruhunu yerindən oynadır, səni uzaqlara düyaya gözünü açdığın yurda, məkana, ata evinə, doğma insanların yanına aparır, kövrək xatirələr oyadır.

Qürbətdə yaşamaq Xəqani Qayıblının alın yazısı imiş. Bir vaxtlar Borçalı dağlarında yeniyetmə çağlarını yaşayan Xəqani Qayıblı heç ağlına da gəlməzdi ki, zaman gələcək ömrünün əsas hissəsini qurbətdə yaşayacaq və ən yanıqlı "qərib şeirlər" yazacaq. "Qərib şeirlər"mövzusu Xəqani Qayıblı yaradıcılıından qırmızı xətt kimi keçir. Əslində bu şeirlər taleyin qismətilə müxtəlif zamanlarda və şəraitdə qərib ölkələrə səpələnmiş, qərib şəhərlərdə yaşayan, qərib insanların qu nəğməsidir

***... Ömrümün yaddaş güzgüsü çilik-çilik***
***Durmuşuq üzbəsurat,***
***Bir mənəm, bir də***
***Beli qırılmış qəriblik...***

Bu sətirlərin arxasında taleyini qərib ölkələrə bağlamış qərib insanların iztirabları, kədəri gizlənib. Lakin qəribliklə Vətən məhəbbəti, Vətən sevgisi arasındı üzvi bir bağlılıq, bir ilahi sevgi var. Mən düşünürəm ki, vətən sevgisini ən çox yaşayanlar da vətəndən ayrı düşənlər, vətəndən uzaqda vətən həsrətilə yaşayanlar daha yaxşı bilir. Bu insanlar təkcə Vətən həsrətilə yaşamır, həm də vətəni içində yaşadırlar:

***Güc almaq üçün, dizimi söykəməyə,***
***Lap bələ son anda, rahatca uyumaq üçün***
***Üzümü söykəməyə,***
***Bir əlçim yer tapılmadı bu vətənin içində...***
***... Mən qürbətdə yaşadım,***
***vətən mənim içimdə.***

Ürkək ceyran kim çıxdı qarşıma, Dünyamı təzədən yaradan gözəl. Yaş deyir: "Xar olma ellər içində!", Ruh deyir: "Yaşını yara dan"!, gözəl!

***Gəl sən əsirgəmə yara zülfünü,***
***Titrəyən əllərim sara zülfünü!***
***Meh vurub oynada qara zülfünü...***
***...Nə gözəl görünür yara Dan gözəl!-***

deyərək ənənəvi klassik aşıq poeziyasına söykənən, Aşıq Ələsgərsayaağı aşiqanə şeirlər, qoşmalar, təcnislər yazan, bu şeirləri ilə öz kökü üzərində möhkəm dayanaraq, bənzərsiz, təkrarsız, yalnız onun özünə məxsus olan poeziyasını yaradan və elə bu bənzərsiz şeirləri ilə də oxucularının qəlbini fəth edən Xəqani Qayıblı özünün dediyi kimi sətir-sətir, bəndbənd, ürəklərə köçür:

***Bir karvana qoşulmuşam bələdçim-ürək***
***Hələ neçə cəngəlliklər keçəsiyəm mən.***
***Hələ neçə könülləri oxşayam gərək,***
***Neçə-neçə ürəklərə köçəsiyəm mən...***

**Və indi Xəqani Qayıblının heç özünün də xəbəri yoxdur ki, O, uzaq Estoniyada yaşamaqla bərabər həm də burda, Azərbaycanda (həm də təkcə Azərbaycanda yox) doğmalığı, şirinliyi, istiliyi və ən əsası şeirləri ilə ürəklərə köçmüşdür. Bu "köç" hələ uzun zaman davam edəcək və Xəqani Qayıblının şeirləri hələ "neçə-neçə" ürəkləri fəth edəcəkdir.**

**Ramiz Göyüş**



## *"Seriallar sizi valideyin olmaqdan qorxudur"*



**"Müasir seriallar sizi aldadır. Bunu seriallardan xəbərsiz biri kimi yox, elə izləyən biri kimi qeyd edirəm. Psixoloji mövzularda həddən artıq zərər törədəcək məlumatlar izləyici kütləyə ötürülür. Normalda psixoloq seansda səbəbləri bu həddə açıqlamamalıdır".**

Adalet.az xəbər verir ki, psixoloq Ülviyyə Kərim serialların uşaqların və valideynlərin psixologiyasına mənfi və müsbət tərəflərindən danışıb.

"Seriallara bu həddə qapılıb valideynlərinizə kinlə baxmayın. Əgər sən sağalmaq istəyirsənsə bunu travmatizə olacağın serialları izləyərək etməməlisən. Bu duyğu səni ancaq valideyin olmaqdan qorxuda bilər, hətta özünədəyər sehrinə düşüb ailəni də dağıda bilərsən, hətta xəyanət də edərsən, nədir, nədir kişi sənə gül almır, ya səni sevirəm sözünü demir. Həyat yoldaşınla münasibət düzəltmənin də yolları var, bu isə yol deyil. Yolsuzluqdur.

Bunu çox yeni fərq etmişəm və etdiyim gündən də izləyənləri mümkün həddə xəbərdar edirəm. Məlumdur, insan sayının artımında, ailə dəyərlərinin qorunmasında müsəlman ölkələri daha öndədir. Bunu bu seriallarla zədələməyi bacarıblar. Mən xarici film və seriallarda bu həddə travmalardan danışan, "ana və ataların yanlış böyütdüyü yanlız uşaqlar" altbaşlıqlarına heç rast gəlmirəm, psixoloji filmlər var ancaq hər şeyi yığıb ananın atanın üzərinə qoymurlar. Nədirsə bu sadəcə türklərdə baş alıb gedir. Təkrarlayıram: bu seriallardan sonra boşanmalar, childfree (uşaqsız ailə) halları qat-qat artdı. Hələ üstəlik dili qısa, gözü kölgəli valideynlər ortaya çıxdı. Yenə təkrar edirəm: insan öz psixologiyasını öyrənməlidir, amma bu pərdəarxası qaranlıq olan seriallar vasitəsiylə deyil kitablar oxumaqla, elmi artırmaqla olmalıdır".

Hə, deyə bilərsiz ki, bəs valideyinlərin vurduqları travmalar nə olsun? Yalan deyil ki? Bəli, deyil. Amma bunu bu şəkildə, valideyinlərdən diksinərək öyrənməməlisiniz. Travmalar mövzusunda da yazacam bir dəfə. Bunu da həddən artıq şişirdirlər. Məqsəd: sizi ailə olmaqdan və həmçinin öz köklərinizdən qoparmaqdır. Kökləri olmayan ağacın meyvəsi, inkişafı, yeni qol budağı da olmayacaq.

**Emin**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 9 (2383) 8 mart 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



# DÜNYADA SÖZDƏN GÜCLÜ NƏ VAR?

**Çoxları elə fikirləşir ki, ən müasir silahlar istehsal etməklə dünyanı fəth edəcəklər. Düzdü, müəyyən mənada hansısa güclü dövlət başqa bir ölkəni, başqa bir dövləti işğal etməyi bacarır. Amma onun yerli əhalisi həmişə işğalçılara nifrət hissiylə yanaşı və onlara düşman gözü ilə baxırlar. Yəni bir ölkəni işğal etmək dünyanı fəth etmək demək deyil. Dünyanı isə sözlə, insanların qəlbini ələ alan duyğularla, azadlıqla, fikirlə, düşüncə, pülrealizmlə fəth etmək mümkündür. Təəsüf ki, bunu heç də hər dövlət, hər xalq anlamır, başa düşmür.**



Ona görə də, bütün dövlətlər bu gün ən yaxşı inkişaf və tərəqqi yolunu demokratiya yüksəlişdə və dirçəlişdə görürlər. O ölkədə ki, demokratiya var, söz və mətbuat azadlığına önəm verilir. Təbii ki, həmin məmləkətdə də həmişə insan hüquqlarına və azadlıqlarına hörmətlə yanaşılır. Bu isə o deməkdir ki, dünyanı idarə etməyin ən yaxşı və çıxış yolu demokratyadan keçir. Demokratiya olmayan məmləkətdə heç vaxt xeyir-bərəkət də olmur. Ona görə də, bu xətti tutmaq, bu xəttlə getmək hər bir ölkənin əsas inkişaf yoludur.

Azərbaycan da müstəqillik dövrünə qədəm qoyandan sonra özünün yeni bir sistemini, yeni bir quruluşunu yaratdı. Başqa sözlə demiş olsaq, müstəqil dövlət o deməkdir ki, orada insan hüquq və azadlıqları müdafiə olunur, qorunur, əhali həmin cəmiyyətdə özünü daha xoşbəxt və rahat hiss edir. Eyni zamanda ölkə də söz, fikir və düşüncə azadlığı formalaşır. Bu ideyaların Azərbaycanda gerçəkləşməsi və inkişafı üçün müstəqillik dövründə daha münbit bir şərait yaradıldı. Xüsusən də 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra bu mühit daha sağlam və daha şəffaf oldu. Çünki heç kimə sirr deyil ki, Sovet dönəmindən qalmış senzura ənənəsi hələ bir müddət yaşamaqda idi, xüsusən köhnə düşüncəli və köhnə fikirli vəzifə sahibləri hər hansı mətbuat orqanlarında tənqid olunarkən və müxtəlif fikirlərin səsləndiyini görərkən çox qıcıqlanırdılar. Hətta həmin dövrdə bir neçə mətbuat orqanı məhkəməyə verilmiş və onlar ya yüksək cərimə olunmuş, ya da bağlanmışdır. Bu isə o deməkdir ki, müstəqil və demokratik ölkədə insan hüquqlarına hörmətlə yanaşılmır, söz və mətbuat azadlığına qısqanclıq göstərilirdi. Bütün bu neqativ hallar Ümummilli liderin hakimiyyətə gəlişindən sonra zaman-zaman aradan qaldırılmağa başladı. Hadisələr göstərirdi ki, Azərbaycan demokratik və sivil yol tutub və bu demokratik sivil yolda hər cür çətinliklər ortaya çıxırdı. Onu isə bayaq dediyimiz kimi, aradan qaldırmaq üçün ölkədə şəffaf mühit yardılmış, söz və mətbuat azadlığına "yaşıl işıq" yandırılmışdır.

Heç kimə sirr deyil ki, 90-cı illərin əvvəllərində əksər çap mətbuatının "Azərbaycan" Nəşriyyatının borcları var idi. Bu borclara görə bəzən bəhanə edib bəzi qəzetlərin çapını ləngidir, ya da heç çap etmirdilər. Aydındır ki, bu cür vəziyyətdə çap mətbuatı çox çətin anlar yaşayırdı. Ulu Öndər Heydər Əliyev bu məsələləri qısa zaman kəsiyində həllinə nail oldu və qəzetlərin nəşriyyata olan borclarını sildirdi. Bu isə o demək idi ki, dövlət səviyyəsində Azərbaycanda demokratiyanın söz, mətbuat azadlığının və fikir düşüncə sərbəstliyinin inkişafı üçün bütün şəraitlər yaradılmışdır. Sadəcə qalırdı bu şəraitdən istifadə etmək. Tək mətbuatda deyil, cəmiyyətin bütün sahələrində söz və fikir azadlığına, pülrealizmə böyük önəm verildi. Yəni hər bir Azərbaycan vətəndaşı öz fikrini istənilən yerdə azad surətdə ifadə etmək gücünə malik oldu. İstər sosial şəbəkələrdə, istər televiziya və radiolarda, istərsə də yeni-yeni yaradılan saytlarda bir-birindən maraqlı və düşüncə fərqi ilə seçilən fikirlər ortaya qoyuldu. Hətta dövlətin ən yüksək vəzifəli şəxsləri belə tənqid edildi, hansı ki müstəqillik dövründən əvvəl mətbuat tərəfindən belə bir addım atılsaydı onun təsisçisi, redaktoru və yazarları çox böyük təzyiqlərə, təqiblərə məruz qalardı. Bir çox halda onları həbsxana həyatıda gözləyə bilərdi. Artıq bütün bu stereotiplər arxada qalmış, köhnə düşüncəli məmurların kütləvi informasiya vasitələrinə, eləcə də digər azad sözü və fikri ifadə edən təbliğat vasitələrinə təzyiqləri sıfıra endirilmişdir. Heç şübhəsiz belə bir şəraitdə hər hansı demokratik fikri və düşüncəni cəmiyyətə çatdırmaq və insanlara ötürmək daha da asanlaşmışdır.

Beynəlxalq təşkilatların və eləcə də qeyri-hökümət qurumların ölkəmizə səfərləri, onların məmləkətimizdə mövcud demokratik dəyərlərin, söz və mətbuat azadlığının hansı formada olmasını bir daha aydın göstərirdi. Həmin qurumlar Azərbaycanda olarkən, müxtəlif kütləvi informasiya vasitələrinə və eləcə də cəmiyyətin içinə daxil olur, ordakı əsl həqiqətləri görür və əyri-əksiklər barəsində beynəlxalq təşkilatlarda məsələlər qaldırırdılar. Onlar gördü ki, həqiqətən Azərbaycan müstəqillik dövrünə qədəm qoyandan sonra söz, mətbuat və düşüncə azadlığına böyük önəm verir və bu sahədə yeni uğurlara imza atır. Heç şübhəsiz xarici ölkələrin müxtəlif institutlarının Azərbaycandakı mövcud mühiti öyrənməsi, araşdırması və beynəlxalq təşkilatlarda ədalətli çıxışı bizim üçün çox vacib idi. Ədalət naminə deyək ki, onların bəziləri qərəzli olsa da, amma əksəriyyəti Azərbaycandakı demokratik prosesləri yüksək dəyərləndirir, söz, mətbuat və fikir azadlığının inkişafını diqqətə çatdırırdı.

Əlbəttə bu cür mühitin formalaşması zaman-zaman onu göstərirdi ki, ölkəmizdə bu sahədə çox böyük islahatlar həyata keçirilir və yeniliklərə imza atılıb. İlham Əliyev hakimiyyətə gələndən sonra ölkəmizdə söz və mətbuat azadlığına bir qədər də münbit şərait yaradıldı. Jurnalistlərin, yazarların sərbəst fəaliyyəti və azad yaşaması üçün bütün şərait formalaşdı. Hətta jurnalistlər üçün mənzillərin də tikilməsi həyata keçirildi. Müxtəlif vaxtlarda ölkəmizdə jurnalistlərə beş yüzə yaxın pulsuz mənzil verildi. Bu mənzillərin verilməsi dünyada Azərbaycan mətbuatına analoqu və oxşarı olamayn bir diqqət idi. O diqqət ki, dünyanın heç bir yerində müstəqil fəaliyyət göstərən, dövləti tənqid edən və hətta bəzən qərəzli mövqe tutan mətbuat orqanına belə qayğı göstərildi. Bütün bunlar onu deməyə əsas verirdi ki, Azərbaycan nəinki Cənubi Qafqazda, hətta keçmiş MDB ölkələrində ən demokratik yolla inkişaf edən bir məmləkətdir və eyni zamanda bu məmləkətdə söz, mətbuat və fikir azadlığı önə çəkilir, hətta dövlət qayğısı göstərilir.

**Çox təəsüf ki, bəzi qeyri-hökümət təşkilatları, mətbuat orqanları və jurnalistlər ölkəmizdə yaradılmış demokratik mühitdən qərəzli məqsədlər üçün istifadə edir, bəzən ölkənin, dövlətin əleyhinə təbliğatlar aparır və eyni zamanda bu hərəkətləri ilə digər mətbuat orqanlarının fəaliyyətinə xələl gətirir. Heç bir mətbuat orqanı, heç bir qəzet, heç bir sayt ölkədə yaranmış demokratik mühitdən sui-istifadə etməməlidir. Ən azından ona görə ki, bizim ölkə dünyanın ən sivil, bəşəri və demokratik bir məmləkətidir. Bu demokratik məmləkətdə birmənalı olaraq hər şey hüquqi müstəvidə həll olunmalı, qanunların aliliyi qorunmalı, insanların hüquqlarına hörmətlə yanaşılmalıdır. Başqa sözlə demiş olsaq, Azərbaycanın demokratik dəyərlərinə, söz, mətbuat və fikir azadlığına hər bir vətəndaşımız, hər bir yazarımız, hər bir ziyalımız hörmətlə yanaşmalıdır. Əgər biz bu dəyərlərə hörmətlə yanaşsaq, cəmiyyət də bizə hörmətlə yanaşar və sevgi bəsləyər!**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Neftçi"nin və "Qarabağ"ın fanatlarının "qırğın"ında Aslan Kərimov günahkardır!

**Ötən həftə futbolsevərlər üçün çox temperamentli keçdi. Martın 3-də Misli Premyer Liqasının 25-ci turunun mərkəzi oyununda ”Neftçi” evdə ”Qarabağ”la üz-üzə gəldi. Ağdam təmsilçisi 4:1 hesabı qələbə qazanaraq çempionluğa bir addım daha yaxınlaşdı. Elə həmin andan uduzan komandanın da, udan komanın da azarkeşlərinin temperamenti hələki azalmayıb.**

Yeri gəlmişkən, matçın 63-cü dəqiqəsində ”Neftçi” azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə ”Neftçi” 1000 manat cərimə edilib. Oyundan əvvəl ”Qarabağ”ın azarkeşləri tərəfindən rəqib komandanın futbolçusunun ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə ”Qarabağ” 1000 manat cərimə edilib. Azarkeşlərin müzakirələri, polemika, yüngülvarı söz ”duel-la”ları , söyüş, qarğış göndərmələri hətta davam edir.Bunu sosial şəbəkələrdə aydın görmək olar.

Təbii ki, üstünlüyün ”Qarabağ”komandasında olması qarşı tərəfin azarkeşlərini çox mütəəssir etdi, kədərləndirdi. Uşaq çığallığına bənzər statuslar yazan ”uduzmuşlar”, nə yolla olur-olsun hər zaman qalib ”Neftçi” olduğunu isbat etməyə çalışdılar. Qarşı tərəfi aşağılamaqdan çəkinmədilər.

Bu tip status və rəylərə rast gəldikcə düşündük ki, axı bu azarkeşlər niyə belə əsəb keçirirlər, niyə coşurlar, sonucda qalib gələn də Azərbaycan komandasıdır, finala vəsiqə qazanan da Azərbaycan komandasıdır. Bu barışmazlıq nədir, anlamaq olmur. Bunları fikirləşdiyim bir dönəmdə qəflətən tanınmış futbol mütəxəssisi Aslan Kərimovun Fanat.Az-a açıqlaması qarşıma çıxdı. Kərimov deyir ki, ”Neftçi” ”Qarabağ”a nə fiziki hazırlıq baxımından uduzdu, nə taktiki planda":”Məncə, ”Neftçi” fiziki cəhətdən ”Qarabağ”a məğlub olmadı. Yəni, belə hesabda geridə olmağının səbəbi fiziki göstəricilər deyildi. Taktiki baxımdan da düşünmürəm ki, ”Neftçi” nəyisə düzgün etmədi və məğlub oldu. Birinci hissə nisbətən bərabər oyun keçdi. Burada əsas oyunçu keyfiyyəti rol oynadı. Oyunçularının səviyyəsinə görə, ”Qarabağ” rəqibini üstələdi. Sondakı iki hücum əks-hücumdan oldu. ”Neftçi”nin məğlubiyyəti oyunçu keyfiyyətinə bağlı idi”.





Futbol mütəxəssisi ””Neftçi” ”Qarabağ”a nə fiziki hazırlıq baxımından uduzdu, nə taktiki planda” deməklə , qalib ”Qarabağ” komandasının azarkeşlərinin temperamentini qaldırdı. Əlbəttə ki, ”Neftçi” nağdı -köz kimi uduzub. Məğlubdur!

”Qarabağ”ın azarkeşləri anlayır ki, ”Neftçi” fiziki hazırlıq baxımından da və yaxud taktiki planda da Qarabağdan zəifdir! Zəif deyildisə, niyə yekun nəticə 4-1 ”Qarabağ”ın xeyrinə oldu?

Bəli, Kərimovun iddia etdiyi fiziki və taktiki planda hazırlıqlı olan, uduzmuş ”Neftçi”nin azarkeşləri bu təsəllini əllərində bayraq etdi: ”Əslində ”Neftçi” çox güclüdür, heç uduzmayıb” düşüncəsi növbəti dəfə ”Qarabağ” azarkeşlərinin temperamentini qaldırdı. Onlar da düşünür ki, Kərimov açıqlaması ilə həqiqəti əks etdirməyib.Yəni, QALİBin adı qalibdir, MƏĞLUBun adı məğlub. Futbol mütəxəssisi uduzmuş komandaya ”qalib” donu seçməməlidir.

Hələ bir mənim kimi ”Qarabağ” fanatı var, girib status yazıb ki, 2023-cü ilin 18 dekabrında tərəflərin Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüşü Ağdam təmsilçisi 2:0 hesablı qələbəsi ilə başa çatdı. Görəsən,ağdamlıların hesabına 2 oyunda 6 xal verən ”Neftçi”nə vaxt fiziki hazırlıqlı bir oyuna imza atacaq?

Sosial şəbəkələrdə necə deyərlər , hər iki komandanın azarkeşləri girib bir-birinə. Qırğındır. Meydançadan sonra social şəbəkələrdə də temperamentin qalxmasının səbəbi tanınmış futbol mütəxəssisi Aslan Kərimovdur!

Aslan Kərimov bu fanatların arasına niyə temperament salırsan?

Qeyd edək ki, temperamentləri qalmış ”Neftçi” azarkeşləri oyunun gedişində Ağdam klubunun azarkeşlərini qıcıqlandıracaq pankart hazırlayıblar.

Bakı klubunun tərəfdarları ”Əziz Bakılılar və Şəhərimizin Qonaqları” sözləri yazılmış xareoqrafiya açıblar. Buna cavab olaraq matçdan sonra ”Qarabağ” həmin pankart əsasında video hazırlayaraq instaqram səhifəsində paylaşıblar.

**Əntiqə Rəşid**

## Əziz Əfran İsmayılov, "Bayer" ona görə böyük görünür ki...

**Bugün futbolçumuz Əfran İsmayılovun bir açıqlamasını oxudum.**

”Bayer”i gözümüzdə elə böyütmüşük ki, sanki başqa dünyadandırlar. Düzdür, bu mövsüm əla oynayırlar. Amma futbolda şans həmişə var.

Futbolçunun ”gözümüzdə böyütmək” məsələsi diqqətimi çəkdi.



Əziz Əfran, ”Bayer” olmasın, olsun, ”Liverpul”, yaxud da hansısa xarici klub. Bu klubları gözündə böyüdən biz deyilik, sizsiniz və Azərbaycan futboludur. Nöşün? Oşün ki, millimizin oyunlarına baxanda ”Lixtenşteyn” kimi cırtdan da bizim üçün div görünürdü, görünür və bəlkə də hələ bir xeyli də görünəcək. Onları bizim gözümüzdə kiçildən, yaxud da olduğu ölçüdə saxlayan sizin oyunlarınızdır. Bugün ”Qarabağ” ”Braqa”ya qalib gəldisə, biz ”Braqa”nı öz ölçüsündə də qəbul etdik. Nə böyütdük, nə də kiçiltdik.

O səbəbdəndir ki, biz illərdir Türkiyə klublarına azarkeşlik edirdik. Çünki bu böyüklərin arasına çıxan türk klubları olurdu. Çempionlar liqasının yarımfinalına qədər gələn bir türk klubuna nəinki türklər, heç avropalılar da kiçik baxmır.

Bəli, əsas məsələ oyundur. Heç kim heçnədən öz gözündə kimisə, nəyisə böyütmür. ”Bayer” ona görə böyük görünür ki, biz o səddi aşa bilməmişik

Biz də inanırıq ki, ”Qarabağ” almanların bizim gözümüzdəki həddən ziyadə böyüklüyünü biraz da olsa kiçildə biləcək.

**Eminquey**

## 70 kilometr uzaqlıqdakı sahildə iki fərqli həyat



**Eyni dövrdə cəmi 70 kilometr uzaqlıqda çəkilmiş və beynəlxalq xəbər agentlikləri tərəfindən paylaşılan bəzi fotoşəkillər baş verən insan faciəsini ortaya qoyur.**

Havalar yaxşılaşdıqca müharibəyə əhəmiyyət verməyən bir çox israilli Tel-Əviv sahilinə axışaraq dənizin, qumun və günəşin ləzzətini çıxarıb. Bəzi israillilər çimərlikdə uzanıb dincələrkən, digərləri dostları ilə top oynayıblar. Digər tərəfdən, bu kadrların çəkildiyi Tel-Əvivdən cəmi 70 kilometr uzaqlıqda olan Qəzzada çimərliklər döyüş bölgəsinə çevrilib. Xəbər agentliklərinin paylaşdığı fotolarda çoxlu fələstinlinin gələn yardım paketləri və ləvazimatları daşımağa çalışdığı görünür.

Qəzzada çimərliyə gətirilən yardım paketləri və un kisələri alaraq aclıqla mübarizə aparmağa çalışan fələstinlilərin yaşadıqları faciə üzə çıxıb.

**Emin**

## Müğənni: “İndi ərə getmək asandır”

**Gənc ifaçı Gülnar Ələkbərli şəxsi həyatı ilə bağlı açıqlama verib.**

Adalet.az xəbər verir ki, o, hələ evlənmək barədə düşünmədiyini bildirib:

”Namizəd çoxdur, amma mənim hələ belə bir fikrim yoxdur. Əvvəl müğənni qızlar çətin ailə qursa da, indi elə çətin deyil. Ərə getmək asandır. Hələ başım sənətimə qarışıb”.

**Əntiqə**

## Aşıq Zülfiyyə: “O mahnını oxumasa, onu boğaram”



**Aşıq Zülfiyyənin Əməkdar artist Zakir Əliyev haqda fikirləri tamaşaçıların marağına səbəb olub.**

Adalet.az bildirir ki, şou-proqramların birində qonaq olan sənətçi özü haqda Aşıq Zülfiyyədən maraqlı fikirlər eşidib:

”Dünən Zakirə zəng etdim ki, efirdə hansı mahnını oxuyacaqsan? Səidə xanım dedi ki, ancaq ”Ömür yoldaşım” mahnısını oxuyacaq. Dedi o mahnını oxumasa, onu boğaram. Həqiqətən də arvad sözünə baxan görmüşdüm, amma sənin kimisini görməmişdim.”

## Şəbnəm Tovuzlu: “Onların heç biri mənim yanımda dayana bilməz”



**Şəbnəm Tovuzlu sənəti ilə efirdə meydan oxuyub. Adalet.az bildirir ki, o, sənətinin Vəfa Şərifovadan üstün olduğunu açıqlayıb:**

”Mənim sənətim var. Təkcə Vəfa xanım yox, onun kimi bir çox ifaçı var ki, onların heç biri mənim yanımda dayana bilməz.Xanım kimi hər birinə hörmətim var. Amma sənətdən danışırıqsa məndən aşağı mərtəbədə dayanırlar. Bunu hər zaman deyirəm”.

## Canlı efirdə Türkana ev hədiyyə olundu



**Müğənni Türkan Vəlizadəyə şou proqramların birində böyük hədiyyə təqdim olunub.**

Adalet.az xəbər verir ki, müğənniyə imkanlı şəxs tərəfindən mənzil təqdim olunub. Lakin o, bu hədiyyəni qəbul etməyib:

”Hədiyyə üçün çox sağ olsun. Hər kim mənə qarşı bu addımı atıbsa, var olsun. Ancaq mən tanımadığım adamdan bu hədiyyəni qəbul edə bilmərəm. Həmin şəxs bu evi mənə hədiyyə edib, mən də ehtiyacı olan bir insane bağışlayıram. Kimə çatacaqsa, halalı olsun. Bu evin yerinə incə bir üzük və gül dəstəsi olsaydı, bəlkə də həmin adamın haqqında düşünmək olardı”.

## Mənzurə Musayevanı efirdə halı pisləşdi

**Müğənni Mənzurə Musayeva efirdə gərgin anlar yaşayıb.**

Adalet.az bildirir ki, müğənni səhər proqramında iştirak edərkən qəflətən halı pisləşib. O bunu qan təzyiqinin aşağı olması ilə əlaqələndirib.

Əhvalının daha da pisləşdiyini görən M. Musayeva studiyadan kənarlaşaraq açıq havada dayanmağa gedib”.

## Təranə Qumral: “Bir binada iki evimiz var”

**Şəxsi həyatları ilə gündəm olan Təranə-Musa Musayev cütlüyü bu dəfə də mülklərindən danşdılar.**

Adalet.az bildirir ki,T.Qumral qızının hündürlükdən qorxduğunu və onların bu səbəbdən 1-ci mərtəbəyə köçməyindən danışıb:

”Axır vaxtlar Sevgim (qızı) çox qorxur. Yazıq uşaq o qədər zəlzələ gördü ki, hündürlüyə qarşı qorxusu yarandı. Əslində binanın 13-cü mərtəbəsində yaşayırıq. Bütün əşyalarımız ordadır. Paltarlarımız 13-cü mərtəbədə, özümüz isə 1-ci mərtəbədə qalırıq. Bir binada iki evimiz var”.

**Əntiqə**

Millət vəkili Aqil Abbas və Faiq Qismətoğlu **Ənvər Seyidova** bacısı

**Leyla Seyidbəyovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 170**
Çapa imzalanmışdır: 07.03.2024